Xalqın qəzeti!

# Xalq qəzeti

№ 96 (31065) 4 iyun 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Milli bayramınız münasibətilə Zati-alinizə və xalqınıza həmrəylik və firavanlıq arzularımı çatdırmaqdan məmnunam.

Uca Tanrıya dua edirəm ki, azərbaycanlıları öz cəmiyyətlərini daha da inkişaf etdirməyə ruhlandırsın. Qoy, onlar ümumi rifah uğrunda çalışaraq, hər bir insanın ləyaqətini müdafiə edərək, ehtiyacı olanlara yardım göstərərək həmişə sülhün tərəfdarı olsunlar.

Zati-alinizə, dövlət işlərinə məsul şəxslərə və bütün həmvətənlərinizə İlahidən xeyir-dua diləyirəm.

*XIV LEO,*
*Roma Papası*

# Maliyyə sektorunun müasirləşdirilməsi ümumi tərəqqiyə üstün təminat yaradır

## Prezident İlham Əliyev Mərkəzi Bankın yeni binasının açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzi Bankın yeni inzibati binasının açılışında iştirak edib.**

Mərkəzi Bankın sədri Taleh Kazımov dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verdi.

Yeni bina paytaxtın Heydər Əliyev prospektində yerləşir. Müasir şəhərsalma prinsiplərinə uyğun inşa edilmiş bina yüksək funksionallığa və qabaqcıl texnoloji göstəricilərə malikdir.

Prezident İlham Əliyev milli pul nişanlarının konseptual yanaşmasının, dizayn xüsusiyyətlərinin və texnoloji inkişaf xəttinin müasir təqdimat üsulları ilə nümayiş olunduğu sərgiyə baxdı.

*(ardı 2-ci səhifədə)*

## Böyük Qayıdışın yeni fəlsəfəsi

### Sosial müdafiə dayanıqlı inkişafa təkan verir



**Ermənistanın işğal siyasəti nəticəsində bir milyondan artıq soydaşımız doğma torpaqlarından didərgin düşdü, minlərlə ailə ev-eşiyini, təsərrüfatını, həyat tərzini itirdi. Lakin Azərbaycan dövləti bu ağır sınaq qarşısında vətəndaşlarını taleyin ümidinə buraxmadı, 30 illik bir dövr ərzində məcburi köçkün probleminə ən mürəkkəb sosial məsələlərdən – dövlət siyasətinin əsas prioritetlərindən biri kimi həssaslıqla yanaşaraq çətinlikləri aradan qaldırdı.**

Bu gün isə ölkəmiz tamamilə yeni bir reallıq yaşayır. Qarabağ və Şərqi Zəngəzur azaddır. Dağıdılmış şəhər və kəndlər yenidən qurulur, yollar çəkilir, məktəblər, xəstəxanalar, yaşayış massivləri inşa edilir. Ən əsası isə insanlar öz doğma torpaqlarına qayıdırlar. Məhz buna görə də məcburi köçkünlərlə bağlı dövlət siyasəti yeni mərhələyə qədəm qoyur.

*(ardı 3-cü səhifədə)*

## Gəncə hadisələri və qurtuluşun yolu



Səhifə ⇨ 6

## İrəvan – Brüssel yaxınlaşması və Moskvanın artan qısqanclığı



Səhifə ⇨ 5

## Hindistan Qafqazda nə axtarır?

Səhifə ⇨ 5




## Bakı beynəlxalq enerji təhlükəsizliyi müzakirəsi məkanıdır



Səhifə ⇨ 4

## Humanitar diplomatiyanın Azərbaycan modeli



Səhifə ⇨ 4

## Qanlı Koçaryanın siyasi ölümünün son akkordu



Səhifə ⇨ 6

## Xəzərin zəngin mavi yanacaq xəzinəsi



Səhifə ⇨ 7

## Azərbaycanın qlobal süni intellekt yarışında yeni hədəfi



Səhifə ⇨ 7

## Yaxın Şərqdə müharibə yenidən alovlana bilər



Səhifə ⇨ 11

# Prezident İlham Əliyev Mərkəzi Bankın yeni binasının açılışında

*(əvvəli 1-ci səhifədə)*



Bildirildi ki, sərgidə milli pul nişanlarının tarixi, inkişaf mərhələləri, dizayn və mühafizə elementləri əks olunub.

Bina 35 mərtəbədən ibarətdir, burada ümumilikdə 1300 nəfərlik iş sahəsi, konfrans və mətbuat zalları, müxtəlif təlim və toplantı otaqları var.

Yeni binanın layihələndirilməsi zamanı əlçatanlıq və inklüzivlik prinsiplərinə xüsusi diqqət yetirilib, fiziki məhdudiyyətli şəxslərin binaya rahat və təhlükəsiz şəkildə girişinin, həmçinin sərbəst hərəkətinin təmin edilməsinə imkan verən infrastruktur yaradılıb.

Binada rəsmi görüş və toplantılar üçün 25 otaq nəzərdə tutulur. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub.





Yüksək keyfiyyət, təhlükəsizlik və dayanıqlı inkişaf standartlarına cavab verən binada müasir texnologiya və informasiya sistemləri də quraşdırılıb.

Burada, həmçinin əməkdaşların asudə vaxtının səmərəli təşkili məqsədilə istirahət məkanı yaradılıb, 340 nəfərlik yeməkxana da onların ixtiyarına veriləcək.

Müxtəlif tədbirlərin və təqdimatların keçiriləcəyi 240 nəfərlik konfrans zalında isə hər bir şərait mövcuddur.

Gecə saatlarında binanın vizual tanınmasını təmin edən multimedia fasad sistemi müxtəlif işıq ssenarilərinin və proyeksiyaların tətbiqinə imkan verir. Fasad da daxil olmaqla, ərazinin və binanın işıqlandırılması hərəkət sensorlu LED texnologiyası ilə təchiz olunub. Bu isə öz növbəsində günün işıqlı saatlarında elektrik enerjisinə qənaət etməyə imkan verir.

***AZƏRTAC***

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi"ndə və 2022-ci il 26 iyul tarixli 1764 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin bəzi hərbi qulluqçularının pul təminatının tənzimlənməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 47 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi"ndə dəyişiklik təsdiq edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 26 iyul tarixli 1764 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 3, maddə 366 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin bəzi hərbi qulluqçularının pul təminatının tənzimlənməsi Qaydası"nda dəyişiklik təsdiq edilsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyun 2026-cı il**

# XİN-də görüş və müzakirələr



**İyunun 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığın ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dankan Norman ilə görüşüb.**

Görüş zamanı səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri yeni təyinatı münasibətilə təbrik edib, ona Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Söhbət zamanı Azərbaycan-Birləşmiş Krallıq münasibətlərinin mövcud vəziyyəti və perspektivləri, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov bölgədə mövcud vəziyyət, postmünaqişə dövründə yaranmış reallıqlar, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi, ölkəmiz tərəfindən atılan addımlar barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Səfir Dankan Norman Azərbaycanda fəaliyyətə başlamaqdan məmnunluğunu ifadə edib, ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

*

**İyunun 2-3-də Bakıda Azərbaycan Respublikası ilə Avropa İttifaqının nümayəndə heyətləri arasında yeni hərtərəfli saziş layihəsi və 2026-2030-cu illəri əhatə edən Tərəfdaşlıq Prioritetləri sənədi üzrə danışıqlar aparılıb.**

Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Avropa İttifaqı tərəfinə isə Avropa Xarici Fəaliyyət Xidmətinin icraçı direktorunun müavini Audrone Perkauskiene rəhbərlik edib. Konstruktiv ruhda keçən müzakirələrin nəticəsində 2026-2030-cu illəri əhatə edən Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri sənədinin layihəsi ilkin olaraq razılaşdırılıb.

Yeni hərtərəfli saziş üzrə aparılan danışıqlar çərçivəsində Azərbaycanın aidiyyəti dövlət qurumlarının nümayəndələri Avropa İttifaqından olan həmkarları ilə birlikdə saziş layihəsinin müxtəlif bölmələri üzrə məhsuldar müzakirələr aparıb, bir sıra istiqamətlərdə irəliləyişlər əldə edilib və danışıqların növbəti mərhələləri ilə bağlı planlar müəyyən edilib.

Görüşün yekununda tərəflər yeni ikitərəfli saziş layihəsi üzrə danışıqların onlayn və fiziki görüşlər formatında intensiv şəkildə davam etdirilməsi barədə razılığa gəliblər.

***XQ***

# Azərbaycan – Belarus Hökumətlərarası Komissiyanın iclası





**Azərbaycan – Belarus Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq üzrə Komissiyasının 16-cı iclasında iştirak etmək məqsədilə Belarus Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə bu ölkənin Nazirlər Kabinetində görüş keçirilib.**

Söhbət zamanı nümayəndə heyətini salamlayan Belarus Respublikasının Baş naziri Aleksandr Turçin bildirib ki, Azərbaycan – Belarus qarşılıqlı iqtisadi əməkdaşlığında sənaye kooperasiyası və yeni layihələr strateji "artım nöqtələri" kimi vacib rol oynayır. O, əməkdaşlığın dərinləşdirilməsinin Belarus və Azərbaycan arasında ticarət dövriyyəsinin artmasına, qarşılıqlı investisiya layihələrinin genişlənməsinə və yeni birgə müəssisələrin yaradılmasına töhfə verəcəyini vurğulayıb.

Həmin gün Minsk şəhərində baş nazirlərin müavinləri Samir Şərifovun və Natalya Petkeviç rəhbərliyi ilə ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 16-cı iclası keçirilib.

Natalya Petkeviç Azərbaycan və Belarus arasında münasibətlərin zamanın sınağından çıxmış dostluq və qarşılıqlı etimada əsaslandığını bildirib. O qeyd edib ki, dövlət başçıları tərəfindən qarşıya qoyulan ikitərəfli ticarət dövriyyəsinin 1 milyard ABŞ dollarına çatdırılması hədəfi ölkələr arasında əməkdaşlıq potensialının yüksək olduğunu göstərir.

Baş nazirin müavini Samir Şərifov vurğulayıb ki, Azərbaycan – Belarus münasibətləri prezidentlər İlham Əliyev və Aleksandr Lukaşenko arasında formalaşmış qarşılıqlı etimad və yüksəksəviyyəli siyasi dialoq əsasında uğurla inkişaf edir. Qlobal iqtisadi çağırışlara baxmayaraq, Azərbaycan və Belarus arasında ticarət əlaqələri müsbət dinamika nümayiş etdirir. 2026-cı ilin ilk dörd ayı ərzində qarşılıqlı ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 faizdən çox artaraq 158 milyon ABŞ dollarına çatıb.

Tərəflər ticarət dövriyyəsinin daha da artırılması, ixrac nomenklaturasının şaxələndirilməsi və investisiya əməkdaşlığının genişləndirilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsi barədə razılığa gəliblər. Sənaye kooperasiyası əməkdaşlığın ən perspektivli istiqamətlərindən biri kimi qiymətləndirilib.

Azərbaycanda məişət texnikasının istehsalı, lift avadanlıqlarının yığılması, farmasevtika və baytarlıq preparatlarının istehsalı, eləcə də mineral gübrələrin hazırlanması sahələrində yeni birgə layihələrin həyata keçirilməsi imkanları da müzakirə edilib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən birgə layihələr xüsusi diqqət mərkəzində olub.

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafı, ərzaq təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarət sistemləri arasında inteqrasiyanın gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının qarşılıqlı ixracının artırılması məsələləri də geniş müzakirə olunub. Nəqliyyat və logistika sahəsində əməkdaşlığın inkişafı da iclasın əsas mövzularından biri olub. Humanitar əməkdaşlıq sahəsində əldə olunmuş nəticələr də yüksək qiymətləndirilib.

İclas çərçivəsində Azərbaycan–Belarus Hökumətlərarası Komissiyasının 16-cı iclasının yekun Protokolu, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ilə Belarus Respublikası Milli Statistika Komitəsi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu, 2026–2030-cu illər üçün bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq proqramı, Azərbaycan və Belarus səhiyyə nazirlikləri arasında 2026–2027-ci illər üçün səhiyyə sahəsində əməkdaşlıq üzrə Yol Xəritəsi, Gəncə Avtomobil Zavodu ilə "POJSNAB" arasında yanğınsöndürmə texnikasının yığılmasına dair müqavilə imzalanıb.

Növbəti, 17-ci Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının iclasının 2027-ci ildə Bakı şəhərində keçirilməsi barədə razılıq əldə olunub.

Azərbaycan-Belarus Hökumətlərarası Komissiyanın 16-cı iclasından sonra hökumət nümayəndələrinin və iş adamlarının iştirakı ilə Azərbaycan-Belarus biznes-forumu keçirilib.

***XQ***

# MDB Dövlət Xəbər Agentlikləri Rəhbərləri Şurasının iclası



**İyunun 3-də Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində Müstəqil Dövlətlər Birliyinin Dövlət Xəbər Agentlikləri Rəhbərləri Şurasının 34-cü iclası keçirilib. AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iclasda iştirak edib.**

İclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan dövlət xəbər agentliklərinin rəhbərləri və nümayəndələri, həmçinin MDB İcraiyyə Komitəsinin təmsilçiləri süni intellektdən istifadə, bu kontekstdə peşəkar jurnalistika standartlarına riayət edilməsi, feyk məlumatlara qarşı mübarizə məsələlərini və bu sahədə xəbər agentlikləri arasında əməkdaşlıq perspektivlərini müzakirə ediblər. Çıxışlarda materialların sürətlə hazırlanması, mətnlərin müxtəlif dillərə tərcüməsi, beynəlxalq gündəmin monitorinqi, xəbər məzmununun keyfiyyətinin artırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi üçün müasir texnologiyalardan istifadənin vacibliyi vurğulanıb.

Xəbər agentlikləri arasında süni intellektdən istifadə sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə təlim proqramlarının yaradılması, avtomatlaşdırma sistemlərinin tətbiqi sahəsində təcrübə mübadiləsi ilə bağlı razılıq əldə olunub.

Tədbirdə Beynəlxalq Fakt Yoxlama Assosiasiyasının fəaliyyəti, MDB-nin 35 illiyi münasibətilə tədbirlərə hazırlıq məsələləri müzakirə olunub və Milli Xəbər Agentlikləri Assosiasiyasının yeni veb-saytının təqdimatı keçirilib.

***XQ***

# Məcburi köçkünlərin mülkiyyət hüququnun təminatı

**İyunun 3-də Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib.**

İclasın gündəliyinə Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda daxil edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, müzakirəyə təqdim olunan qanun layihəsi keçmiş məcburi köçkünlərin doğma yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsaslarının təkmilləşdirilməsini, işğaldan azad edilmiş ərazilərə köçürülən şəxslərin statusunun və onlara göstərilən sosial dəstək mexanizmlərinin tənzimlənməsini nəzərdə tutur.

Komitə sədri qeyd edib ki, məcburi köçkünlər uzun illər Azərbaycan dövlətinin xüsusi qayğısı ilə əhatə olunub. Onların sosial və digər problemlərinin həlli Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın daim diqqət mərkəzində olub. Məcburi köçkünlərin sosial problemlərinin həlli ilə əlaqədar Azərbaycan Prezidenti tərəfindən 2004-2019-cu illər ərzində 75 fərman və sərəncam imzalanıb, Milli Məclis tərəfindən 11 qanun qəbul edilib.

***(ardı 5-ci səhifədə)***

# Böyük Qayıdışın yeni fəlsəfəsi

*(əvvəli 1-ci səhifədə)*



### Dövlət qayğısının 30 illik salnaməsi

Məcburi köçkünlərin sosial müdafiəsi istiqamətində görülən işlərin miqyası ölkəmizin sosial siyasət tarixində xüsusi yer tutur. Təkcə son iki onillikdə bu sahəyə milyardlarla manat vəsait yönəldilib. Çadır düşərgələri, vaqon şəhərcikləri və digər ağır məskunlaşma məntəqələri mərhələli şəkildə ləğv olunub, yüz minlərlə insan yeni mənzillərlə təmin edilib.

Respublikada 121 yeni qəsəbə və yaşayış kompleksi salınıb, 62 mindən çox ailənin yaşayış şəraiti yaxşılaşdırılıb. Minlərlə gəncin təhsil haqqı dövlət tərəfindən ödənilib, yüz minlərlə insan məşğulluq proqramlarına cəlb olunub, sahibkarlıq fəaliyyətinə dəstək göstərilib. Bu siyasətin nəticəsi statistik göstəricilərdə də aydın görünür. Vaxtilə məcburi köçkünlər arasında yüksək olan yoxsulluq səviyyəsi kəskin şəkildə azalıb. Bu, dövlət dəstəyinin formal deyil, real nəticələr doğurduğunu göstərir.

Bu gün həyata keçirilən Böyük Qayıdış proqramının mahiyyəti əvvəlki dövrlərdən köklü şəkildə fərqlənir. Əgər vaxtilə məqsəd insanların sosial müdafiəsini təmin etmək idisə, indi əsas vəzifə onların doğma torpaqlarında dayanıqlı həyat qurmasına şərait yaratmaqdır. Ağalı, Laçın, Zabux, Füzuli, Şuşa, Talış və digər yaşayış məntəqələrində aparılan quruculuq işləri göstərir ki, söhbət təkcə ev tikintisindən getmir. Burada yeni sosial model formalaşdırılır. Müasir məktəblər, xəstəxanalar, rəqəmsal xidmətlər, kommunal infrastruktur, ictimai məkanlar və məşğulluq imkanları paralel şəkildə yaradılır.

### Sosial müdafiədən sosial inteqrasiyaya

Bu gün dövlətin məqsədi insanları uzunmüddətli yardım alan kateqoriya kimi saxlamaq deyil. Əksinə, onların öz evinin sahibi, öz təsərrüfatının qurucusu, sahibkarı və iqtisadi həyatın fəal iştirakçısına çevrilməsini təmin etməkdir. Elə buna görə də Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən siyasətin əsas fərqləndirici cəhəti sosial yardım prinsipindən sosial inteqrasiya modelinə keçiddir.

Məhz bu baxımdan yeni yaşayış məntəqələrində mülkiyyət hüququ mühüm önəm daşıyır. Çünki insan öz evinin sahibi olduqda həmin torpaqla bağlılığı daha da möhkəmlənir, gələcəyini həmin ərazidə qurmağa üstünlük verir. Belə bir yanaşma isə həm sosial məsuliyyət hissini artırır, həm də yerli icmaların formalaşmasına və bölgələrin dayanıqlı inkişafına xidmət edir.



Qayıdış prosesinin uğuru təkcə tikinti və infrastruktur layihələri ilə ölçülmür. Qarabağ və Şərqi Zəngəzurun gələcəyini müəyyən edəcək əsas amil insan kapitalıdır. Məcburi köçkün ailələrinin övladlarının təhsil imkanlarının qorunması istiqamətində uzun illər ərzində həyata keçirilən siyasət də məhz bu yanaşmaya əsaslanılaq uğurla davam etdirilir.

Minlərlə tələbənin təhsil haqqının dövlət tərəfindən ödənilməsi gələcək Qarabağın peşəkar kadr bazasının formalaşdırılmasını sürətləndirir. Başqa sözlə, yeni məktəblərin istifadəyə verilməsi, peşə hazırlığı proqramlarının reallaşdırılması, rəqəmsal təhsil imkanlarının yaradılması və müasir tədris infrastrukturunun qurulması bölgənin uzunmüddətli inkişafını şərtləndirir.

### Yeni dövrün çağırışı

Tarix göstərir ki, insanların hər hansı ərazidə daimi məskunlaşmasının əsas şərtlərindən biri məşğulluqdur. Çünki iş yeri olmayan yerdə dayanıqlı həyat qurmaq çox çətindir. Buna görə də hazırda Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı, turizm, xidmət sektoru, emal sənayesi, logistika və kiçik sahibkarlığın inkişafına xüsusi diqqət yetirilir. Sənaye parkları, yaşıl enerji layihələri və yeni iqtisadi zonalar bölgənin iqtisadi xəritəsini getdikcə dəyişir.

Prezident İlham Əliyevin azad edilmiş ərazilərə hər səfəri yeni obyektlərin təməllərinin atılması və ya inşaat işlərinin yekunlaşdırılması ilə əlamətdar olur. Qarabağ və Şərqi Zəngəzura səfərlər zamanı dövlətimizin başçısının doğma evlərinə geri dönən sakinlərlə görüşlərdə səsləndirdiyi fikirlər, verdiyi mesajlar xüsusilə əhəmiyyəti ilə diqqət çəkir.

İşğaldan azad edilmiş ərazilərdə düşmənin vəhşicəsinə dağıtdığı tarixi, dini, mədəni abidələrimiz, təbiətimiz bərpa olunur. Bu istiqamətdə Heydər Əliyev Fondu da xüsusi fəallıq göstərir, vaxtilə ermənilər tərəfindən dağıdılmış milli və mənəvi irsimizin bərpasına layiqli töhfələr verir. Fondun xüsusən Qarabağın mirvarisi olan Şuşa şəhərində həyata keçirdiyi quruculuq layihələri bu qədim yurd yerimizin tarixi şöhrətini və özünəməxsus ənənələrini özünə qaytarır.

Məcburi köçkün statusu işğal dövrünün yaratdığı fövqəladə vəziyyətin hüquqi ifadəsi idi. Hazırda isə Azərbaycan artıq postmünaqişə mərhələsinə daxil olub. Buna görə də hüquqi və sosial mexanizmlərin yeni reallıqlara uyğunlaşdırılması təbii prosesdir. Burada əsas məqam dövlət dəstəyinin aradan qaldırılması deyil, onun yeni məzmun qazanmasıdır. Sosial müdafiə tədbirləri uğurla həyata keçirilir, lakin onların məqsədi artıq insanları müvəqqəti şəraitdə saxlamaq yox, doğma torpaqlarında güclü və dayanıqlı həyat qurmağa yardım etməkdir.

Böyük Qayıdış proqramı məskunlaşma layihəsi olmaqla bərabər, həm də Azərbaycanın müasir tarixində həyata keçirilən ən genişmiqyaslı sosial, iqtisadi və demoqrafik transformasiya sənədidir. Bu prosesin fəlsəfəsi isə çox sadədir: məcburi köçkün anlayışını tarixə çevirmək, onun yerində isə öz torpağında yaşayan, mülkiyyət sahibi olan, çalışan, yaradan və gələcəyinə inanan vətəndaş modelini formalaşdırmaqdır.

Məhz buna görə də Böyük Qayıdış yalnız Qarabağa dönmək, dogma od-ocağı isitmək deyil. Bu, Azərbaycan dövlətinin sosial müdafiədən sosial inteqrasiyaya, müvəqqəti məskunlaşmadan dayanıqlı yaşayışa və yardım modelindən inkişaf modelinə keçidinin parlaq nümunəsidir. Bu model gələcəkdə postmünaqişə dövrünü yaşayan digər ölkələr üçün də öyrənilməli təcrübələrdən birinə çevrilə bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

# Məcburi köçkünlükdən daimi məskunlaşmaya keçid

**Azərbaycan dövlətinin son 30 ildə həyata keçirdiyi ən mühüm sosial-humanitar siyasət çərçivəsində məcburi köçkünlərin sosial müdafiəsi, yaşayış şəraitinin yaxşılaşdırılması və hüquqlarının təmin olunması istiqamətində reallaşdırılan layihələr mühüm önəm daşıyıb. Ermənistanın hərbi təcavüzü nəticəsində yüz minlərlə soydaşımız doğma torpaqlarından didərgin düşsə də, dövlət onların problemlərini heç zaman diqqətdən kənarda qoymayıb. Bu siyasətin əsasında insan amili, sosial ədalət və vətəndaş rifahı prinsipləri dayanıb.**

44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm Zəfər nəticəsində işğal altındakı torpaqların azad edilməsi, uzun illər davam edən məcburi köçkünlük dövrünün başa çatdırılması üçün real imkanlar yaranması ilə Azərbaycan bu gün yeni tarixi mərhələsini yaşayır. Məhz bu reallıqlar fonunda Milli Məclisdə müzakirəyə çıxarılan Mənzil Məcəlləsində, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında” və “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi xüsusi əhəmiyyət daşıyır.





### Yeni mərhələnin hüquqi çərçivəsi

İyunun 3-də Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında birinci oxunuşda müzakirəyə çıxarılan qanun layihəsi mahiyyət etibarilə məcburi köçkünlük mərhələsindən Böyük Qayıdış mərhələsinə keçidin hüquqi əsaslarını formalaşdırır.

Qanun layihəsinin əsas məqsədi işğaldan azad edilmiş ərazilərə qayıdan keçmiş məcburi köçkünlərin daimi yaşayışının təmin olunması, onların mülkiyyət hüquqlarının bərpası, sosial müdafiə mexanizmlərinin yeni reallıqlara uyğunlaşdırılması və hüquqi status məsələlərinin yenidən tənzimlənməsidir. Əgər ötən dövrdə dövlət siyasətinin əsas istiqaməti məcburi köçkünlərin müvəqqəti məskunlaşdırılması və sosial problemlərinin həlli idisə, indiki prioritet onların doğma torpaqlarda daimi məskunlaşması, iqtisadi fəaliyyətə cəlb olunması və normal həyat şəraitinin yaradılmasıdır.

Bu baxımdan qanun layihəsi texniki hüquqi dəyişiklik olmaqla bərabər, həm də Azərbaycanın postmünaqişə inkişaf modelinin mühüm tərkib hissəsi kimi diqqət çəkir. Məcburi köçkünlərin sosial müdafiəsi sahəsində Azərbaycanın dünyanın ən uğurlu təcrübələrindən birini formalaşdırması da bunun bariz ifadəsidir. Bu sahədə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasət hazırda Prezident İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilir.

Yeri gəlmişkən, 2004–2019-cu illər ərzində məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı Prezident tərəfindən 75 fərman və sərəncam imzalanıb. Nazirlər Kabineti tərəfindən 224 qərar və sərəncam qəbul olunub, Milli Məclis isə 11 qanun təsdiqləyib. 2004-cü ildə qəbul edilən “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” isə bu istiqamətdə yeni mərhələnin başlanğıcı olub.

Həyata keçirilən tədbirlər nəticəsində ölkə üzrə fəaliyyət göstərən 12 çadır düşərgəsi tamamilə ləğv edilib. Dəmir yolu vaqonlarında yaşayan insanların məskunlaşma problemi həll olunub. Sonuncu fin tipli qəsəbə isə 2016-cı ildə bağlanıb. Bu illər ərzində 121 yeni qəsəbə və yaşayış kompleksi salınıb, 62 mindən çox ailənin, yəni 300 mindən artıq məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Bununla yanaşı, dövlət tərəfindən məcburi köçkün ailələrinə vahid aylıq müavinət ödənilib, vergi və təhsil güzəştləri tətbiq olunub, məşğulluq proqramları həyata keçirilib, tibbi-sosial xidmətlər göstərilib. Bütün bunlar göstərir ki, Azərbaycan dövləti öz vətəndaşlarını ən çətin şəraitdə belə diqqət və qayğıdan kənarda qoymayıb.

### Qələbənin yaratdığı reallıq

2020-ci ildə əldə olunan tarixi Qələbə məcburi köçkün məsələsinə tamamilə yeni məzmun gətirib. Artıq söhbət köçkünlük şəraitinin yaxşılaşdırılmasından deyil, insanların öz doğma torpaqlarına qayıdışından gedir. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması bölgənin gələcək inkişafının strateji istiqamətlərini müəyyənləşdirdi. Daha sonra dövlət başçısının 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı” təsdiq edildi. Bu proqram Azərbaycanın müasir tarixində ən genişmiqyaslı sosial-iqtisadi layihələrdən biri hesab olunur. Son 4 il ərzində proqramın icrasına dövlət büdcəsindən təxminən 28 milyard manat vəsait ayrılıb.

Qarabağ və Şərqi Zəngəzurda onlarla şəhər, qəsəbə və kənd yenidən qurulub, müasir infrastruktur yaradılıb, yollar, hava limanları, məktəblər, xəstəxanalar, enerji və su təchizatı sistemləri inşa edilib. Hazırda 40-dan çox yaşayış məntəqəsində keçmiş məcburi köçkünlərin daimi yaşayışı təmin olunub. İşğaldan azad edilmiş ərazilərdə 85 minə yaxın insan yaşayır, çalışır və təhsil alır. Bu göstəricilər Böyük Qayıdış proqramının artıq nəzəri konsepsiya deyil, real həyat faktına çevrildiyini göstərir.

Müzakirəyə çıxarılan qanun layihəsinin ən mühüm məqamlarından biri qayıdan vətəndaşların mülkiyyət hüquqlarının təmin edilməsidir. Belə ki, illərlə məcburi məskunlaşma şəraitində yaşayan insanlar dövlət tərəfindən verilən mənzillərdən istifadə hüququna malik olsalar da, həmin yaşayış sahələrinin mülkiyyətçisi hesab edilmirdilər. Yeni hüquqi mexanizm isə doğma yurd-yuvalarına qayıdan vətəndaşların daimi yaşayış sahələri üzərində tam mülkiyyət hüququ əldə etməsinə imkan yaradır. Bu isə təkcə sosial məsələ deyil, eyni zamanda, konstitusion hüququn bərpasıdır.

Mülkiyyət hüququ insan hüquqlarının fundamental elementlərindən biridir. İnsan öz evinin sahibinə çevrildikdə onun gələcəyə inamı artır, ailə institutunun möhkəmlənməsi üçün əlavə təminatlar yaranır, sosial sabitlik güclənir. Bu baxımdan qanun layihəsini insan hüquqlarının təntənəsi kimi qiymətləndirmək tam əsaslıdır.

### Sosial dəstək davam edir

Qanunvericilikdə aparılan dəyişikliklər məcburi köçkün ailələrinə göstərilən dövlət dəstəyinin dayandırılması anlamına gəlmir. Əksinə, yeni yanaşma sosial müdafiə sisteminin müasir mərhələyə uyğunlaşdırılmasını nəzərdə tutur. Təhsil sahəsində mövcud güzəştlərin davam etdirilməsi bunun ən bariz nümunəsidir. Hazırda ödənişli əsaslarla ali təhsil alan minlərlə məcburi köçkün statuslu tələbənin təhsil haqqı dövlət tərəfindən ödənilir. 2025–2026-cı tədris ilində 3923 tələbənin təhsil xərclərinin qarşılanması dövlətin sosial məsuliyyətinin davam etdiyini göstərir.

Eyni zamanda, ünvanlı dövlət sosial yardımı, məşğulluq proqramları, peşə hazırlığı kursları və digər sosial müdafiə mexanizmləri qüvvədə qalır. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzurda yaşayan və çalışan vətəndaşlar üçün vergi, sosial sığorta, əmək münasibətləri və digər sahələr üzrə xüsusi güzəştlər tətbiq olunur. Beləliklə, dövlət siyasətinin əsas məqsədi sosial təminatın məzmununu dəyişmək deyil, onu yeni inkişaf mərhələsinin tələblərinə uyğunlaşdırmaqdır.

Bu gün Qarabağa və Şərqi Zəngəzura qayıdan insanlar sadəcə öz evlərinə dönmürlər. Onlar Azərbaycanın gələcəyinin qurucularına çevrilirlər. Məcburi köçkün statusunun uzun illər ərzində formalaşdırdığı müvəqqəti həyat modeli artıq daimi məskunlaşma modeli ilə əvəz olunur. İnsanlar öz torpaqlarında yaşayır, işləyir, sahibkarlıq fəaliyyəti göstərir, övladlarını doğma yurdlarında böyüdürlər.

Bu proses regionun iqtisadi potensialının reallaşdırılmasına, demoqrafik tarazlığın bərpasına, milli-mədəni irsin qorunmasına və ölkənin ümumi inkişafına mühüm töhfə verir. Məhz buna görə də Milli Məclisdə müzakirə olunan qanun layihəsi təkcə hüquqi sənəd deyil. Bu, Azərbaycanın tarixi Zəfərinin sosial və hüquqi nəticələrinin təsbitidir.

Beləliklə, məcburi köçkünlük Azərbaycan xalqının son onilliklər ərzində üzləşdiyi ən ağır humanitar problemlərdən biri idi. Lakin dövlətin ardıcıl siyasəti nəticəsində bu problem nəzarətdə saxlanıldı, insanların sosial müdafiəsi təmin olundu və onların gələcəyə inamı qorundu. Bu gün isə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işləri, Böyük Qayıdış proqramının uğurlu icrası və qanunvericilikdə aparılan yeni dəyişikliklər məcburi köçkünlük dövrünün başa çatdığını nümayiş etdirir.

Milli Məclisdə müzakirə olunan qanun layihəsi Azərbaycan dövlətinin öz vətəndaşları qarşısında götürdüyü öhdəliklərə sadiqliyinin növbəti təzahürüdür. Bu sənəd keçmiş məcburi köçkünlərin doğma torpaqlarda ləyaqətli, təhlükəsiz və davamlı həyatının hüquqi təminatını yaradır, Böyük Qayıdış strategiyasının möhkəm qanunvericilik bazasını formalaşdırır və tarixi ədalətin bərpasına xidmət edir.

***V.BİNYATOĞLU***
***XQ***

# Bakı beynəlxalq enerji təhlükəsizliyi müzakirəsi məkanıdır

## *Bu, Heydər Əliyevin neft strategiyasının təntənəsidir*

**Dövlət başçımızın istər yerli, istərsə də beynəlxalq əhəmiyyətli hər hansı tədbirdə səsləndirdiyi fakt, arqument və rəqəmlər təkcə siyasi əhəmiyyət kəsb etmir, həm də region və dünya mətbuatı üçün çoxsaylı mövzular verir. Prezidentin 31-ci "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən məlum sərgi və enerji forumunun açılışındakı çıxışı da bu baxımdan xüsusi önəm kəsb edirdi. Bu barədə aşağıda ətraflı söz açmağa çalışacağıq. Ancaq indi başqa bir məqamı xatırlatmaq istəyirik.**



**Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu. Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan "Bakı Enerji Həftəsi" adlanır. Haqlı olaraq bildirildi ki, dünyanın ən iri qaz yataqlarına aid "Şahdəniz" müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

İyunun 1-də Bakı Ekspo Mərkəzində ilk çıxış edən Böyük Britaniyanın "ICA Events" şirkətinin İdarə Şurasının müşaviri Tomas Hord bizim üçün xüsusi önəm kəsb edən bir məqama toxundu: "1994-cü ildə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müasir tarixində yeni bir səhifə açdı. Tarixi "Əsrin müqaviləsi"nin imzalanması ilə yanaşı, təşkil olunan ilk Xəzər Neft və Qaz Sərgisi ölkənin uzunmüddətli enerji strategiyasının təməlini qoydu, Azərbaycanı qlobal enerji sektorunda etibarlı və vacib tərəfdaş kimi təsdiqlədi".

Fikrimizcə, bu fakt Azərbaycanın beynəlxalq aləmdəki çoxsaylı dost və tərəfdaşlarından birinin səmimi ürək sözləri olmaqla yanaşı, dünya ictimaiyyətinin Azərbaycan reallıqlarının etirafı kimi qiymətləndirilməlidir. Cənab Tomas Hord həmin məqamda 46 ölkədən gəlmiş 270-dən çox şirkətin təmsilçiləri adından danışırdı. O, hamıya növbəti dəfə xatırladırdı ki, bugünkü Azərbaycanın çoxsaylı uğurlarının təməlində hansı liderin müdrikliyi, uzaqgörənliyi dayanır.

Bəli, Azərbaycan son 23 ildə Heydər Əliyev siyasi kursunu uğurla davam etdirərək başqa dövlətlərin bir əsrdə qazandığından çox nailiyyətlərə imza atıb. Ən başlıcası, həmin siyasət bizim dostlarımızın gündən-günə artmasını təmin etmiş (biz bunu COP29-un beynəlxalq əks-sədası zamanı da gördük, WUF13-ün reallaşdırıldığı günlərdə də) və nəticədə son iki-üç əsrdə əlli milyondan artıq soydaşımızın üz qaralığına səbəb olmuş erməni işğalına son qoyduq. Haqqında söz açdığımız son tədbir – regionun aparıcı beynəlxalq enerji platformalarından birinə çevrilən, dövlət başçılarını, nazirləri, qlobal enerji şirkətlərini, investorları və sənaye mütəxəssislərini enerji sənayesinin gələcəyini formalaşdıran əsas prioritetləri müzakirə etmək üçün bir araya gətirən "Bakı Enerji Forumu" da məhz son 23 ildə qazanılan mükəmməl nüfuzun göstəricilərindəndir.

Ekspertlərin fikrincə, Prezidentin budəfəki çıxışı da çoxsaylı faktların xatırladılması və perspektivdəki uğurların proqnozu kimi qəbul edilirdi. Həmin arqumentin müəllifləri haqlıdırlar. Çünki cənab Prezident adıçəkilən tədbirdə dövlət müstəqilliyimizin ilk illərinin son dərəcə ağır, iqtisadi baxımdan qarışıq, siyasi baxımdan qeyri-sabit keçdiyini xatırlatdı və əlavə etdi ki, o zaman ərazimizin təxminən 20 faizi Ermənistan tərəfindən işğal edilmiş və nəticədə bir milyon həmvətənimiz məcburi köçkün həyatı yaşamalı olmuşdu. Həmin ağır illərdə ölkədə yoxsulluq səviyyəsi 50 faizi aşmış, işsizlik geniş yayılmışdı. Dövlət başçımız qürurla xatırladırdı ki, həmin dövrdə müstəqil ölkə kimi yaşamaq və inkişaf etmək üçün sahib olduğumuz təbii sərvətlərdən səmərəli istifadəni yeganə çıxış yolu kimi gördük və Xəzərin enerji ehtiyatlarının beynəlxalq neft şirkətlərinə açan ilk ölkə olaraq böyük, tarixi uğurlara imza atdıq. Prezident xatırlatdı ki, dünyanın ən iri qaz yataqlarına aid "Şahdəniz" müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb: "Beləliklə, sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açıldı. Bu tədbirin əhəmiyyəti, həmçinin ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda əks olunub".

Azərbaycan liderinin fikrincə, enerji məsələsini yenidən normal məcraya qaytardığına görə Prezident Trampa daha bir təşəkkür düşür: "Hamımız bilirik ki, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkələr və şirkətlərə damğa vurulurdu, bəzən qarayaxma obyektinə çevrilirdilər, planetin dağıdılmasında ittiham olunurdular. Hər hansı əsas olmadan, ictimai rəylə küncə sıxışdırılırdılar. Prezident Tramp bu trendi dəyişdi və bu, həqiqətən əla hadisə oldu, çünki hamımız bilirik ki, hətta bəzi iri neft şirkətləri dırnaqarası müasir trendə uyğun olmaq xatirinə öz adlarını dəyişirdilər. Lakin reallıq tamamilə fərqlidir. Dünya faydalı qazıntı olmadan yaşaya bilməz". Bu zaman xüsusilə vurğulanmalı başqa bir məqam da var. Kifayət qədər təbii sərvətləri olan, uzun illər genişmiqyaslı faydalı qazıntı işləri aparmış elə ölkələr var ki, neft və qaz onlara xoşbəxtlik gətirməyib. Daha doğrusu, gətirə bilərdi, amma... Bunu son əlli-altmış ilin hesabatlarına nəzər salanlar aydın görə bilərlər. Prezident həmin arqumentin Azərbaycana tətbiq ediləcəyi təqdirdə tamamilə fərqli mənzərənin ortaya çıxdığını qürurla xatırladır: "Əgər bu gün biz Azərbaycana nəzər salsaq, ...bu sərvətlərdən necə istifadə etdiyimizə, onun yenidən sosial infrastruktura, təhsilə, səhiyyəyə, enerji sahəsinin inkişafına yatırdığımıza əsasən deyə bilərik ki, ölkələr necə inkişaf etməlidir və bu yol 1990-cı illərin əvvəlində üzləşdiyimiz eyni problemlərdən müəyyən dərəcədə əziyyət çəkən ölkələr üçün örnək olmalıdır".

Bəli, Azərbaycan dövləti təbii sərvətlərdən əldə edilən mənfəəti Dövlət Neft Fondu və Mərkəzi Bankda toplayaraq, xarici borcun 18 dəfədən çox üstələnməsinə nail olub. Bəs buna necə nail olmuşuq? Təbii ki, ilk növbədə, əldə edilmiş vəsaitlərdən düzgün istifadə etməklə: "Biz həm investorlara, həm də ev sahibi ölkəsinə qazanc gətirən vəziyyəti yaratdıq. Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq. Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı. Biz demək olar ki, 30 il ərzində işğal altında qalmış torpaqlarımızı azad edən güclü ordu qurduq. Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik. Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, – istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, – bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər".

Diqqət yetirin. Prezidentin çıxışının birinci hissəsində söhbət ölkəmizin malik olduğu təbii sərvətlərdən xalqımızın həyat səviyyəsinin daha da yaxşılaşdırılması, dövlətimizin qüdrətləndirilməsi, ordumuzun ən müasir maddi-texniki bazaya malik olması üçün atılan addımlardan gedir. Sonra isə Azərbaycanın təbii sərvətlərinin səmərə verdiyi daha böyük arealdan söz açılır: "Enerji təhlükəsizliyi. Biz hamımız ondan danışırıq, xüsusilə indi Yaxın Şərqdəki böhran bir çox ölkələrin, istehsalçı və istehlakçıların enerji təhlükəsizliyinə ciddi zərbə vurduğu vaxtda. Biz bunun üzərində uzun illər çalışmışıq. Biz böyük sərmayələr yatırmışıq və Xəzər dənizini Aralıq dənizi ilə ilk dəfə birləşdirən Bakı–Tbilisi–Ceyhan, Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı–Supsa neft kəmərləri kimi irimiqyaslı infrastruktur layihələrinə başlamışıq. Cənubi Qafqaz qaz kəməri ilə günümüzün ən iddialı enerji infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizini təşkil edən TANAP və TAP, Trans–Anadolu və Trans–Adriatik qaz kəmərləri 3500 kilometr uzunluğunda birləşmiş boru xətti sistemindən ibarətdir. Layihənin bir hissəsi yüksək dağlıq ərazidən keçir, bir hissəsi isə dənizin dibi ilə gedir. Bu gün bu layihə sayı artmaqda olan ölkələrin enerji təhlükəsizliyini təmin edir. Biz bu layihəyə başladıq və bizimlə birlikdə olan tərəfdaş ölkələrə və şirkətlərə minnətdarıq".

Sonda dövlət başçımızın dostlarımızın fəxrinə, bədxahlarımızın isə kədər və qısqanclığına səbəb olacaq bir arqumentini xüsusi şriftlərlə qabartmaq istəyirik: "Bu gün Avropa enerji bazarının Cənub Qaz Dəhlizi olmadan necə olacağını təsəvvür etmək çətindir".

Qələbələrin, Zəfərlərin, uğurların əbədi, dünyanın hər yerində dalğalanan bayrağın daim uca olsun, Azərbaycan!!!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Humanitar diplomatiyanın Azərbaycan modeli

## *Ukraynalı uşaqlara yardım xalqımızın insanpərvərliyindən qaynaqlanır*

**XXI əsrin geosiyasi reallıqları göstərir ki, humanitar fəaliyyət, sosial məsuliyyət və sülh təşəbbüsləri ölkələrin beynəlxalq imicinin formalaşmasında mühüm amillərdir. Xüsusilə müharibələrin, silahlı münaqişələrin və humanitar böhranların artdığı bir dövrdə insanların rifahına yönəlmiş addımlar dövlətlərin qlobal nüfuzuna və etibarlılığına birbaşa təsir göstərir. Ona görə humanitar diplomatiya artıq beynəlxalq siyasətin strateji istiqamətlərindən biri hesab olunur.**

Son illər Azərbaycan məhz bu istiqamətdə ardıcıl və məqsədyönlü siyasət həyata keçirərək regional və beynəlxalq səviyyədə humanitar təşəbbüslərin fəal iştirakçısına çevrilib. Ölkənin müxtəlif beynəlxalq platformalarda nümayiş etdirdiyi təşəbbüslər, humanitar layihələrə verdiyi töhfələr, təbii fəlakətlərdən və müharibələrdən zərər görən insanlara göstərdiyi dəstək beynəlxalq münasibətlər sistemində məsuliyyətli tərəfdaş kimi mövqeyimizi daha da gücləndirib.

İyunun 1-də – Uşaqların Beynəlxalq Müdafiəsi Günündə həyata keçirilən növbəti humanitar layihə də bu siyasətin davamlı xarakter daşıdığını göstərən mühüm hadisə kimi diqqət çəkir. Layihə çərçivəsində Ukraynadan olan qaçqın ailələrin uşaqlarından ibarət daha bir qrup reabilitasiya məqsədilə Azərbaycana gətirilib. İlk baxışda humanitar yardım aksiyası kimi görünən təşəbbüs, əslində, daha geniş siyasi və mənəvi məna daşıyır. Çünki müharibədən zərər çəkmiş uşaqların psixoloji və sosial dəstək alaraq normal həyata adaptasiya olunması beynəlxalq humanitar həmrəyliyin konkret nümunəsidir.

Məlumdur ki, müharibələr ən ağır zərbəni həmişə uşaqlara vurur. Onlar fiziki təhlükələrlə yanaşı, psixoloji travmalar, sosial təcrid, təhsil imkanlarının məhdudlaşması və gələcək perspektivlərin qeyri-müəyyənliyi ilə üzləşirlər. Buna görə də beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən həyata keçirilən reabilitasiya proqramları müasir humanitar siyasətin ən vacib istiqamətlərindən biri hesab olunur. Azərbaycanın ukraynalı uşaqlar üçün təşkil etdiyi proqramlar məhz bu məqsədə xidmət edir. Təşəbbüsün diqqətçəkən tərəflərindən biri onun epizodik xarakter daşımamasıdır. Son illər belə proqramlar mütəmadi şəkildə həyata keçirilib və artıq sistemli humanitar fəaliyyət modelinə çevrilib. Rəsmi məlumatlara görə, indiyədək 630-dan çox ukraynalı uşaq Azərbaycanda müxtəlif reabilitasiya proqramlarından yararlanıb.

Humanitar diplomatiya, eyni zamanda, xalqlar arasında etimadın formalaşdırılmasına, dövlətlər arasında əməkdaşlıq



münasibətlərinin möhkəmləndirilməsinə və beynəlxalq həmrəyliyin gücləndirilməsinə xidmət edir. Azərbaycanın həyata keçirdiyi təşəbbüslər məhz belə nəticələr doğurur. Reabilitasiya proqramlarında iştirak edən uşaqlar və onların ailələri ölkəmizə təhlükəsiz, tolerant və humanist məkan kimi baxmağa başlayırlar.

Humanitar yardım göstərilən şəxslərin milli, dini, etnik və ya siyasi mənsubiyyətinə görə fərqləndirilməməsi müasir hüququn əsas prinsiplərindən biridir. Azərbaycan da məhz bu yanaşmanı rəhbər tutur. Yardım proqramları insan amilindən çıxış edərək həyata keçirilir. Bu isə ölkənin beynəlxalq humanitar fəaliyyətinə əlavə legitimlik qazandırır. Azərbaycan uzun illər ərzində multikulturalizm, dini tolerantlıq və mədəni müxtəlifliyin təşviqi istiqamətində mühüm addımlar atıb. Bakıda keçirilən beynəlxalq humanitar forumlar, mədəniyyətlərarası dialoq təşəbbüsləri, müxtəlif dini və etnik qrupların dinc-yanaşı yaşamasını təmin edən mühit ölkənin bu sahədəki siyasətinin əsas sütunlarını təşkil edir. Ukraynalı uşaqlar üçün həyata keçirilən reabilitasiya proqramı da həmin siyasətin beynəlxalq humanitar ölçüdə davamı kimi qiymətləndirilə bilər.

Qlobal siyasətdə humanitar təşəbbüslərin əhəmiyyəti son illər daha da artıb. BMT, Avropa İttifaqı və digər beynəlxalq qurumlar münaqişələrin həllində siyasi mexanizmlərin kifayət etmədiyini vurğulayırlar. İnsanların sosial rifahının təmin



olunması, travmaların aradan qaldırılması və gələcək nəsillərin müdafiəsi davamlı sülhün əsas şərtlərindən biri hesab edilir. Bu mənada, uşaqların reabilitasiyasına yönəlmiş layihələr həm də sülhyaratma xarakteri daşıyır. Azərbaycanın təşəbbüsü məhz eyni aspektdən xüsusi əhəmiyyət kəsb edir. Müharibənin təsirlərini yaşamış uşaqların sosial adaptasiyası onların gələcəkdə daha sağlam və təhlükəsiz mühitdə inkişaf etməsinə imkan yaradır.

Azərbaycanın humanitar siyasətinin daha bir mühüm xüsusiyyəti onun ardıcıllığıdır. Ölkəmiz Ukraynadan başqa, müxtəlif regionlarda baş vermiş humanitar böhranlar zamanı yardım proqramlarında iştirak edib. Pandemiya dövründə müxtəlif dövlətlərə və beynəlxalq təşkilatlara göstərilən dəstək, təbii fəlakətlərdən zərər çəkmiş ölkələrə humanitar yardımlar, inkişaf etməkdə olan dövlətlərlə əməkdaşlıq proqramları bu siyasətin geniş coğrafiyasını göstərir. Bütün bunlar Azərbaycanın beynəlxalq humanitar məsuliyyət prinsipinə sadiqliyini təsdiqləyir. Bu gün dünya yeni çağırışlarla üz-üzədir. Regional münaqişələr, humanitar böhranlar, məcburi köçkünlük və qaçqın problemləri milyonlarla insanın həyatına təsir göstərir. Belə şəraitdə humanitar diplomatiya dövlətlər arasında körpü rolunu oynayır, siyasi ziddiyyətlərin yaratdığı boşluğu insan həmrəyliyi ilə doldurmağa çalışır. Azərbaycanın son illərdəki fəaliyyəti göstərir ki, ölkəmiz bu prosesdə fəal iştirakçı kimi çıxış edir.

İnsan hüquqlarına hörmət, tolerantlıq, inklüzivlik və sosial məsuliyyət prinsiplərinə əsaslanan fəaliyyət Azərbaycanın humanitar diplomatiya sahəsində formalaşdırdığı modelin effektivliyini göstərir. Çünki uşaqların müdafiəsinə yönəlmiş hər bir addım, əslində, gələcəyin müdafiəsinə yönəlib. Ölkəmiz bu missiyanı həyata keçirərək regional sülhə, beynəlxalq həmrəyliyə və qlobal humanitar dəyərlərin təşviqinə mühüm töhfə verməyə davam edir.

***Tacir SADIQOV***
***XQ***

# İrəvan–Brüssel yaxınlaşması və Moskvanın artan qısqanclığı

**Avropa İttifaqı (Aİ) ilə Ermənistan arasında münasibətlər yeni mərhələyə qədəm qoyub. İkitərəfli siyasi dialoq daha geniş iqtisadi və strateji əməkdaşlıq perspektivlərini gündəmə gətirir. Bu dinamikanın son göstəricisi Avropa Komissiyasının genişlənmə məsələləri üzrə komissarı Marta Kos ilə Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında baş tutan telefon danışığıdır. Bu zaman müzakirə mövzusu Aİ-nin Ermənistanla həmrəyliyi, ölkənin suveren inkişaf yolu və İrəvana yönəlik iqtisadi dəstək imkanlarının genişləndirilməsi olub. Eyni zamanda, Aİ-nin Ermənistana maliyyə və institusional dəstəyinin artırılması imkanlarının nəzərdən keçirildiyi bildirilib. Bu, İrəvanın xarici siyasətdə diversifikasiya cəhdlərini Brüsselin fəal şəkildə dəstəklədiyini göstərir.**

Aİ ilk dəfə Moskvanın İrəvana təsirini açıq şəkildə iqtisadi və siyasi təzyiq aləti kimi xarakterizə edib. Bu yanaşma İrəvan–Brüssel münasibətlərinin formatını dəyişib. Əgər əvvəllər əməkdaşlıq yalnız bəyanatlar və ümumi siyasi dialoq səviyyəsində idisə, indi proses konkret iqtisadi və institusional mexanizmlərin qurulmasına doğru irəliləyir. Brüsselin qısamüddətli operativ dəstək paketləri hazırlaması İrəvanı kənar təzyiqlərə qarşı daha dayanıqlı etmək məqsədi daşıyır.

Moskva və İrəvan arasında yaranan gərginlik artıq diplomatik ritorikadan kənara çıxaraq real iqtisadi müstəviyə keçib. Ermənistan uzun illər Rusiya bazarından, enerji resurslarından və logistik marşrutlarından yüksək dərəcədə asılı olub, bu gün də asılıdır. Bu da Moskvanın əlində güclü təsir rıçaqları formalaşdırıb. Son dövrlər Rusiya



tərəfindən Ermənistan mənşəli kənd təsərrüfatı məhsullarının, konserv və spirtli içkilərin idxalına məhdudiyyətlərin qoyulması, keyfiyyət standartları ilə bağlı iradların artması, sərhəd-keçid məntəqələrində yükdaşımalara nəzarətin sərtləşdirilməsi bunun nəticəsidir. Həm də İrəvana birbaşa siyasi mesajdır. Əslində, bu addımlar texniki deyil, siyasi xarakter daşıyır və Ermənistanın ixracat potensialına zərbə vurmaqla daxili bazarda sosial-iqtisadi gərginlik yaratmaq məqsədi güdür.

* * *

Ermənistan iqtisadiyyatı üçün ən böyük strateji təhdid enerji sektorunda yaranıb. Ölkənin təbii qaza tələbatını, demək olar ki, hamısını Rusiya təmin edir. Cari geosiyasi böhran fonunda qiymətlərdə mümkün artım və ya əvvəllər tətbiq edilən güzəştlərin ləğv olunması riski İrəvanın qarşısında duran ən həssas məsələdir.

Bununla yanaşı, Rusiya Avrasiya İqtisadi İttifaqı (AİI) çərçivəsində də siyasi siqnallar göndərməkdə davam edir. Rəsmi Moskva dəfələrlə bəyan edib ki, Ermənistan, eyni zamanda, həm Aİ ilə inteqrasiya edib, həm də Rusiyanın rəhbərlik etdiyi iqtisadi blokun (AİI) tamhüquqlu üzvü kimi fəaliyyət göstərə bilməz. Bu yanaşma İrəvan qarşısında açıq geosiyasi seçim dilemması yaradır.

Bu çərçivədə Aİ Ermənistan üçün yalnız siyasi deyil, həm də iqtisadi alternativ formalaşdırmağa çalışır. Marta Kosun açıqlamalarına görə, Aİ ölkəyə əlavə dəstək mexanizmlərini genişləndirməyi və yeni iqtisadi əməkdaşlıq modellərini inkişaf etdirməyi planlaşdırır. Məqsəd Ermənistanın xarici ticarət asılılığını diversifikasiya etmək, Rusiya bazarından asılılığı azaltmaq və Avropa bazarlarına çıxış imkanlarını genişləndirməkdir. Bu çərçivədə nəqliyyat, enerji, rəqəmsal transformasiya və yaşıl iqtisadiyyat sahələri prioritet istiqamətlər müəyyən edilib.

Hazırda Ermənistan üçün nəzərdə tutulan 270 milyon avroluq inkişaf proqramı isə ölkənin iqtisadi dayanıqlılığının gücləndirilməsinə yönəlib. Eyni zamanda, Aİ Cənubi Qafqazı Avropa ilə Mərkəzi Asiya arasında mühüm logistika və enerji dəhlizi kimi qiymətləndirir və Ermənistanın regional layihələrə inteqrasiyasını strateji məqsəd kimi görür.

Bundan başqa, son illərdə Ermənistanla Aİ arasında ticarət dövriyyəsində artımı da müşahidə olunur. Bu artım Ermənistan–Aİ



münasibətlərində iqtisadi yaxınlaşmanın gücləndiyini göstərir. Məqsəd isə Ermənistan məhsullarının Rusiya bazarında asılılığını azaltmaq, Moskvanın İrəvana təsirini zəiflətməkdir. Bunun nəticəsidir ki, Rusiyanın geri qaytardığı kənd təsərrüfatı məhsullarının bir hissəsi Aİ ölkələrinə ixrac olunub. Bununla belə, ekspertlər hesab edirlər ki, Ermənistanın qısa müddətdə Rusiya iqtisadi orbitindən çıxması mümkün deyil. Enerji asılılığı, ixrac strukturunun Rusiya bazarına bağlılığı və pul köçürmələrinin böyük hissəsinin bu ölkə ilə əlaqəli olması transformasiyanı mərhələli və uzunmüddətli prosesə çevirir.

* * *

Maraqlı məqamlardan biri də Rusiyanın Ermənistana təzyiqlərinin artmasının seçkiöncəsi dövrə düşməsidir. Bununla bağlı Aİ-nin Xarici Fəaliyyət Xidmətinin nümayəndəsi Anitta Hipper Brüsseldə keçirilən brifinqdə bildirib ki, Rusiyanın Ermənistana qarşı iqtisadi addımlarının vaxtı təsadüfi deyil. Onun sözlərinə görə, Moskva bir tərəfdən iqtisadi təzyiq göstərir, digər tərəfdən parlament seçkiləri öncəsi Ermənistanda siyasi proseslərə təsir etməyə çalışır. Aİ rəsmisi vurğulayıb ki, Ermənistan suveren, demokratik və müstəqil dövlətdir, öz inkişaf yolunu, eləcə də beynəlxalq tərəfdaşlarını sərbəst seçmək hüququna malikdir. Brüsselin mövqeyinə görə, İrəvanın strateji qərarları xarici təzyiq və təsir cəhdlərindən kənarda formalaşmalıdır. Bununla da Aİ ilk dəfə Rusiyanın Ermənistanın daxili işlərinə müdaxiləsini açıq şəkildə gündəmə gətirib.

Mövzu ilə bağlı **politoloq İlqar Hüseynli** XQ-yə bildirdi ki, son hadisələr göstərir ki, Ermənistan artıq təkcə Cənubi Qafqazın deyil, bütövlükdə, postsovet məkanının əsas geosiyasi və geoiqtisadi rəqabət meydanlarından birinə çevrilib: "Ölkə ətrafında formalaşan yeni mənzərə iqtisadi və siyasi müstəvilərdə paralel mübarizə yaradır. Moskva bir tərəfdən mövcud iqtisadi rıçaqlardan istifadə etməklə regiondakı ənənəvi təsir imkanlarını qorumağa çalışır, digər tərəfdən isə Brüssel alternativ iqtisadi və institusional imkanlar təqdim etməklə İrəvanın strateji manevr imkanlarını genişləndirməyə səy göstərir.

Məhz bu çərçivədə Marta Kosun Ermənistanla həmrəylik bəyanatı və Anitta Hipperin Moskvanın ünvanına səsləndirdiyi ittihamlar vahid siyasi xəttin tərkib hissəsidir. Brüssel bu addımlarla Ermənistanın suveren qərarvermə hüququnu müdafiə etdiyini açıq şəkildə nümayiş etdirir və ölkənin xarici siyasət seçiminin kənar müdaxilələrdən azad olmalı olduğunu vurğulayır".

Beləliklə, Ermənistanın Avropaya doğru yönəlmək cəhdləri regional asılılıq zəncirini qırmağı hədəfləsə də, bu keçid dövrü İrəvan üçün ciddi iqtisadi sınaqlarla müşayiət olu-



nur. Aİ-nin vəd etdiyi maliyyə dəstəyinin bu riskləri nə dərəcədə kompensasiya edə biləcəyi və vəd edilən mexanizmlərin nə vaxr praktik müstəviyə keçəcəyi yaxın dövrün əsas suallarındandır. Bütün bunlar göstərir ki, yaxın aylarda regional rəqabət daha da kəskinləşəcək. Xüsusilə 3 gün sonrakı parlament seçkiləri təkcə ölkədaxili siyasi proses deyil, regionda nüfuz uğrunda mübarizə aparan beynəlxalq güc mərkəzləri üçün sınaq rolunu oynayacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Hindistan Qafqazda nə axtarır?

## *İrəvanın silahlandırılması geosiyasi maraqlara xidmət edir*

**Ermənistanın Hindistanla müdafiə sahəsində əməkdaşlığı fəal şəkildə genişləndirməsi günümüzün reallığıdır. Hindistanda ingilis dilində gündəlik nəşr edilən və tirajına görə üçüncü qəzet olan "Times of India"nın yazdığına görə, İrəvan Azərbaycan, Türkiyə və Pakistanın yaratdığı ittifaqdan qaynaqlandığı iddia olunan təhlükələr fonunda silahlı qüvvələrini gücləndirmək məqsədilə 2020-ci ildən sonra ümumi dəyəri 2 milyard dollar olan silah alışına dair müqavilələr imzalayıb.**




Bildirilir ki, Ukraynada uzanan müharibə səbəbindən Rusiyanın hərbi dəstəyinin azalması Ermənistanı təhlükəsizlik sahəsində yeni tərəfdaşlar axtarmağa məcbur edib: "Müdafiə qabiliyyətini artırmaq və ordusunu müasirləşdirmək üçün İrəvan Hindistandan müasir silah sistemləri alır. Əlaqələrin dərinləşdirilməsi çərçivəsində Ermənistan silahlı qüvvələrinin 3 nəfərlik nümayəndə heyəti bu yaxınlarda Hindistanın Maharaştra ştatının Naşik şəhərində yerləşən artilleriya məktəbində olub. Onlar Hindistanın hazırlıq metodikaları ilə tanış olub, həmçinin artilleriya bölmələrinin döyüş atışlarını izləyiblər. Bundan əlavə, Ermənistan silahlı qüvvələri baş qərargahının rəisi, general-leytenant Edvard Asryan ötən ay Yeni Dehlidə Hindistan Müdafiə Nazirliyinin rəhbər şəxsləri, o cümlədən müdafiə qərargahının rəisi, general Anil Çauhan və Quru Qoşunlarının komandanı, general Upendra Dvivedi ilə yüksək səviyyəli danışıqlar aparıb".

Məqalədə qeyd edilib ki, Hindistan 2020-ci il müharibəsindən sonra Ermənistanın əsas müdafiə tərəfdaşlarından birinə çevrilib: "Həmin ildən etibarən iki ölkə arasında bağlanan və ümumi dəyəri təxminən 2 milyard dollar olan müdafiə sazişlərinə "Swathi" əks-batareya radarları, "Pinaka" çoxkalibrli yaylım atəşli reaktiv sistemləri və pilotsuz uçuş aparatlarına qarşı mübarizə kompleksləri daxildir. 2022-ci ildə isə İrəvan Hindistanın "Akash" zenit-raket kompleksinin ilk xarici sifarişçisi olub və 720 milyon dollar dəyərində müqavilə imzalayıb. "Akash" sistemlərinin tədarükünə 2024-cü ildə başlanılıb və bu komplekslər Ermənistanın pilotsuz uçuş aparatları və raket təhdidlərinə qarşı imkanlarını genişləndirib. Bununla yanaşı, Hindistan Ermənistanın hərbi bazalarının və mühüm infrastruktur obyektlərinin qorunması üçün xüsusi antidron sistemləri də təqdim edib. Hazırda iki ölkənin rəsmiləri hərbi hazırlıq, birgə müdafiə istehsalı və Ermənistanın Rusiya isethsalı "Su-30SM" qırıcılarının Hindistan texnologiyaları əsasında modernləşdirilməsi imkanlarını da müzakirə edirlər".

İrəvan getdikcə daha çox müasir silah sistemləri, hərbi hazırlıq proqramları və birgə müdafiə istehsalı layihələri üçün Yeni Dehliyə üz tutur. Bu isə Hindistanı Cənubi Qafqazda qüvvələr nisbətinə təsir göstərən mühüm aktorlardan birinə çevirir.

* * *

"Times of India"nın yazdıqlarının şərhinə keçməzdən öncə, qeyd edək ki, Hindistan mediasında vaxtaşırı olaraq İrəvanla Yeni Dehli arasında yeni irimiqyaslı silah sazişi ilə bağlı danışıqların aparıldığı barədə məlumatlar yayılır. Potensial sazişə "BrahMos" operativ-taktiki raketlərinin tədarükü də daxil oluna bilər. 400–500 kilometr uzaqdakı hədəfləri vurmağa və 300 kiloqrama qədər döyüş başlığı daşımağa qadir olan "BrahMos" raketləri həm yerüstü, həm də hava platformalarından buraxıla bilir. Hindistan bu raketləri müdafiə sənayesinin ən mühüm nailiyyətlərindən biri kimi təqdim edir. Bu raketlərin ilk döyüş tətbiqi ötən yay Hindistan və Pakistan arasında baş vermiş qısamüddətli silahlı qarşıdurma zamanı qeydə alınıb. Yeni Dehli iddia edir ki, "BrahMos"lar vasitəsilə Pakistanın hərbi hava bazasına və komanda mərkəzinə yüksək dəqiqlikli zərbə endirilib. Hindistan tərəfi bildirir ki, Ermənistan Azərbaycanın İsraildən aldığı "LORA" operativ-taktiki raketləri ilə balans yaratmaq (?) məqsədilə "BrahMos" raketlərinə maraq göstərir.

Məqalədə əksini tapan fikirlərə gəldikdə isə, qeyd etmək lazımdır ki, Ermənistanın Hindistandan silah alışını Azərbaycan–Türkiyə–Pakistan ittifaqına qarşı addım kimi təqdim etməsi reallığı əks etdirmir. Yazıda istifadə olunan yanaşma daha çox siyasi təbliğat xarakteri daşıyır və regiondakı yeni reallığı nəzərə almır. Əvvəla, Ermənistanı hansısa Azərbaycan–Türkiyə–Pakistan hərbi blokunun təhdid etdiyi barədə iddialar əsassızdır. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, regionda əsas məqsəd davamlı sülhün təmin olunması, kommunikasiyaların açılması və normal qonşuluq münasibətlərinin qurulmasıdır. Türkiyə də bu prosesə açıq dəstək verir. Pakistanın Azərbaycanla yaxın münasibətləri isə heç vaxt Ermənistana qarşı hərbi planlar kontekstində təqdim olunmayıb.

Digər tərəfdən, son bir ildə bölgədə baş verən hadisələr tamamilə fərqli mənzərə ortaya qoyur. Bakı və İrəvan artıq sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişin mətnini razılaşdıraraq paraflayıblar. Tərəflər təxminən 10 aya yaxındır ki, hərbi toqquşmalar olmadan yaşayırlar. Sərhəddə əvvəlki illərlə müqayisədə daha sakit vəziyyət müşahidə olunur.

Əslində, Hindistanın Ermənistana artan marağına başqa prizmadan baxmaq lazımdır. Son illər Yeni Dehli ilə İslamabad arasında gərginlik artıb. Bu fonda Hindistan Pakistanın yaxın tərəfdaşları olan Azərbaycan və Türkiyənin mövqelərini də diqqətlə izləyir. Ermənistan isə Hindistan üçün Cənubi Qafqazda müəyyən dayaq nöqtəsi rolunu oynaya biləcək ölkə kimi görünür. Başqa sözlə, prosesə yalnız Ermənistanın təhlükəsizlik ehtiyacları prizmasından deyil, Hindistanın geosiyasi maraqları baxımından da yanaşmaq lazımdır.

Fəqət Cənubi Qafqazın gələcəyini silah yarışları deyil, siyasi razılaşmalar müəyyənləşdirəcək. Son illər göstərdi ki, bölgədə sabitlik üçün ən vacib amil Bakı ilə İrəvan arasında birbaşa dialoqdur. Həmin dialoq davam etdiyi müddətdə kənardan gətirilən silah sistemləri və ya müxtəlif geosiyasi hesablamalar həlledici rol oynaya bilməz. Tarix dəfələrlə sübut edib ki, qonşularla münasibətlərin normallaşdırılması hər hansı silah müqaviləsindən daha davamlı nəticələr verir. Ermənistanın iqtisadi inkişafı, regional layihələrə qoşulması və nəqliyyat əlaqələrinin açılması onun gələcəyi üçün daha böyük əhəmiyyət daşıyır. Bu baxımdan "Times of India"nın yaratmağa çalışdığı "Azərbaycan–Türkiyə–Pakistan ittifaqına qarşı Ermənistan–Hindistan əməkdaşlığı" təsviri müəyyən qədər şişirdilmiş görünür. Reallıqda bölgənin gündəliyində əsas mövzu yeni qarşıdurma deyil, sülh prosesinin tamamlanmasıdır. Azərbaycan və Ermənistanın əldə etdiyi razılaşmalar göstərir ki, tərəflər müharibə səhifəsini bağlamağa çalışırlar.

Nəticə etibarilə qeyd etmək lazımdır ki, Hindistanın Ermənistanla hərbi əməkdaşlığı iki dövlətin suveren seçimidir. Lakin bunu Ermənistanın, guya Azərbaycan, Türkiyə və Pakistan tərəfindən mühasirəyə alındığı tezisi ilə əsaslandırmaq doğru deyil. Bu gün regionda əsas həqiqət ondan ibarətdir ki, Bakı və İrəvan sülh sazişinin imzalanmasına əvvəlkindən daha yaxındırlar. Belə bir şəraitdə qarşıdurma ssenarilərini ön plana çıxarmaqdan daha çox, yaranmış sülh imkanlarını möhkəmləndirmək vacibdir. Cənubi Qafqazın gələcəyini müəyyən edəcək amil məhz budur.

***Səxavət HƏMİD***
***XQ***

# Məcburi köçkünlərin mülkiyyət hüququnun təminatı

***(əvvəli 2-ci səhifədə)***

Torpaqlarımızın işğal altında olduğu dövrdə məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 121 yeni qəsəbə və yaşayış kompleksi tikilərək onların istifadəsinə verilib. 62 mindən çox məcburi köçkün ailəsinin, yəni 300 min nəfərdən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Dövlət tərəfindən məcburi köçkün ailələrinə uzun illər ərzində təhsil və vergi güzəştləri, vahid aylıq müavinət, ünvanlı sosial yardım, məşğulluq proqramları, tibbi-sosial reabilitasiya və digər sosial müdafiə mexanizmləri çərçivəsində davamlı dəstək göstərilib.

Bildirilib ki, məcburi köçkünlərə göstərilən diqqət və qayğı torpaqlarımız işğaldan azad edildikdən sonra da davam etdirilib. Vətən müharibəsində Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə geniş bərpa və quruculuq işləri həyata keçirilib. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb, yeni mərhələdə qarşıya qoyulan hədəflərin reallaşdırılması məqsədilə dövlətimizin başçısının 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın Tədbirlər Planı təsdiqlənib. Qeyd olunub ki, Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına başlanmasından ötən dörd il ərzində bu məqsədlə dövlət büdcəsindən 28 milyard manata yaxın vəsait ayrılıb, Qarabağda və Şərqi Zəngəzurda 40-dan çox yaşayış məntəqəsində keçmiş məcburi köçkünlərin daimi yaşayışı təmin olunub. İşğaldan azad edilmiş ərazilərdə hazırda 85 minə yaxın soydaşımız yaşayır, təhsil alır və işlə təmin edilib.

Musa Quliyev bildirib ki, Birinci Dövlət proqramının icrası ilə bağlı möhkəm hüquqi baza yaradılıb, qanunvericilikdə müvafiq dəyişiklik edilərək Qarabağda və Şərqi Zəngəzurda işləyən və məskunlaşan şəxslər üçün yeni müavinət növü təsis edilib, məzuniyyət, vergi, sosial sığorta güzəştləri və imtiyazları müəyyən olunub. Bu gün müzakirəyə təqdim olunan qanun layihəsi məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi köçkün statusu ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, qanun layihəsi Vətən müharibəsində qazanılan Qələbənin hüquqi nəticəsi olmaqla, məcburi köçkünlük dövründən Böyük Qayıdış mərhələsinə keçidi təsbit edir. Onun sözlərinə görə, qanun layihəsi qalibiyyət dövrünün reallıqlarına uyğun məcburi köçkünlərin uzunmüddətli köçkünlük vəziyyətindən çıxarılaraq, daimi yaşayış və sabit həyat şəraiti ilə təmin olunmasının dəqiq hüquqi mexanizmlərini yaradır. Yeni hüquqi tənzimləmə müvəqqəti məskunlaşma modelini daimi məskunlaşma və mülkiyyət hüququ ilə əvəz edir, bununla da işğaldan azad edilmiş ərazilərə qayıdan məcburi köçkünlər öz evlərinin tamhüquqlu sahibi olurlar. Qanun layihəsi mülkiyyət hüququnun təmin olunması, daimi məskunlaşmanın təşviqi və sosial müdafiə tədbirlərinin davamlılığının qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

Sonra iclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək, qanun layihəsinə əsasən məcburi köçkünlərin konstitusion mülkiyyət hüququnun bərpa olunduğunu, onun icra mexanizminin yaradıldığını söyləyib. O, mülkiyyət hüququnun bərpasını insan hüquqlarının təntənəsi kimi dəyərləndirib. Layihənin konseptual, hüquqi, vətəndaşların sosial müdafiəsi, insan hüquqlarının təmin edilməsi baxımından əhəmiyyətli olduğunu deyib, rəhbərlik etdiyi komitənin sənədi dəstəklədiyini bildirib.

Məsələ ətrafında aparılan müzakirələrdə deputatlar öz fikirlərini, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov və Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsi rəisinin müavini Səkinə Əliyeva çıxış ediblər, layihə barədə fikirlərini bildiriblər. Onlar qanun layihəsinin Böyük Qayıdış prosesinin hüquqi əsaslarının möhkəmləndirilməsinə, məcburi köçkünlərin mənzil və mülkiyyət hüquqlarının daha dolğun təmin olunmasına xidmət etdiyini vurğulayıblar. Həmçinin layihədə nəzərdə tutulan yeni hüquqi mexanizmlərin tətbiqi ilə bağlı məsələlərə aydınlıq gətiriblər.

İclasın yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***XQ***

# Gəncə hadisələri və qurtuluşun yolu

## *Ümummilli lider Heydər Əliyevin tarixi xilaskarlıq missiyası*

**Dövlətlərin xarici siyasət strategiyasının və milli təhlükəsizlik arxitekturasının formalaşması prosesində lider amili hər zaman həlledici rol oynayır. Geosiyasi təzyiqlər qarşısında suverenliyin qorunması resursları milli güc elementinə çevirmək qabiliyyəti ilə sıx bağlıdır. Müstəqilliyin ilk illərində daxili xaos, iqtisadi sarsıntı və hərbi-siyasi böhranla üzləşən Azərbaycan dövləti üçün xilas yolunun müəyyənləşdirilməsi məhz müdrik rəhbərin uzaqgörən qərarları sayəsində mümkün oldu. Keçmiş sovet məkanında cərəyan edən xaotik geosiyasi proseslər fonunda respublikanın gələcək taleyi barədə suallar yaranan məqamda daxili siyasi sabitliyin bərqərar olması və ardınca reallaşdırılan enerji strategiyası milli qurtuluş modelinin əsas sütunlarını təşkil etdi.**



Azərbaycanın müasir siyasi tarixində 4 iyun 1993-cü il Gəncə hadisələri dövlətçiliyin varlığına bilavasitə təhdid yaradan ən böyük sınaqlardan hesab olunur.

Həmin gün Gəncədə yerləşən hərbi hissənin tərkisilah edilməsi məqsədilə həyata keçirilən hökumət əməliyyatı uğursuzluqla nəticələndi və silahlı toqquşmaya çevrildi. Mərkəzi rəhbərliyin göndərdiyi qüvvələrlə yerli hərbi qruplaşmalar arasında baş verən qanlı qarşıdurma çoxlu insan tələfatına yol açdı. Qarşıdurmanın ardınca mərkəzi hakimiyyətə tabe olan rəsmi şəxslər girov götürüldü və dövlətin güc strukturları regional səviyyədə tamamilə iflic vəziyyətinə düşdü. Gəncədə nəzarəti ələ keçirən silahlı qruplar mərkəzi hökumətin istefasını tələb edərək paytaxt istiqamətində hərəkətə başladılar. Yaranmış vəziyyət respublikada hərbi-siyasi böhranın ən pik həddə çatdığını təsdiqlədi.

Gəncədən başlayan silahlı yürüş qarşısında mərkəzi hakimiyyətin hər hansı maneə törətmək iqtidarında olmaması dövlətin müdafiə qabiliyyətinin tamamilə çökdüyünü nümayiş etdirdi. Silahlı hərbi qüvvələr yol boyu yerləşən rayonlarda yerli idarəetmə orqanlarını neytrallaşdıraraq mərkəzə doğru irəlilədi. Eyni zamanda, düşmənlə cəbhə xəttindəki bəzi hərbi hissələr döyüş mövqelərini tərk edərək paytaxtdakı siyasi çəkişmələrə qoşulmaq üçün geri çəkildi. Həmin addım Azərbaycan torpaqlarının müdafiəsiz qalmasına və xarici hərbi təcavüzün daha da genişlənməsinə şərait yaratdı. Regional idarəetmənin tamamilə itməsi, ərazilərin işğal təhlükəsi altında qalması və silahlı dəstələrin paytaxtın astanasına qədər gəlib çatması ölkədə vətəndaş qarşıdurmasını qaçılmaz həddə çatdırdı.

Paytaxt Bakıda isə mərkəzi idarəetmə institutlarında tam xaos və qərarsızlıq hökm sürürdü. Hadisələrin miqyasını qiymətləndirə bilməyən rəsmi idarəçilər ard-arda istefa verməyə başladılar. Hökumət rəhbərliyi, ardınca isə parlament sədri yaranmış gərginlik fonunda vəzifələrindən uzaqlaşdı. Beləliklə, dövlətin icraedici və qanunverici orqanlarında dərin idarəçilik vakuumu yarandı. Ölkəni idarə etməli olan qurumlar, faktiki olaraq, fəaliyyətlərini “dondurdu”, qanunların icrası mexanizmi tamamilə sıradan çıxdı. Dövlət təsisatlarının süqutu fonunda hüquq-mühafizə orqanları silahlı qruplaşmalar qarşısında aciz qaldı və asayişin qorunması qeyri-mümkün hala gəldi.

Üstündən 33 il keçəndən sonra həmin tarixi böhrana nəzər salanda, müstəqilliyini yenicə bərpa etmiş gənc respublikanın necə ağır və təhlükəli sınağa çəkildiyi, hakimiyyət vakuumunda qaldığı tam aydınlığı ilə üzə çıxır. Xarici hərbi-siyasi təzyiqlərin artdığı, torpaqların işğala məruz qaldığı həmin şəraitdə daxildə gedən hakimiyyət davası və səbatsız rəhbərliyin yol verdiyi kobud strateji səhvlər ölkəni vətəndaş qarşıdurmasının astanasına gətirib çıxarmışdı. Gəncədə baş verən silahlı qarşıdurma mərkəzi hakimiyyətin respublika hüdudlarında nəzarəti tamamilə itirdiyini göstərdi. Silahlı dəstələrin özbaşınalığlı, regional separatizm iddialarının baş qaldırması və daxili siyasi qrupların hakimiyyət naminə dövlət maraqlarını qurban verməsi Azərbaycanı böyük fəlakətlə üz-üzə qoydu. Belə vəziyyətdə cəmiyyətin dövlətə inamı tamamilə sarsıldı, orduda ümumi idarəetmə itdi, dövlət təsisatları iflic vəziyyətinə düşdü.

Yaranmış regional və daxili təhdidlər şəraitində müstəqil dövlətçilik təcrübəsindən uzaq olan rəhbərliyin böhranı idarə edə bilməməsi fəlakətin miqyasını daha da genişləndirdi. Siyasi səriştəsizlik daxili idarəetmə problemləri ilə məhdudlaşmır, həm də xarici dövlətlərlə münasibətlərdə balanslaşdırılmış xəttin yoxluğundan qaynaqlanırdı. Ölkənin hərbi münaqişə vəziyyətində olması fonunda daxildə gedən hakimiyyət davası kənar qüvvələrin daxili işlərə müdaxilə imkanlarını genişləndirdi. Regional güclərin maraqlarının toqquşduğu Cənubi Qafqazda güclü və uzaqgörən rəhbərliyin yoxluğu dövlətin həm suverenliyini, həm də ərazi bütövlüyünü tamamilə itirmək riskini reallaşdırdı. Cəmiyyətdə formalaşan dərin inamsızlıq və parçalanma meyilləri vətəndaş qarşıdurmasını qaçılmaz edirdi. Məhz belə mürəkkəb və acınacaqlı vəziyyətdən çıxış yolu tapmaq, dövlətin sükanını qətiyyətli şəkildə idarə etmək tələb olunurdu. Dövlətçiliyin mövcudluğunu qorumaq üçün həlledici addımların atılması, milli maraqları hər şeydən üstün tutan liderin xilaskar rolunda səhnəyə çıxmasını zəruri etdi.

* * *

Tarixi hadisələrin axarı göstərdi ki, 4 iyun hadisələrindən sonra ölkədə yaranmış idarəolunmaz vəziyyət milli dövlətçiliyin tamamilə süquta uğraması təhlükəsini yaratmışdı. Respublika rəhbərliyinin acizliyi və hadisələrin qarşısını almaq iqtidarında olmaması cəmiyyətdə böyük ümidsizlik yaratdı.

Belə çətin məqamda xalqın yeganə ümidi blokada şəraitində olan Naxçıvanda fəaliyyət göstərən, çətin geosiyasi sınaqlardan uğurla çıxmış Heydər Əliyevin siyasi təcrübəsinə və xilaskarlıq missiyasına yönəldi. İctimaiyyətin müxtəlif təbəqələri, ziyalılar, həmçinin dövlət idarəçiliyində olan şəxslər yaranmış fəlakətdən qurtulmağın tək yolunu Heydər Əliyevin Bakıya çağırılmasında və hakimiyyətə qayıtmasında görürdülər. Heydər Əliyevin Bakıya dəvət edilməsi xalqın milli iradəsinin təzahürü idi.

1993-cü il iyunun 9-da Heydər Əliyevin paytaxta gəlişi gərginliyi nisbətən azaltsa da, real təhlükələr hələ də qalırdı. Heydər Əliyev hərbi toqquşmaların baş verdiyi bölgələrə, o cümlədən Gəncəyə gedərək hadisələri yerində araşdırdı, tərəflərlə bilavasitə danışıqlar apardı və qardaş qırğınının qarşısını almaq üçün təxirəsalınmaz addımlar atdı. Müdrik dövlət xadiminin qətiyyəti sayəsində silahlı qarşıdurmanın miqyası kiçildi, xaos mərhələli şəkildə idarəolunan məcraya salındı. 15 iyun 1993-cü ildə isə Heydər Əliyevin Azərbaycan Ali Sovetinin sədri seçilməsi ilə ölkədə yeni siyasi eranın əsası qoyuldu. Həmin tarixi qayıdış dövlətin parçalanmasının qarşısını aldı, milli həmrəyliyi təmin etdi və gələcək sabitliyin hüquqi, siyasi bünövrəsini yaratdı.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

---

# Qanlı Koçaryanın siyasi ölümünün son akkordu

## *“Eks”lərin seçkiqabağı canfəşanlığı məğlubiyyətə məhkumdur*

**Ermənistan 7 iyuna yaxınlaşdıqca, parlamentdəki yerlərə və baş nazir postuna iddialıların ritorikasında qarşı tərəfin ünvanına sərt ittihamlarla yanaşı, ağlasığmaz vədlər, hətta avantürist bəyanatlar səslənməkdədir. Bunun əyani misalı kimi, təkcə irəvanlıların deyil, Qarabağdan könüllü köçmüş ermənilərin də gözündən düşmüş, Hayastanın Qarabağ klanının nümayəndəsi kimi ilk prezidenti (1998-2008-ci illər) olmuş Robert Koçaryanın “Ermənistan” blokunun seçkiqabağı təbliğat şüarlarına diqqət yetirmək kifayətdir.**

Yerli medianın yaydığı məlumatlardan öyrənirik ki, Ermənistanın keçmiş prezidenti, müxalifətdən baş nazirliyə namizəd tərəfdarlarının müşayiəti ilə İrəvanın mərkəzi küçələri ilə yürüşə çıxıb. Bundan bir qədər əvvəl isə “Azadlıq” meydanında keçirilən mitinqdə Koçaryan belə bir bəyanat verib: “Mən həm müharibənin qiymətini, həm də sülhün dəyərini yaxşı bilirəm. Əmin ola bilərsiniz ki, İlham Əliyev mənim rəhbərlik etdiyim Ermənistana hücum etməyəcək. Bu, sübut olunmuş faktdır”. Revanşist-daşnak zehniyyətli “eks”in bu bəyanatını, sadəcə, öləzimiş siyasi nüfuzu və çəkisi ilə tərs mütənasib yükün altına girməsi, başından yuxarı tullanması kimi təsnifatlandırmaq doğru olar. Amma Koçaryanın hay xislətinə, qanlı əməllərinə yaxşı bələd olduğumuzdan, onun seçiciyə ünvanladığı təkəbbürlü və “cürət sindromlu” xitabını siyasi aqoniya adlandırmağımız daha düzgündür. Aqoniya xəstənin canını tapşırmazdan əvvəlki terminal vəziyyəti sayıldığı kimi, Koçaryanın da qu quşunun son nəğməsinə bənzəyən küçə hayqırtısı onun bədəninin yuxarı orqanında həyatvacib funksiyaların pozulduğuna, sağ qalmaq üçün sonuncu gücünü-qüvvəsini toplamaq kimi faydasız cəhdinə dəlalət edir.

* * *

Hakimiyyətdə olduğu 10 ildə xalqının başına olmazın müsibətlər açan, torpaqlarımızın işğalı ilə qürrələnən, indi isə sülhün dəyərini bilməkdən dəm vuran Koçaryanın seçicilərə ünvanladığı bəyanatın absurdluğu bir yana, müxalifət namizədinin tərcümeyi-halına əsaslanaraq qonşu dövlətin xarici siyasət davranışına şəxsi resurs kimi zəmanət verməsi hüquqi nonsensdir. Loru dildə buna hay həyasızlığı da deyə bilərik. Rəsmi Bakının sülh gündəliyi öz prioritetləri üzərində qurulub: azad edilmiş ərazilərin bərpası, enerji diplomatiyası, Türk dünyasının inteqrasiyası, infrastruktur dəhlizləri və investisiya siyasəti. Yəni Azərbaycanın özgə torpağında gözünün olmaması ən yüksək səviyyədə, həm də dəfələrlə bəyan edildiyini əli soydaşlarımızın qanına bulaşmış həmin riyakar eks-prezident də gözəl bilir. Hakimiyyətə can atan istənilən erməni siyasətçi bu gün seçicilərə Ermənistanın Azərbaycanla necə yanaşı yaşamaq niyyətində olduğunu izah etməlidir.

Bəli, bu da danılmaz həqiqətdir ki, Prezident İlham Əliyevin hər çıxışı, hər mətbuat konfransı, Bakıdan gələn hər bir siqnal avtomatik olaraq Ermənistanda daxili debatların mövzusuna çevrilir. Yəni etiraf edilməli realılıq ondan ibarətdir ki, regional gücə, beynəlxalq nüfuza malik dövlətimiz qarşısına belə bir məqsəd qoysa da, qoymasa da, qonşularının gündəmini formalaşdırır. Həmin gündəmdə Koçaryanın “Ermənistan” bloku heç bir yeni ideya, heç bir xarici siyasət proqramı ortaya qoya bilmir, yalnız onun hakimiyyəti dövründə müharibə olmayacağına dair utopik vədlər verir. Seçkiqabağı təbliğatın atributuna çevrilən bu vəd məhz ona görə cəlbedici və sərfəlidir ki, onu əvvəlcədən yoxlamaq mümkün deyil.

Robert Koçaryan “miatsum” hərəkatının liderlərindən biridir və 2003-cü ildə Ermənistan prezidenti kimi nasist ideologiyasına uyğun gələn sözlər – “azərbaycanlılarla ermənilərin genetik uyğunsuzluğu haqqında” ifadələr işlədib. Normal cəmiyyətdə onun bu bəyanatı indi dinc qonşuluq vədi ilə seçicilərə müraciət edən Koçaryana qarşı ən böyük kompromata çevrilməlidir. Axı eyni zamanda “biz birlikdə yaşaya bilmərik” və “mənim hakimiyyətim altında müharibə olmayacaq” kimi siyasi tezisləri necə demək olar? Baş nazirliyə iddialı “eks” özünə bəraət qazandırmaq üçün, əslində, təbliğat kampaniyasını yeni siyasi konstruksiyaya – 2025-ci ilin avqust ayında yaranan faktiki reallığa uyğun qurmalıdır. Həmin ayın 8-də Vaşinqtonda İlham Əliyev, Nikol Paşinyan və Donald Trampın iştirakı ilə sülh sazişinin mətni paraflandı. Elementar diplomatik məntiq onu deyir ki, hakimiyyətə can atan istənilən erməni siyasətçi qalib gəlsə, bu danışıqlar çərçivəsini miras alacaq. Daha “mənim vaxtımda başqa cür olacaq” kimi diletant bəyanatlar verməməlidir.

* * *

Azərbaycan Prezidenti açıq şəkildə və dəfələrlə bəyan edib ki, Azərbaycanın Ermənistana qarşı hərbi əməliyyat keçirmək planı yoxdur. Odur ki, Koçaryanın “sübut olunmuş faktı”, sadəcə olaraq, Bakının söylədiyi sözlərin təkrarıdır.

Seçki kontekstində Koçaryanın bioqrafik məlumatları da şərhə layiqdir. O, Azərbaycanın Xankəndi şəhərində doğulub. Sarkisyan və Ohanyan da bizim torpaqlarda dünyaya gəliblər. “Nəyin bahasına olursa-olsun Qarabağı qoruyacaqlarına” söz verən bu üçlük indi İrəvandadır. Yəni heç vaxt onlara məxsus olmayan, lakin otuz il işğal altında saxladıqları torpaqlardan uzaqda yaşayırlar. Koçaryan, Sarkisyan və Ohanyana qarşı mülki şəxslərə qarşı hərbi cinayətlər də daxil olmaqla, konkret epizodlar üzrə Azərbaycan Cinayət-Prosessual Məcəlləsinin müvafiq maddələri üzrə ittiham irəli sürülüb. Koçaryan bu gün Xankəndiyə qayıda bilər, amma turist kimi yox, ağır cinayətlərdə şübhəli bilinən şəxs kimi. Mühakimə olunduqdan sonra isə o, ömrünün qalan hissəsini eyni cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən mühakimə olunan separatçı xuntanın digər liderlərinin məskunlaşdıqları yerdə keçirməli olar.

Seçki qızmarında görünən digər mənzərə odur ki, Ermənistanın daxili siyasəti hələ də İrəvanda müəyyən olunmur, ya da hakimiyyətə iddialıların rəvayətlərinə əsaslanır. Koçaryanın revanşist “Ermənistan” bloku seçicilərə strategiya əvəzinə, yeni fəlakətlər seriyası, Paşinyanın hakim komandası isə ağır hərbi məğlubiyyətlərin diktəsi ilə soyuq praqmatizm təklif edir. Erməni seçici iyunun 7-də məhz bu iki qütb arasında seçim etməli olacaq. Onun yanılmayacağına inanmaq istərdik.

***İmran BƏDİRXANLI***
***XQ***



***Ekspert rəyi***

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**



Seçki günü yaxınlaşdıqca, belə sərsəm bəyanatlar çoxalacaq. Bundan daha sərt ifadələri, senzuradan kənar çıxışları da eşidəcəyik. Aydın məsələdir ki, Koçaryanın bu avantürst bəyanatı lümpen elektorata ünvanlanıb. Azərbaycanın Ermənistana qarşı heç vaxt ərazi iddiası irəli sürmədiyini hamı bilir. Əksinə, belə qeyri-qanuni, separatçı çıxışları və davranışları Ermənistan ölkəmizə qarşı həyata keçirib.

Tarixi ədalətdən danışsaq, həmin Robert Koçaryan hazırda İrəvan xanlığında yaşayır. Hətta tarixdən az-çoz xəbərdar olanlar da yaxşı bilirlər ki, bu xanlığa heç vaxt erməni rəhbərlik etməyib. Bunu Koçaryan da yaxşı bilir. Azərbaycanın məqsədi özünün ərazi bütövlüyünü bərpa etmək idi ki, buna da nail oldu. Yox, əgər Ermənistanda seçki marafonuna qoşulan revanşistlər başlarına yeni “Dəmir yumruğ”un endirilməsini arzulayırlarsa, buna cəhd etsinlər. Ümumiyyətlə, dünya birliyi, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən separatizm pislənilir. Asiyada, Avropada, Cənubi Amerikada bunun misalları kifayət qədərdir. Koçaryan zəhmət çəkib tarixin o səhifələrini vərəqləsən və həmin revanşistlərin sonluğunun hansı acı aqibətlə bitdiyini öz gözləri ilə oxusun. Sonra da bu yöndə edə biləcəkləri istənilən cəhdlərə hansı cavabın veriləcəyini təsəvvürünə gətirsin. Əgər sağlam düşünə bilirlərsə, özlərinin yaxın tarixlərindən dərs çıxarmalıdırlar.

Qarabağ Azərbaycanın əzəli torpağı, suveren ərazisinin ayrılmaz hissəsidir və bundan sonra heç bir halda hansısa ...yanların nəzarətinə keçməyəcək. Sadəcə olaraq, buna bir də imkan verilməyəcək.

*"Şahdəniz" – 30*

# Xəzərin zəngin mavi yanacaq xəzinəsi

**Azərbaycanı zəngin qaz ölkəsi kimi tanıdan "Şahdəniz" yatağı uzun illərdir ki, Avropanın enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. Burada qazma işlərinə 1990-cı ildə başlanılsa da, vəsait çatışmazlığı səbəbindən işlər yarımçıq dayandırılıb. Müstəqilliyin ilk illərində yatağın istismara cəlb edilməsi üçün bir sıra tanınmış şirkətlərlə aparılan danışıqlar da lazımi nəticə verməyib.**



Yalnız 1996-cı il iyunun 4-də Bakıda keçirilən "Xəzər neft-qaz sərgi və konfransı çərçivəsində "Şahdəniz" qaz-kondensat yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş imzalandıqdan sonra neft ölkəsi kimi tanınan Azərbaycan, eyni zamanda, əsas qaz təchizatçısı kimi dünyanın maraq dairəsinə daxil olub. Bu saziş dünyanın transmilli neft şirkətlərinin "Əsrin müqaviləsi"nin imzalanması ilə təməli qoyulmuş Azərbaycanın yeni neft strategiyasının həqiqiliyinə inamı bir qədər də artırıb.

Prezident İlham Əliyev iyunun 1-də "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimində 30 il əvvəl, 1996-cı ilin iyununda dünyanın ən iri qaz yataqlarından olan "Şahdəniz" yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü ilə bağlı imzalanmış sazişi xatırladaraq deyib ki, bu müqavilə sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açdı.

Məlumat üçün bildiririk ki, "Şahdəniz" yatağı Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50–600 metr arasında dəyişdiyi ərazidə yerləşir. Dünyanın ən böyük qaz-kondensat yataqlarından biri sayılan "Şahdəniz"in sahəsi 140 kvadrat-kilometrdən çoxdur. Bu, həm də layihənin operatoru olan bp şirkətinin kəşf etdiyi ən böyük qaz yatağıdır. Belə ki, "Şahdəniz" yatağının təsdiqlənmiş ehtiyatı 1 trilyon kubmetr qaz və 2 milyard barel kondensatdan ibarətdir. Bu da Azərbaycanın qaz potensialının, təxminən, 50 faizini təşkil edir.

Saziş çərçivəsində həyata keçirilmiş ilkin qazma işləri "Şahdəniz" yatağının qaz ehtiyatları ilə zənginliyini tam sübuta yetirib. Beləliklə, 1999-cu ilin yayında Xəzərin Azərbaycan sektorunda nəhəng qaz-kondensat yatağının kəşfi bütün dünyaya bəyan edilib. Bu münasibətlə ümummilli lider Heydər Əliyevin iştirakı ilə təntənəli mərasim keçirildi. Ulu öndər bu əlamətdar hadisə münasibətilə neftçiləri və ölkə ictimaiyyətini təbrik edərək deyib: "Şahdəniz" yatağı Azərbaycanın Xəzər dənizindəki sektorunda, demək olar ki, ən böyük və ən zəngin neft və qaz yataqlarından biridir... "Şahdəniz" konsorsiumunun prezidentinin və başqa natiqlərin burada verdikləri məlumatlar bizi həddən artıq sevindirir və güman edirəm ki, bu, dünya miqyasında böyük bir hadisəyə çevriləcəkdir".

Xatırladaq ki, Azərbaycan hökuməti ilə layihə iştirakçıları arasında yatağın bir neçə mərhələdə işlənməsi ilə bağlı razılıq əldə olunmuşdu. 2003-cü ilin fevral ayında "Şahdəniz-1" layihəsi çərçivəsində tikinti-quraşdırma işlərinə start verilib. Bu mərhələdə suyun 105 metr dərinliyində 15 quyunun qazılması üçün nəzərdə tutulmuş nəhəng hasilat, qazma və yaşayış platforması inşa olunub, hər biri 100 kilometr uzunluğunda olan iki sualtı boru kəməri çəkilib. "Şahdəniz" yatağından həmin kəmərlər vasitəsilə nəql olunan qaz və kondensatın qəbulu üçün Səngəçal terminalında lazımi infrastruktur yaradılıb. Bundan əlavə, "Şahdəniz" qazının Gürcüstana və Türkiyəyə ixracını təmin etmək məqsədilə Cənubi Qafqaz boru kəməri tikilib istismara verilib.

"Şahdəniz" yatağının birinci işlənmə mərhələsi çərçivəsində ilk qazın hasilatına isə 2006-cı ilin payızında başlanılıb. İlkin mərhələdə maksimum hasilat ildə 10 milyard kubmetr qaz və gündə 50 min barel kondensat təşkil edib. Layihə çərçivəsində hasil olunan qazı Gürcüstan və Türkiyəyə çatdırmaq üçün qaz ixracı sisteminin yaradılması da nəzərdə tutulmuş vaxtda başa çatdırılıb. Xatırladaq ki, 690 kilometrlik Cənubi Qafqaz boru kəməri ilə "Şahdəniz" qazının Gürcüstan və Türkiyəyə ixracına 2007-ci ilin əvvəllərində başlanılıb.

2013-cü il dekabrın 17-də isə konsorsium iştirakçıları tərəfindən "Şahdəniz-2" layihəsinin işlənməsi üçün yekun investisiya qərarı qəbul olunub. Bununla da "Şahdəniz" qaz hasilatı və ixracı layihəsi həlledici mərhələyə qədəm qoyub. Bu qərar Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin ixrac gücünə ildə 16 milyard kubmetr əlavə olunması (Azərbaycanda 48 düymlük yeni boru kəməri, Gürcüstanda isə iki kompressor stansiyası), Türkiyə ərazisindən keçən Trans-Anadolu qaz boru kəmərinin (TANAP) və Yunanıstan, Albaniya ərazisindən keçərək İtaliyaya uzanan Trans-Adriatik boru kəmərinin (TAP) tikintisi ilə bağlı planların gerçəkləşməsinə imkan yaradıb.

Bu zəngin yatağın tammiqyaslı işlənməsi mərhələsi Azərbaycan qazını Türkiyə və Avropaya çatdıracaq nəhəng bir layihədir. Ötən müddətdə bu mərhələdə genişmiqyaslı tikinti-quraşdırma işləri həyata keçirilib. "Şahdəniz-2" layihəsi çərçivəsində mövcud platformaya körpü ilə birləşdirilmiş iki yeni hasilat platforması inşa olunub. Suyun 550 metrədək dərinliyi ilə 500 kilometr uzunluğunda sualtı boru kəmərləri çəkilib, Cənubi Qafqaz boru kəmərinin ixrac imkanlarının artırılması məqsədilə Azərbaycanda 48 düymlük yeni boru kəməri, Gürcüstanda isə ildə daha 16 milyard kubmetr qazın qəbulu üçün iki kompressor stansiyası tikilib. Səngəçal terminalında isə əlavə genişləndirmə işləri aparılıb. Bu mərhələdə iki yarımdalma qurğu vasitəsilə 26 sualtı quyunun qazılması nəzərdə tutulur. Ümumilikdə, 2026-cı ilin 1-ci rübünün sonuna "Şahdəniz" layihəsi çərçivəsində kapital xərcləri 31 milyard dollar təşkil edib.

Ötən il "Şahdəniz" yatağında daha bir mühüm layihənin icrasına başlanılıb. Dəyəri 2,9 milyard dollar təşkil edən "Şahdəniz kompressiya" layihəsindən məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməklə burada maksimum qazvermə əmsalına nail olmaqdır. Layihə çərçivəsində istismara veriləcək unikal platformanın "Şahdəniz" yatağından, təxminən, 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir. Layihə, həmçinin yataqdan hasil edilən qazın təzyiqini artıraraq ixracını təmin etmək məqsədi daşıyır. Mövcud "Şahdəniz" platformalarının yaxınlığında yerləşəcək yeni kompressiya platforması suyun 85 metr dərinliyində quraşdırılacaq.

İndiyədək "Şahdəniz" yatağında, ümumilikdə, 34 quyu qazılıb. Bunun da 11-i yatağın birinci, 23-ü isə ikinci işlənmə mərhələsinə aiddir. Hazırda həmin quyulardan 32-si istismardadır. "Şahdəniz" yatağının ikinci mərhələsi üzrə hasilata 2018-ci ildə başlanılıb. Hazırda "Şahdəniz" qurğularının hasilat gücü gündə, təxminən, 76 milyon (ildə təqribən 28 milyard) standart kubmetr təşkil edir.

Diqqətçəkən daha bir maraqlı fakt ondan ibarətdir ki, "Şahdəniz" quyuları bp-nin ən məhsuldar quyuları sırasındadır. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda "Şahdəniz" yatağının ən məhsuldar quyusundan hasilat gündə 28 min barel neft ekvivalentə bərabərdir. Bütövlükdə isə, hasilata başlanıldığı 2006-cı ilin noyabr ayından 2026-cı ilin 1-ci rübünün sonunadək "Şahdəniz" yatağından 271 milyard kubmetr qaz və təxminən, 53 milyon ton kondensat hasil olunub.

"Şahdəniz" qazını Avropa bazarına çatdıran Cənub Qaz Dəhlizi layihəsi də real fəaliyyət sahəsinə çevrilib. 2006-cı ildə istifadəyə verildikdən etibarən Cənubi Qafqaz boru kəməri və onun genişləndirilmiş hissəsi vasitəsilə daxili bazarlar da daxil olmaqla, təxminən, 271 milyard kubmetr qaz ixrac edilib. Bu nəhəng arteriya uzun illər Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayacaq. Dəhlizi qidalandıran "Şahdəniz" yatağı isə daha 100 il Azərbaycan və tərəfdaş ölkələr üçün əsas tədarük bazası olacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Ekspert rəyi*



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

"Şahdəniz" Xəzər dənizində indiyə qədər kəşf edilmiş ən böyük təbii qaz yatağı, sözün əsl mənasında, yataqların şahı hesab edilə bilər. Bu yatağın kəşf edilməsi və sonradan onun resurslarının mərhələli şəkildə bazarlara çıxarılması Azərbaycanın enerji sektorunda yeni inkişaf mərhələsinə daxil olan qaz sənayesinin XXI əsrdə əldə etdiyi ən böyük nailiyyətdir.

"Şahdəniz" Azərbaycanın enerji tarixində, sadəcə, böyük qaz yatağı deyil, ölkənin iqtisadi inkişaf modelini dəyişən, Azərbaycanı regional enerji istehsalçısından qlobal enerji tərəfdaşına çevirən strateji layihədir. Müqayisə üçün deyim ki, əgər "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişi – "Əsrin müqaviləsi" Azərbaycanın neft əsrinin əsasını qoymuşdusa, "Şahdəniz" XXI əsrdə Azərbaycanın qaz əsrini başlatdı.

Bu yataq ölkəmizə təkcə enerji gəlirləri deyil, həm də beynəlxalq nüfuz, yeni tərəfdaşlar, geosiyasi əhəmiyyət və gələcəyə hesablanmış strateji üstünlüklər qazandırdı. Bu mənada, "Şahdəniz" son 30 ildə Azərbaycanın iqtisadi və siyasi tarixini formalaşdıran əsas layihələrdən biri hesab oluna bilər.

Ötən əsrin 90-cı illərinin sonlarına qədər Azərbaycan, əsasən, neft potensialı ilə tanınırdı. Lakin "Şahdəniz" yatağının kəşfi və işlənməsi göstərdi ki, ölkəmiz, həm də dünya səviyyəli qaz ehtiyatlarına malikdir. Məhz bu layihə sayəsində Azərbaycan XXI əsrdə tədricən yalnız neft ixrac edən ölkə statusundan çıxaraq böyük qaz ixracatçısına çevrildi. Hazırda ölkənin enerji siyasətində qaz ən azı neft qədər strateji əhəmiyyət daşıyır və bir çox hallarda gələcəyin əsas enerji resursu hesab olunur.

"Şahdəniz" yatağı olmasaydı, bu gün Cənubi Qafqazdan Avropaya uzanan nəhəng qaz infrastrukturu da mövcud olmazdı. Məhz "Şahdəniz" qazı Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP kimi strateji kəmərlərin çəkilməsinə təkan verdi. Bu kəmərlər birlikdə Avropa ilə Xəzər hövzəsi arasında ilk birbaşa qaz dəhlizini yaratdı. Beləliklə, Azərbaycan, sadəcə, enerji istehsalçısı deyil, həm də qitələri birləşdirən enerji körpüsünə çevrildi.

Qeyd etdiyim kimi, "Şahdəniz" layihəsi Azərbaycanı enerji bazarında etibarlı tərəfdaş kimi tanıdıb. Avropanın enerji təhlükəsizliyi ilə bağlı müzakirələrdə Azərbaycanın adı müntəzəm olaraq çəkilir. Bu isə ölkənin siyasi və iqtisadi çəkisini əhəmiyyətli dərəcədə artırır. Yeri gəlmişkən, enerji sahəsində əldə olunan yüksək etimad sonradan digər istiqamətlərdə – ticarət, nəqliyyat, logistika və investisiya əməkdaşlığında da yeni imkanlar yaradıb.

# Azərbaycanın qlobal süni intellekt yarışında yeni hədəfi

## ABŞ ilə texnoloji əməkdaşlıq milli ekosistemin inkişafına yeni meydan açır

**Bəşəriyyət hazırda yeni bir eranın – süni intellekt və rəqəmsal keçid dövrünün astanasındadır. Uzun illər qlobal enerji bazarında etibarlı tərəfdaş kimi tanınan Azərbaycan indi öz iqtisadi inkişaf vektorunu yeni istiqamətə – "rəqəmsal qızıl" adlandırılan məlumat və texnologiyalar iqtisadiyyatına doğru yönəldir.**

Bakıda keçirilən birinci Azərbaycan–ABŞ İqtisadi Dialoqu bu keçidin ən mühüm siqnallarından birini verdi. Səsləndirilən fikirlər göstərir ki, rəsmi Bakı qlobal texnologiya nəhəngləri ilə strateji tərəfdaş kimi masaya əyləşmək niyyətindədir.

Azərbaycan və ABŞ arasında əlaqələr tarixən enerji təhlükəsizliyi və geostrateji maraqlar üzərində qurulsa da, yeni dövrün tələbləri gündəliyi dəyişir. Prezident İlham Əliyevin "Oracle corporation" kimi qlobal proqram təminatı və verilənlər bazası nəhənginin rəhbərliyi ilə görüşü bu dəyişikliyin ən bariz nümunəsidir. Hazırlanmaqda olan anlaşma memorandumu süni intellektin tətbiqi, böyük verilənlərin (Big Data) idarə edilməsi və bulud (cloud) texnologiyalarının ölkəmizə inteqrasiyasını nəzərdə tutur.

Bu prosesin ən diqqətçəkən məqamlarından biri də milli enerji nəhəngi SOCAR-ın ABŞ korporasiyaları ilə texnoloji tərəfdaşlığa girməsidir. Bu, təsadüfi deyil. Müasir dövrdə neft və qaz hasilatından tutmuş onun logistikasına qədər hər bir mərhələdə süni intellekt vasitəsilə optimallaşdırma milyonlarla dollar qənaət və ekoloji səmərəlilik deməkdir.




Azərbaycanın "hyperscaler" (böyük həcmli məlumat mərkəzləri və bulud infrastrukturu təminatçıları) platformaları ilə əməkdaşlıq hədəfi isə ölkənin regionda rəqəmsal haba çevrilmək arzusundan xəbər verir. Bu o deməkdir ki, Azərbaycan rəqəmsal xidmətlərin tənzimləyici mühitini beynəlxalq standartlara uyğunlaşdırmağa və "Silikon vadisinin" təcrübəsini yerli ekosistemə tətbiq etməyə hazırdır.

ABŞ şirkətləri ilə qurulan körpülər əslində ölkə daxilində artıq başlanmış böyük rəqəmsal hərəkatın davamıdır. Rəsmi Bakı süni intellekt texnologiyalarının inkişafını ölkənin gələcək iqtisadi modelinin əsas istiqamətlərindən biri kimi dəyərləndirir. Bu sahənin inkişafı yalnız iqtisadi artım baxımından deyil, eyni zamanda, dövlət idarəçiliyinin daha səmərəli və müasir mexanizmlər əsasında qurulması baxımından strateji əhəmiyyət daşıyır. Süni intellekt həllərinin tətbiqi dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, rəqəmsal biznes mühitinin genişləndirilməsi və innovasiyalara söykənən iqtisadi sistemin formalaşdırılması üçün mühüm vasitə hesab olunur.

Azərbaycanda süni intellektin inkişafı artıq dövlət səviyyəsində müəyyən edilmiş prioritet istiqamətlər sırasındadır. Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası" bu sahədə həyata keçiriləcək fəaliyyətin əsas yol xəritəsini müəyyənləşdirir. Sənəddə süni intellekt texnologiyalarının tətbiq dairəsinin genişləndirilməsi, elmi araşdırmaların dəstəklənməsi, müasir infrastrukturun formalaşdırılması, idarəetmə sistemlərinin təkmilləşdirilməsi və peşəkar kadr hazırlığının gücləndirilməsi prioritet vəzifələr kimi əksini tapıb.

Son illərdə görülən işlər beynəlxalq qiymətləndirmələrdə də öz əksini göstərir. Azərbaycan qlobal "Süni İntellekt Hazırlığı İndeksi"ndə 41 pillə irəliləyərək 70-ci sıraya yüksəlib. Bu göstərici ölkədə rəqəmsal transformasiya istiqamətində atılan addımların və texnoloji inkişaf siyasətinin nəticəsi kimi dəyərləndirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın indiyədək 300 milyard ABŞ dollarından artıq xarici sərmayə cəlb etməsi və beynəlxalq reytinqlərdə mövqeyini gücləndirməsi ölkəyə olan etimadın göstəricisidir. Süni intellekt sahəsində aparılan ardıcıl islahatlar və yaradılan əlverişli mühit də investorlar və beynəlxalq maliyyə institutları tərəfindən ölkənin gələcək inkişaf potensialını artıran amillərdən biri kimi qiymətləndirilir.

Bu istiqamətdə diqqətçəkən yeniliklərdən biri də "Rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya" sənədində generativ süni intellektin iqtisadiyyata təsirinin konkret göstəricilər əsasında qiymətləndirilməsidir. İlk dəfə olaraq bu texnologiyaların ölkə iqtisadiyyatına verə biləcəyi töhfə rəqəmlərlə müəyyənləşdirilib. Bu yanaşma iqtisadiyyatın yeni mərhələyə keçidinin, məhsuldarlığın yüksəlməsinin və yüksək texnologiyalara əsaslanan yeni fəaliyyət sahələrinin formalaşdırılmasının göstəricisidir. Strategiyaya əsasən, 2029-cu ilədək generativ süni intellekt texnologiyalarının tətbiqi nəticəsində formalaşacaq iqtisadi dəyərin 70 milyon manata çatdırılması nəzərdə tutulur. Bu hədəf Azərbaycanın süni intellekt sahəsində sistemli və uzunmüddətli inkişaf kursu seçdiyini nümayiş etdirir.

Azərbaycanın süni intellekt və rəqəmsal texnologiyalar sahəsində ABŞ-ın nəhəng korporasiyaları ilə əlaqələri genişləndirməsi yalnız texnoloji yenilənmə deyil, həm də iqtisadi diversifikasiya siyasətinin nüvəsidir. Neftdən asılılığın azaldılması təkcə qeyri-neft sektorunun istehsalını artırmaqla deyil, həm də bilik iqtisadiyyatını qurmaqla mümkündür.

Tənzimləyici mühitin təkmilləşdirilməsi, yerli kadr potensialının artırılması və ABŞ-ın "Silicon Valley" təcrübəsinin mənimsənilməsi Azərbaycanı Cənubi Qafqazın rəqəmsal mərkəzinə çevirə bilər. Bu isə o deməkdir ki, gələcəyin Azərbaycanı, sadəcə, enerji resursları ilə deyil, həm də innovativ həlləri və ağıllı infrastrukturu ilə qlobal dünyanın ayrılmaz bir parçasına çevriləcək.

***Nurlu ABDALOV***
***XQ***

# Ölkədə artım 2 faizə yüksələcək

**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycanın iqtisadi artımı ilə bağlı proqnozunu açıqlayıb.**




Bankın qiymətləndirməsinə görə, Azərbaycanın real ÜDM artımı 2025-ci ildə 1,4 faizə qədər səngiyib. 2026-cı ilin birinci rübündə isə iqtisadiyyat illik müqayisədə 0,3 faiz kiçilib. Buna səbəb neft-qaz sektorunda istehsalın 1,2 faiz azalması və qeyri-neft sektorunda artım tempinin 0,2 faizə qədər zəifləməsi olub.

Hesabata əsasən, 2026-cı ilin ilk rübündə inflyasiya orta hesabla 5,7 faiz təşkil edib və Azərbaycan Mərkəzi Bankının hədəf diapazonunun yuxarı həddinə yaxınlaşıb. AYİB qeyd edir ki, büdcə profisiti 2024-cü ildə ÜDM-in 4,1 faizi olduğu halda, 2025-ci ildə təxminən 2,6 faizə enib. Dövlət və dövlət zəmanətli borcun səviyyəsi isə aşağı olaraq qalaraq ilin sonunda ÜDM-in 28 faizini təşkil edib.

Məlumata görə, cari əməliyyatlar hesabının profisiti də 2024-cü ildəki 6,3 faizdən 2025-ci ildə ÜDM-in 4,6 faizinə düşüb. Buna baxmayaraq, Azərbaycan Mərkəzi Bankı və Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) birgə xarici aktivləri artmağa davam edərək 2025-ci ildə ÜDM-in 112 faizinə çatıb. AYİB Azərbaycanın real ÜDM artımının zəif başlayan 2026-cı ildən sonra sürətlənəcəyini gözləyir. Bank 2026-cı il üçün iqtisadi artım proqnozunu 2 faiz, 2027-ci il üçün isə 2,5 faiz səviyyəsində müəyyən edib.

Hesabatda o da vurğulanır ki, Azərbaycanın iqtisadi artım perspektivləri neft və qaz qiymətləri, eləcə də hasilat həcmlərindən asılı olaraq qalır. Yaxın Şərqdəki münaqişənin qlobal enerji qiymətlərini yüksəltməsi ölkəyə əlavə gəlir gətirə və iqtisadi artımı dəstəkləyən xərclər və investisiyalar üçün imkan yarada bilər.

AYİB, həmçinin ABŞ-ın vasitəçiliyi ilə Ermənistanla əldə olunan sülh çərçivəsinin regional nəqliyyat və ticarət əlaqələrini genişləndirə biləcəyini, bərpaolunan enerji sahəsinə irihəcmli investisiyaların isə orta müddətdə iqtisadi diversifikasiyanı və artımı dəstəkləyəcəyini bildirib.

***XQ***

# Sülhə, hüquqa və ədalətə söykənən qayıdış

## *Qərbi Azərbaycan həqiqətləri elmi tribunalardan səslənir*

**Dünən Bakı Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış: milli ideyanın yeni mərhələsi kimi" mövzusunda I beynəlxalq elmi konfrans keçirildi.**

Çıxışlarda bildirildi ki, konfrans Qərbi Azərbaycana qayıdışla bağlı hüquqi, diplomatik və elmi əsasların formalaşdırılmasına xidmət edir.

Məclisin deputatı Əziz Ələkbərli konfransın qayıdış hərəkatına mühüm töhfə verdiyini dedi. Sədr qeyd etdi ki, icmanın məqsədi soydaşlarımızın dinc, təhlükəsiz və ləyaqətli şəkildə öz müstəvidə qiymətləndirilməsinin vacibliyini vurğulayaraq qeyd etdi ki, 1987–1991-ci illərdə yüz minlərlə azərbaycanlının doğma yurdlarından qovulması beynəlxalq hüquq normalarının pozulması ilə müşayiət olunub. O, qaçqınların geri qayıtmaq hüququnun beynəlxalq hüquqi mexanizmlər vasitəsilə müdafiə edilməsinin zəruriliyini diqqətə çatdırdı.



BDU-nun rektoru Elçin Babayev qeyd etdi ki, 2020-ci ildə əldə olunan Zəfər və 2023-cü ildə suverenliyin tam bərpası Azərbaycanın inkişafında yeni mərhələ yaradıb. Azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri və məcburi köçkünlərin doğma yurdlarına qayıdışı ölkənin gücünü nümayiş etdirir. O, vurğuladı ki, bu uğurlar Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpası məsələsini də aktuallaşdırır. Rektor Prezident İlham Əliyevin "Söhbət tanklarla qayıdışdan getmir, sülh yolu ilə, ləyaqətli və təhlükəsiz qayıdışdan gedir" fikrini xatırladaraq XXI əsrdə tarixi ədalətin hüquq, diplomatiya və beynəlxalq mexanizmlər vasitəsilə təmin olunmasının vacibliyini önə çəkdi.

Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli vurğuladı ki, Qərbi Azərbaycanla bağlı vəzifələrin icrasında elm və təhsil sistemi mühüm rol oynayır. O qeyd etdi ki, arxiv materiallarının araşdırılması, tarixi faktların beynəlxalq ictimaiyyətə elmi əsaslarla təqdim edilməsi və Qayıdış Konsepsiyasına uyğun dərsliklərin hazırlanması əsas prioritetlərdəndir.

ADPU-nun prorektoru, professor Mahirə Hüseynova bildirdi ki, son illərdə bir sıra ali təhsil müəssisələrində Qərbi Azərbaycanın tarixi, folkloru və toponimikası ilə bağlı seçmə fənlər tədris olunur. Hazırlanan dərsliklər və müxtəlif ölkələrdə nəşr edilən əsərlər tarixi həqiqətlərin beynəlxalq səviyyədə tanıdılmasına xidmət edir.

Qərbi Azərbaycan İcmasının sədri, Milli yurdlarına qayıtmasını təmin etməkdir. Əziz Ələkbərli Prezident İlham Əliyevin dəstəyinin bu istiqamətdə fəaliyyətə yeni dinamika qazandırdığını, Qayıdış Konsepsiyasının isə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun hazırlandığını bildirdi.

Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım qayıdış tələbinin regional sülh və tarixi ədalətin təmin olunması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd etdi.

Milli Məclis sədrinin müavini Musa Qasımlı çıxışında dövlət başçısının müəyyən etdiyi strategiyanın tarixi faktlara söykəndiyini və məqsədlərə çatmağa xidmət etdiyini vurğuladı.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirdi ki, akademiyada Qərbi Azərbaycanın tarixi, folkloru, toponimiyası və əlyazmalarının araşdırılması üçün xüsusi elmi bölmələr yaradılıb. Hazırda ensiklopediya hazırlanır, toponimlərin dəyişdirilməsi ilə bağlı faktlar araşdırılır və əldə olunan nəticələr xarici dillərdə nəşr edilərək beynəlxalq ictimaiyyətə təqdim olunur.

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurası sədrinin müavini Vaqif Şadlinski bildirdi ki, qayıdış ideyası uzun və mürəkkəb bir yol keçsə də, gələcəyə inam böyükdür. Onun sözlərinə görə, əsas məqsəd tarixi yurdların dinc yolla bərpası və gələcək nəsillərin həmin torpaqlara qayıdışının təmin edilməsidir.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov deportasiya faktlarının beynəlxalq hüquqi

"Qayıdış və regionun yeni sülh arxitekturası" mövzusunda keçirilən panel sessiyada moderator Fariz İsmayılzadə, eləcə də Şamil Ayrım, Fərhad Hüseynov və Şiraz Mehmood Xan çıxış edərək qayıdış prosesinin Cənubi Qafqazda sabitlik və davamlı sülh üçün mühüm amil olduğunu qeyd etdilər.

Konfrans çərçivəsində Bakı Dövlət Universiteti ilə Qərbi Azərbaycan İcması arasında anlaşma memorandumu imzalandı. Sənəd elmi-tədqiqat, təhsil, mədəni irsin qorunması, tarixi faktların araşdırılması və beynəlxalq səviyyədə təqdim olunması istiqamətində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Memorandum həmçinin toponimika, coğrafi tədqiqatlar və insan kapitalının inkişafı sahələrində birgə fəaliyyət üçün yeni imkanlar yaradır.

**Beynəlxalq elmi konfransın iştirakçısı Şiraz Mehmood Xan** XQ-yə eksklüziv açıqlamasında bunları söylədi:

– "Qərbi Azərbaycana qayıdış beynəlxalq hüququn, insan hüquqlarının və regional sabitliyin mühüm komponentidir. Dünyanın müxtəlif bölgələrində məcburi köçkünlərin geri qayıdış hüququ tanındığı kimi, Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtmaq hüququ mövcuddur. Hesab edirəm ki, bu məsələnin elmi və hüquqi əsaslarla beynəlxalq ictimaiyyətə çatdırılması Cənubi Qafqazda uzunmüddətli sülhün möhkəmlənməsinə mühüm töhfə verəcək".

***Y.ŞƏRİFZADƏ***
***XQ***

# Türk dünyasının qeyrət yaddaşı

**Qərbi Azərbaycandan danışarkən biz yalnız siyasi bir məsələdən deyil, bir millətin yaddaşından, tarixindən, ədalət axtarışından və insan ləyaqətindən bəhs edirik. Bu məsələ öz yurdlarından didərgin salınmış insanların, susdurulmuş xatirələrin, yandırılmış kəndlərin, dəyişdirilmiş coğrafi adların və qoparılmış tarixi yaddaşın məsələsidir. Qərbi Azərbaycan məsələsi hər hansı coğrafi mübahisədən daha çox, öz doğma torpaqlarından qovulmuş yüz minlərlə Azərbaycan türkünün ata yurduna ləyaqətli və hüquqi şəkildə qayıdış haqqı məsələsidir.**

Biz bilirik ki, bu gün "Ermənistan" adlandırılan ərazilərin mühüm hissəsi əsrlər boyu Azərbaycan türklərinin yaşadığı qədim yurdlar olmuşdur. İrəvandan Göyçəyə, Zəngəzurdan Dərələyəzə qədər uzanan bu coğrafiya sadəcə xəritə üzərində bir məkan deyil; məzar daşlarımızın yerləşdiyi, məscidlərimizin ucaldığı, xalq mahnılarımızın və bayatılarımızın yarandığı, xatirələrimizin və mədəniyyətimizin yaşadığı vətəndir. Bu həqiqət tarixi mənbələrdə, arxivlərdə, çar Rusiyasının sənədlərində və bölgənin mədəni irsində açıq şəkildə öz əksini tapmışdır.

Təəssüf ki, XIX əsrdən etibarən çar Rusiyasının həyata keçirdiyi demoqrafik siyasət Cənubi Qafqazın təbii etnik tərkibini dəyişdirmişdir. Azərbaycan türkləri öz ata-baba torpaqlarında sistemli təzyiqlərə məruz qalmışdır. Sonrakı sovet dövründə də bu ədalətsizlik davam etmişdir. 1948–1953-cü illərin deportasiyaları, daha sonra isə 1987–1991-ci illərdə yüz minlərlə Azərbaycan türkünün Ermənistandan zorla çıxarılması müasir dövrün ən böyük humanitar faciələrindən biri kimi tarixə düşmüşdür. İnsanlar yalnız evlərini deyil, həm də məzarlarını, xatirələrini, uşaqlıqlarını və mənsubiyyət hisslərini itirmişlər. Lakin tarix bəzən xalqlara yenidən ayağa qalxmaq imkanı verir.

2020-ci ildə Azərbaycanın qazandığı şanlı Zəfər yalnız işğal altında olan torpaqların azad edilməsi deyildi. Bu Zəfər, eyni zamanda, tarixi ədalətin yenidən bərqərar olması idi. Xüsusilə 2023-cü ildə həyata keçirilən 23 saatlıq antiterror tədbirlərindən sonra Azərbaycan beynəlxalq hüquq çərçivəsində öz suverenliyini bütün ərazilərində tam şəkildə təmin etdi. Bu gün Şuşada Azərbaycan bayrağı dalğalanır. Xankəndidə Azərbaycan dövləti öz suverenliyini təmsil edir. Qarabağda artıq işğal deyil, hüquq danışır.

Bu yeni mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" qisasın deyil, hüququn, insan haqlarının və sülhün manifestidir. Bu yanaşmanın əsasını müharibə deyil, ləyaqətli qayıdış ideyası təşkil edir. Çünki insanlar doğulduqları torpaqlara qayıtmaq istəyirlər. Çünki bir millətin yaddaşını sürgün etmək mümkün deyil. Bu, beynəlxalq hüququn tanıdığı ən fundamental insan hüquqlarından biridir.

Burada xüsusilə bir məqamı vurğulamaq lazımdır: Azərbaycanın ortaya qoyduğu yanaşma revizionist siyasət deyil, insan mərkəzli ədalət çağırışıdır. Azərbaycan bu gün öz gücünü yalnız hərbi uğurlardan deyil, həm də hüquqi legitimlikdən alır. Dünya artıq daha aydın şəkildə görür ki, Cənubi Qafqazda davamlı sülh yalnız tarixi həqiqətlərin inkar edilmədiyi bir zəmin üzərində mümkündür.

Mustafa Kamal Atatürkün çox mühüm bir fikri var: "Milləti ən çətin şəraitdə ayaqda saxlayan şey onun öz tarixinə və kimliyinə sahib çıxmasıdır".

Bu gün Qərbi Azərbaycan məsələsi məhz belə bir tarix və kimlik məsələsidir.

Bəs bizə, yəni Türk dünyasına hansı vəzifələr düşür?

Hər şeydən əvvəl, Qərbi Azərbaycan məsələsini düzgün şəkildə anlatmaq məcburiyyətindəyik. Bu mövzu yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının ortaq yaddaşının bir hissəsidir. Universitetlərimizdə, media məkanında, beyin mərkəzlərində və beynəlxalq platformalarda bu həqiqətləri daha güclü şəkildə gündəmə gətirməliyik.

İkincisi, qardaşlıq hüququnu yalnız emosional şüarlarla deyil, konkret akademik, diplomatik və mədəni fəaliyyətlərlə dəstəkləməliyik. Çünki müasir dünyada haqlı olmaq təkbaşına kifayət etmir; haqlılığın güclü şəkildə təqdim olunması da zəruridir.

Üçüncüsü, unutmamalıyıq ki, Qərbi Azərbaycana qayıdış tələbi münaqişə çağırışı deyil. Əksinə, bu tələb Cənubi Qafqazda uzunmüddətli sülhün əsas açarlarından biridir. İnsanların doğulduqları torpaqlara təhlükəsiz, ləyaqətli və hüquqi çərçivədə qayıtması regional barışığın ən möhkəm təməlidir.

Biz türk milləti olaraq tarix boyu zülmün deyil, ədalətin tərəfində olmuşuq. Bu gün də məsələyə məhz bu vicdanla yanaşmalıyıq. Çünki Qərbi Azərbaycandan deportasiya edilmiş insanların hekayəsi yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının ortaq vicdan məsələsidir.

Eyni zamanda, xüsusi vurğulamaq lazımdır ki, Qərbi Azərbaycana qayıdış çağırışı münaqişə çağırışı deyil. Bu çağırış Azərbaycan Prezidenti İlham Əliyevin ifadə etdiyi kimi, insan hüquqlarına, tarixi ədalətə və insan ləyaqətinə ünvanlanmış bir çağırışdır. Çünki heç bir xalq əbədi olaraq öz tarixindən qoparıla bilməz.

İnanıram ki, haqq gec-tez öz yerini tapacaqdır. İnanıram ki, bir gün Göyçədə yenidən Azərbaycan türküləri səslənəcək. İrəvanın tarixi yaddaşı yenidən xatırlanacaq. Deportasiya olunmuş insanların övladları və nəvələri babalarının doğulduğu torpaqları sərbəst şəkildə ziyarət edə biləcəklər. Və o gün gəldikdə dünya bir daha anlayacaq ki:

Ədalət bəzən gecikə bilər... Lakin xalqların yaddaşı heç vaxt ölmür və ədalət mütləq geri qayıdır.

Azərbaycan xalqının qəlbindən qopan bir bayatı var:

***Göyçə gölü durulur,***
***Dərdim sinə vurulur.***
***Yurdumdan ayrı düşdüm,***
***Yollar gözə görünür...***

İnanıram ki, bir gün o yollar açılacaqdır.

Və o gün gəldikdə tarix bir daha göstərəcəkdir ki:

Türkün yaddaşı da, qardaşlığı da heç vaxt məğlub olmur.

***Şamil AYRIM,***
***Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri***

# 38 illik qaçqınlığın sonu olacaqmı?

**Bakı Dövlət Universiteti ilə Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilmiş "Qərbi Azərbaycana qayıdış milli ideyanın yeni mərhələsi kimi" I beynəlxalq elmi konfransın işindən böyük təəssüratla ayrıldıq.**

Bu, bir sübuta ehtiyacı olmayan gerçəkdir ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər yalnız mədəni maraqdan və ya nostalji bağlılıqdan ibarət deyildir. Öz məsuliyyətini və öhdəliyini dərk edən bir insan kimi burada ifadə etmək istəyirəm ki, Türkiyədə Qərbi Azərbaycan məsələsi tarixi bir mövzu kimi qiymətləndirilir. Hamımızın bildiyi kimi, Səlcuqlular dövründən etibarən türklərin yaşadığı bu torpaqlar Sovet İttifaqı dövründə ermənilərin nəzarətinə keçmişdir.

Yüz il əvvələ qədər öz mədəni, dini, dil və siyasi kimliyi ilə Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların zəngin mədəni irsi, tarixi abidələri, məscidləri və qəbiristanlıqları bu gün artıq mövcud deyildir.Uzunmüddətli, məqsədyönlü və sistemli assimilyasiya siyasətinin nəticəsi olaraq bu gün Qərbi Azərbaycanda yer, çay, göl və dağ adları dəyişdirilmiş, bununla da ermənilər süni bir "Ermənistan" obrazı yaratmağa çalışmışlar.

Əgər Göyçə gölü "Sevan", Zəngi çayı "Hrazdan", Alagöz dağı isə "Araqats" adlandırılırsa, bu, erməni şovinizminin açıq nümunəsidir. Allahverdi rayonuna "Tumanyan", Hamamlı rayonuna isə "Spitak" adının verilməsi kimi, ümumilikdə, türk mənşəli 717 inzibati-ərazi adının dəyişdirilməsi də həmin şovinist və dağıdıcı yanaşmanın başqa bir nümunəsidir.

Bəs adlar dəyişdirilərkən orada yaşayan insanlara nə tətbiq olunurdu? Onlara tətbiq olunan sürgün idi. Azərbaycana məxsus izlər silinmiş, aparılan etnik təmizləmə siyasəti və Zəngəzurun Ermənistana verilməsi nəticəsində Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın quru əlaqəsi kəsilmiş, bölgənin tarixi yenidən yazılmağa çalışılmışdır.

Burada bir anlıq dayanaq: Bunlar hamımızın bildiyi həqiqətlərdir! Qərbi Azərbaycanla bağlı toplantıların keçirilməsi yaxşıdır, zəruridir və doğru addımdır. Lakin bu, kifayət etmir. Bəs bu gün biz nə etməliyik?

Əvvəla, Qərbi Azərbaycan məsələsinin beynəlxalq gündəmdə müzakirə olunmasını təmin etməliyik. Qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti institutları tərəfindən dünyanın əsas mərkəzlərində bu mövzu diqqətlə, hüquqi normalara uyğun şəkildə, yorulmadan və səbir göstərilərək daim gündəmdə saxlanılmalıdır. Tarixi irsin qorunması baxımından UNESCO nəzdində təşəbbüslər irəli sürülməli, qalan abidələrin və mədəni irs nümunələrinin qorunması və yaşadılması təmin edilməlidir.

Birləşmiş Millətlər Təşkilatı çərçivəsində də təşəbbüslər göstərilməli və insanların öz doğma torpaqlarında yaşamaq hüququnun təmin olunacağı günədək bu məsələ beynəlxalq gündəmdə saxlanılmalıdır. Beynəlxalq panellərdə və insan hüquqları təşkilatlarında hüquqi sənədlər və faktlar əsasında haqlı mövqeyimizin müdafiəsi vacibdir. Akademik və diplomatik platformalarda olduğu kimi, ictimai təşəbbüslər vasitəsilə də haqlı olduğumuzu hər fürsətdə anlatmalıyıq.

Bu arada sosial media da diqqətdən kənarda qalmamalıdır. Bölgənin ədəbi və bədii dəyərləri də mədəni irsin yaşadılması məqsədilə dünyanın müxtəlif mərkəzlərində keçiriləcək tədbirlər vasitəsilə gündəmdə saxlanılmalıdır. Hətta xaricdə təhsil alan gənclərimiz də öz əcnəbi dostlarına bölgəni tanıdan və bu həqiqətləri izah edən tədbirlərə təşviq edilməlidirlər.

Biz bunları Qərbi Azərbaycandan olan qardaşlarımız qarşısında, onların insanca yaşamaq hüququ naminə etməyə borcluyuq. Hər şeydən önəmlisi isə bu torpaqların insanlarının təhlükəsiz, ləyaqətli və sülh yolu ilə ata-baba yurdlarına qayıdışının təmin olunmasına çalışmalıyıq. Əgər bölgədə davamlı sülh arzu olunursa, Ermənistan dövləti Qərbi azərbaycanlıların orada insanca yaşamaq hüququnu tanımağa və təmin etməyə borcludur.

Bunlar hamımızın bildiyi həqiqətlərdir. Unutmamalıyıq ki, hüquq axtarmaq bir azadlıqdır. Başqa sözlə, ədalətin bərqərar olunması, haqqın əldə edilməsi və haqsızlığın aradan qaldırılması istiqamətində fəaliyyət göstərmək ən sivil üsuldur. Məsələyə məhz bu prizmadan yanaşmalıyıq.

Mənim təklifim ondan ibarətdir ki, Birləşmiş Millətlər Təşkilatının milli, etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqlarının müdafiəsi mexanizmlərinə müraciət edilməli, eyni zamanda, Avropa Şurasının müvafiq çərçivə konvensiyalarına və ATƏT-in Kopenhagen Sənədinə əsaslanaraq hüquqların müdafiəsi istiqamətində fəaliyyət göstərilməlidir. Bu hüquqların müdafiəsi zamanı xüsusi vurğulamaq lazımdır ki, tələb olunan hüquq yeni yaradılan deyil, mövcud olan hüquqdur. Bu, həm də mənəvi bir hüquqdur. Bir qədər emosional danışmalı olsam, deyərəm ki: Ermənilər yalan danışırlar.

Tarixi tədqiqatlara və arxiv sənədlərinə inanmırlar. Həmişə üçüncü tərəfləri prosesə cəlb etməkdən çəkinmirlər. Məntiqin və ağılın yolunu qəbul etmirlər. Belə olan halda, bizim üzərimizə düşən vəzifə bu məsələnin beynəlxalq platformalardan kənarda qalmasına imkan verməməkdir. Lakin bunu onların vaxtilə etdikləri kimi od və qan yolu ilə deyil, insani bir haqqın təntənəsi kimi həyata keçirməliyik. İnanıram ki, bu həm bizim, həm də Ermənistan tərəfinin məsuliyyətidir.

Azərbaycanlıların ata-baba torpaqlarına qayıdışı bir hüquqdur. Bu, beynəlxalq hüquq normalarına görə ədalətin və hüququn tələbidir. Etik baxımdan yanaşdıqda isə bu məsələnin həll edilməməsi beynəlxalq miqyasda utanc doğuran bir vəziyyətdir.

Əxlaqi meyarlar prizmasından yanaşsaq, buna qarşı arqument tapmaq mümkün deyil. Buna görə də mən bu hüququn, ədalətin, etik və mənəvi dəyərlərin qorunmasını, yaşadılmasını və müdafiəsini bəşəri bir vəzifə hesab edirəm. Bu məsələnin müzakirə olunması, gündəmdə saxlanılması həm mədəni irsin qorunması, həm də beynəlxalq məlumatlılığın artırılması baxımından mühüm və zəruridir. Qısaca desək, bizim vəzifəmiz Qərbi Azərbaycan həqiqətlərini daha çox insana və daha çox beynəlxalq quruma çatdırmaqdır.

***Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor***

*Tofiq Hüseyn – 80*

# İstedadlı şair, nüfuzlu publisist

**Çağdaş mətbuat və poeziyamızda öz imzası ilə tanınan qələm sahiblərindən biri olan Tofiq Hüseynin 80 illik yolu sözə, yaradıcılığa və jurnalistikaya sədaqət nümunəsidir.**

1946-cı ildə Masallı rayonunun Məmmədxanlı kəndində anadan olan Tofiq Hüseyn gənc yaşlarından ədəbiyyata böyük maraq göstərib. Kənd həyatı, doğma torpağa bağlılıq dünyagörüşünün formalaşmasında mühüm rol oynayıb. Onun ilk şeiri olan "Yarpaq" Azərbaycan Xarici Dillər İnstitutunun (indiki ADU) qəzetində dərc olunub. Bir il sonra isə Xəlil Rzanın təqdimatı ilə Masallı rayonunun "Çağırış" qəzetində işıq üzü görən silsilə şeirləri gənc şairi ədəbi mühitdə tanıdıb.

Ötən əsrin 60-70-ci illərində Bakıda Azərbaycanın görkəmli şairlərinin rəhbərliyi ilə fəaliyyət göstərən ədəbi dərnəklərdə Tofiq Abdin, Sabir Rüstəmxanlı, Ramiz Rövşən, Seyran Səxavət, Məmməd Oruc, Eldar Baxış kimi istedadlı şair və yazıçılarla ünsiyyət quran Tofiq Hüseyn ədəbi yaradıcılığını daha da genişləndirib. O dövrdə Azərbaycan Yazıçılar İttifaqının nəzdində fəaliyyət göstərən "Gənc qələmlər" ədəbi birliyi də gənc yazarların formalaşmasında mühüm rol oynayıb. Tofiq Hüseynin "Pələng" şeiri də bu ədəbi birlikdə geniş müzakirələrə səbəb olub. Xalq şairi Cabir Novruz şeiri bənd-bənd təhlil edib və bədii dəyərini yüksək qiymətləndirib. "Azərbaycan gəncləri" qəzetində dərc olunan məlumatda da şeirin müsbət qarşılandığı qeyd edilib.

Tofiq Hüseyni fərqləndirən əsas cəhətlərdən biri də həyat hadisələrinə və insana diqqətlə yanaşmasıdır. Sovet dövründə ədəbiyyatın aparıcı istiqamətlərindən olan əmək mövzusunda yazılan əsərlərin əksəriyyəti ideoloji yanaşmalar üzərində qurulurdu. Lakin Tofiq Hüseyn kimi yeni nəsil şairlər bu çərçivəni aşaraq insan əməyinin dəyərini göstərməyi bacarırdılar. "Fəhlə əlləri" şeirində şair zəhmətin əsl izlərini daşıyan fəhlə əllərindən bəhs edir.

1967-ci ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra Əli Bayramlı (indiki Şirvan) şəhərində jurnalistika sahəsində fəaliyyətə başlayan, "İşıq" qəzetində ədəbi işçi, şöbə müdiri və məsul katib vəzifələrində çalışan Tofiq Hüseyn uzun illər bölgə mətbuatının inkişafında jurnalistikanın peşəkar prinsiplərinə sadiq qalıb. Müstəqilliyin ilk illərində isə yeni yaradılmış Hacıqabul rayonunda nəşr olunan "Hacıqabul" qəzetinin ilk baş redaktoru kimi bölgə mətbuatının formalaşmasına mühüm töhfələr verib. Sonrakı illərdə "Həyat" qəzetinin cənub, 1997-ci ildən etibarən "Respublika" qəzetinin Muğan–Şirvan bölgəsi üzrə xüsusi müxbiri kimi jurnalist peşəkarlığı və məsuliyyəti ilə tanınıb, həmin dövr həyatının ən məhsuldar illəri kimi yadda qalıb.

Tofiq Hüseyn bir jurnalist kimi Saatlı və Sabirabad ərazilərində çadır düşərgələrində son dərəcə çətin şəraitdə yaşayan məcburi köçkünlərin yanında olub, onların problemlərini işıqlandırmağa çalışıb. Biləsuvar rayonunda Cəbrayıl məcburi köçkünləri üçün salınan müasir qəsəbənin inkişafı və sakinlərin sosial vəziyyəti ilə bağlı çoxsaylı yazılarla çıxış edib. 2010-cu ildə Kür çayının daşması nəticəsində Şirvan bölgəsinin bir neçə yaşayış məntəqəsi su altında qalıb. Tofiq Hüseyn onların üzləşdiyi çətinlikləri işıqlandırıb.

Tofiq Hüseynin çoxillik səmərəli fəaliyyəti yüksək qiymətləndirilib. 2005-ci ildə "Tərəqqi" medalına, 2013-cü ildə "Əməkdar jurnalist" fəxri adına layiq görülməsi onun mətbuata xidmətinin ən dəyərli göstəricilərindəndir.

Xalq şairi Xəlil Rza Ulutürk Tofiq Hüseynin poeziyasını belə dəyərləndirib: "Tofiqin misralarında klassik Azərbaycan şeirinin, xüsusilə Səməd Vurğun poeziyasının dərin qatlarından süzülüb gələn bir işıq parlamaqdadır".

O, 8 şeir və publisistik məqalələr kitabının, sənədli povestin müəllifidir. "Sənə inanıram", "Sənin yaxşılığın", "Üzünə gün işığı düşən adam", "Seçilmiş əsərləri" və s. kitabları şairin zəngin söz dünyasını əks etdirir. Tofiq Hüseyn müasir dövrün hadisələrinə həssas münasibət göstərən sənətkarlardandır. Onun poeziyasında Vətən, müharibə, şəhidlik, insan taleyi və mənəvi dəyərlər aparıcı yer tutur. Qarabağ uğrunda mübarizə və şəhidlərimizin xatirəsi şeirlərində dərin duyğularla ifadə edilir.



Tofiq Hüseynin "Bir ovuc torpaq", "Od", "Qış axşamı", "Tala", "Yağış yağar", "Pələng", "Yoldaş – səni kim apardı", "Tikan", "Sinəm ürəyimin tabutu imiş", "Sənin sol ayağın", "Yağışdan əvvəl", "Kövşən bayatısı" təbiətin poetik təcəssümüdür.

***Bilmirəm nə oldu güllü kövşənə,***
***Bilmirəm kim çəkər belə zülümü.***
***Ən yaxın adamtək ağırdır mənə***
***O güllü kövşənin vaxtsız ölümü:***

Tofiq Hüseyn təbiətlə insan arasındakı görünməz bağları incə poetik hisslərlə qələmə alır, kədəri, nisgili və həyat həqiqətlərini duymağa, oxucusuna ötürməyə çalışır. Ağaclardan, quşlardan, dağlardan bəhs edən misralar insan duyğularının əks-sədası kimi görünür:

***Yaz gələndə ağ libasda, mat qoyurdun***
***ağ buludu.***
***Heyif sənə gözəl ağac, heyif sənə***
***tez qurudun…***
***Kefə baxırlar indi vura***
***bilmədiyim quşlar.***
***Ölümlərin üstündən uçurlar,***
***ölümlərinə üstdən aşağı baxırlar.***

Yaradıcılığında poeziya ilə publisistikanı vəhdətdə davam etdirən, yazılarında insan taleləri, vətən sevgisi, mənəvi dəyərlər və həyat həqiqətləri xüsusi yer tutan Tofiq Hüseyn bu gün də qələmi ilə xalqımıza xidmətini davam etdirir.

***Ləman TƏHMƏZ***
***XQ***

*Vaqif Hüseynov – 90*

# Azad ruhun ölməzliyi

**Hərarətli misralarında parlaq ruhu yaşayan, "Vətənimi çalıb-çapır bir göy gözlü sarı iblis, azad gəzə bilərəmmi əsir olan torpağımda" deyən görkəmli şair, publisist Vaqif Hüseynov yaşasaydı, 90 yaşı olacaqdı. Lakin cəmi 49 il yaşadı. Ömrünü sözə, poeziyaya, jurnalistikamızın inkişafına həsr edərək xalqın böyük məhəbbətini, əbədi sevgisini qazandı.**





Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsinin sədri, yazıçı-dramaturq Qafar Cəfərli yubilyarın həyat və yaradıcılığından danışdı. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirdiyini, Vaqif İbrahim təxəllüsü ilə gözəl poeziya nümunələri yaratdığını, Lənkəran rayon qəzeti redaksiyasında şöbə müdiri, məsul katib, Masallı rayonunun "Çağırış" qəzetində baş redaktor, Lənkəran rayonunun radio verilişləri redaksiyasında redaktor vəzifələrində işlədiyini bildirdi.

Vaqif Hüseynov məqalə və felyetonları, dövrün ədalətsizliklərinə qarşı kəskin şeirləri, redaktor kimi prinsipial mövqeyi və peşəkarlığı ilə böyük nüfuz qazanıb. Rəhbərlik etdiyi qəzetin qabaqcıl işi haqqında keçmiş İttifaqın ən nüfuzlu nəşrlərindən olan "Pravda" qəzetində yazı dərc olunub. Mətbuat sahəsində səmərəli xidmətlərinə görə "Şərəf nişanı" ordeni, 2 medal və "Qızıl qələm" mükafatı ilə təltif olunub. Dörd şeirlər kitabı işıq üzü görüb.

Məclisdə Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatının sektor müdiri Rövşən Rəhimli unudulmaz şairin cənub ədəbi mühitinə təsirindən, yeni ədəbi nəslin formalaşmasında xidmətlərindən danışdı.

Milli Məclisin üzvü, Əməkdar jurnalist Elçin Mirzəbəyli yubilyarla bağlı xatirələrini bölüşdü. Tanınmış tənqidçi, filologiya elmləri doktoru Vaqif Yusifli, Lənkəran Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru Yədulla Agazadə, şair-publisist Ağacəfər Həsənli, yazıçı-publisistlər Ələşrəf Niftiyev, Hafiz Mirzə, yubilyarın nəvəsi, Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinin kafedra müdiri, dosent Nigar Məsimova yubilyarın zəngin ədəbi irsindən, iti, sərrast qələmi ilə cəmiyyəti düşündürən problemləri məharətlə işıqlandırmasından, şeirlərinin dillər əzbəri olmasından söz açdılar.

Mərasim bədii hissə ilə davam edib.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# "Yaşıl enerji"yə keçid dövründə kadr hazırlığı

**Dünyada "yaşıl enerji"yə keçid, rəqəmsallaşma və innovativ həllər bu sahədə yeni imkanlar, ciddi tələblər yaradır. Naxçıvanda da energetika istiqamətində aparılan işlər, xüsusilə kadr hazırlığı və beynəlxalq təcrübə proqramları diqqət çəkir. Universitetdə praktiki tədris imkanları tələbələrin real iş mühitinə daha hazır yetişməsinə şərait yaradır.**



Naxçıvan Dövlət Universitetində energetika mühəndisliyi ixtisası üzrə kadr hazırlığı da yüksək səviyyədə aparılır. Bu ixtisas 2008-ci ildən etibarən memarlıq və mühəndislik fakültəsinin tərkibində yaradılıb. Həmin ildən bu yana məzunlarımız energetika sahəsində müxtəlif vəzifələrdə çalışırlar. İstər fakültə daxilində, istərsə də "Naxçıvan Enerji" MMC ərazisində yerləşən bir neçə laboratoriya var ki, tələbələrimiz onların imkanlarından yararlanırlar. Bu prosesdə "Naxçıvan Enerji" MMC-nin ixtisaslı mütəxəssisləri tələbələrə yaxından kömək göstərirlər.

Universitetin tələbələri xarici ölkələrdə də mütəmadi olaraq təcrübə proqramlarında iştirak edirlər. Məsələn, 2021-ci ildə tələbələr Almaniyanın Vismar şəhərində energetika sahəsi üzrə təcrübə keçiblər. Avropanın mərkəzində tələbələr külək və günəş enerji qurğuları ilə yaxından tanış olublar, bu qurğulardan enerjinin alınma yollarını ətraflı şəkildə öyrəniblər.

2022-ci ildə isə tələbələrimizlə İtaliyanın Florensiya şəhərində yerləşən "Fimer" şirkətinin təlim mərkəzində olduq. Burada yeni texnologiyalar sayılan invertorlar haqqında mühazirələri dinlənildi. Mühazirəçilər Roma şəhərindən gətirilmiş yüksək ixtisaslı kadrlardan ibarət idi. Onlar invertorların iş prinsipi, daxilində gedən enerji dəyişmələri və tətbiq sahələri barədə tələbələrə ətraflı məlumat verdilər. Həmçinin Florensiya şəhərində həmin şirkətin ərazisində yerləşən günəş elektrik stansiyalarına baxış keçirdilər. Təcrübə müddətində tələbələr invertorların quraşdırılması və günəş elektrik stansiyalarının fəaliyyəti ilə yaxından tanış oldular. Bu il isə energetika ixtisası üzrə təhsil alan IV kurs tələbələrimiz Trabzon şəhərində təcrübəyə göndərilərək Qaradəniz Texniki Universitetinin nəzdində fəaliyyət göstərən energetika fakültəsində təcrübə keçiblər.

Ümumiyyətlə, Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən elektroenergetika mühəndisliyi kafedrasında 2008-ci ildən başlayaraq 5 illik elmi tədqiqat işləri aparılır. Muxtar respublikanın alternativ enerji potensialı araşdırılır və bu sahədə müxtəlif tədqiqat işləri aparılır.

Energetika sahəsinə təkcə bir ixtisas kimi yanaşmaq olmaz, bu sahə həyatın davamlılığını təmin edən, bir ölkənin iqtisadi gücünün, sənaye inkişafının və milli təhlükəsizliyinin əsas dayağıdır. Yeni dünya düzənində enerji sistemi böyük transformasiyalar yaşayır. Ənənəvi sistemlər öz yerini daha ağıllı, rəqəmsal sistemlərə ötürür. "Smart Grid" adlandırılan ağıllı şəbəkələr vasitəsilə enerji real vaxt rejimində idarə olunur, vaxt itkisinin qarşısı alınır və qəzalar aradan qaldırılır. Eyni zamanda, dünya "yaşıl enerji"yə keçid etməyə başlayır. Bütün bu yeniliklər energetika sahəsində ixtisaslı kadrların yetişdirilməsinə ehtiyac yaradır. Bu sahədə çalışan mütəxəssislər yüksək biliklərə sahib olmalı, rəqəmsal sistemlər, avtomatlaşdırma və proqramlaşdırma biliklərinə yiyələnməlidirlər. Bunun üçün Naxçıvan Dövlət Universiteti bütün lazımi təchizatla təmin olunub.

Naxçıvanın "yaşıl enerji" zonasına çevrilməsi strategiyası regionun gələcək inkişafı üçün çoxşaxəli və uzaqgörən yanaşmadır. Bu siyasət həm yerli bərpaolunan enerji potensialından səmərəli istifadəni, həm də enerji təhlükəsizliyinin möhkəmləndirilməsini təmin edir. Bu strategiya iqtisadi baxımdan da yeni imkanlar açır, investisiyaları cəlb edir, yeni iş yerləri yaradır, sənaye və xidmət sektorunun imkanlarını genişləndirir. Eyni zamanda, enerji xərclərinin optimallaşdırılması və ixrac imkanlarının formalaşması regionun rəqabət qabiliyyətini artırır.

"Naxçıvan Enerji" MMC-nin məlumatlarına əsasən, muxtar respublika ərazisi 1000 meqavatlarla hesablanan bərpaolunan enerji potensialına malikdir. Universitet ərazisində də 10 KVt külək enerji qurğusu və 3,3 KVt günəş panelləri quraşdırılıb ki, bunları birlikdə mini hibrid enerji stansiyası adlandırmaq olar. Memarlıq və mühəndislik fakültəsi ilk vaxtlarda buradan təmin olunan enerji hesabına öz enerjisini təmin edirdi. Tələbələr dərs zamanı bu qurğularla əyani şəkildə tanış olur, günəş panelləri və külək qurğularının iş prinsiplərini öyrənirlər.

Naxçıvan Muxtar Respublikasında "yaşıl enerji" zonalarının yaradılması, yeni günəş və külək elektrik stansiyalarının qurulması mühüm əhəmiyyət kəsb edir. Bu stansiyalar gələcəkdə kadrlar üçün iş imkanlarının artmasına da şərait yaradacaq. Dövlət başçısının qəbul etdiyi qərarlara əsasən, 2030-cu ilə qədər 1200 MVt gücündə böyük günəş elektrik stansiyasının tikilməsi planlaşdırılır. Eyni zamanda, Culfa və Ordubad–Arazboyu ərazilərdə külək enerji qurğularının quraşdırılması da səmərəlidir. Hazırda Naxçıvan enerji sistemi ölkənin enerji sistemi ilə sinxron deyil və ayrı fəaliyyət göstərir. Gələcəkdə Zəngəzur dəhlizinin açılması enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaq. Bununla yanaşı, Cəbrayıl rayonunda quraşdırılan 330 KVt enerji stansiyasının Naxçıvanla əlaqələndirilməsi, yüksəkgərginlikli xətlərin və çevirici stansiyaların qurulması, həmçinin 400 KVt Naxçıvan–Türkiyə enerji xəttinin çəkilməsi nəzərdə tutulur.

"Yaşıl enerji" zonası anlayışı tələbələrə və gənc mütəxəssislərə yeni imkanlar açır, onları innovativ texnologiyalarla tanış edir və təhsilin praktiki inkişafına böyük təkan verir. Eyni zamanda, bu strategiya regionun iqtisadi potensialını artıra və Naxçıvanı gələcəkdə mühüm enerji mərkəzlərindən birinə çevirə bilər.

***Sevinc RZAYEVA,***
***NDU elektroenergetika mühəndisliyi kafedrasının baş müəllimi***

# Milli Teatr Konya festivalında




**Akademik Milli Dram Teatrı Konya Beynəlxalq Teatr Festivalında iştirak edir.**

Festival çərçivəsində Türkiyə Dövlət Teatrlarının baş direktoru Tamer Qaradağlı və Akademik Milli Teatrın direktoru İlham Əsgərovun iştirakı ilə keçirilən görüşdə hər iki ölkənin mədəniyyət nazirliklərinin dəstəyi ilə teatrlar arasında əməkdaşlıq qurulması məmnunluqla qeyd edilib, bu təşəbbüsün ümumtürk teatr mədəniyyətinin inkişafına xidmət etdiyi bildirilib, yaradıcılıq müzakirəsi aparılıb.

Dünən Akademik Milli Dram Teatrı Vilyam Şekspirin "Kral Lir" əsəri əsasında hazırlanmış "Kral Lirin faciəsi" tamaşası ilə çıxış edib. Tamaşanın quruluşçu rejissoru və bəstəkarı Şota Rustaveli adına Gürcüstan Milli Teatrının baş rejissoru David Sakvarelidze, rejissoru Anar Babalıdır. Əsərin tərcümə və səhnə variantının müəllifi Kamran Nəzirli, quruluşçu və geyim üzrə rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Vaqifoğlu, rejissor assistenti Nərmin Həsənovadır. Səhnə döyüşü və plastik həll Bəhruz Əhmədliyə məxsusdur.

Tamaşada xalq artistləri Nurəddin Mehdixanlı, Sabir Məmmədov, əməkdar artistlər Münəvvər Əliyeva, Elnar Qarayev, Anar Heybətov, Elşən Rüstəmov, aktyorlar İlahə Həsənova, Rəbbilə Ələkbərzadə, Tural İbrahimov, Elsevər Rəhimov, Elçin Nurəliyev, Əliulla Vəliyev, Rəvan Səmədov, Vüsal Mustafayev, Kənan Hüseynov, Muhuma Sahov, Rüfət Əhmədov, Fərid Qarayev, Nicat İsgəndərov, Nihad Aslan və Aylin Həşimli iştirak ediblər.

***XQ***

# Zaqatalada Qərbi Azərbaycan dərsi



**Zaqatala rayonu Muxax kənd 1 saylı tam orta məktəbində Qərbi Azərbaycan tarixi mövzusunda açıq dərs keçirilib.**

Məşğələni aparan tarix müəllimi Vəfa Mahmudova açıq dərsin Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, professor Mahirə Hüseynovanın məktəbə hədiyyə etdiyi "Onun daş nağılı", "Salam olsun", "Ruhuna beşiksə, tanı, vətəndir", "Yanından keçmə dağların", "Anamın kitabı" və "Qərbi Azərbaycan: Danışan izlərin işığında" kitablarında toplanmış tarixi materiallar və müəllifin vətənpərvərlik mövzusunda yazıları əsasında təşkil edildiyini bildirib.

Açıq dərsdə şagirdlərə Qərbi Azərbaycanla bağlı tarixi həqiqətlər, bu qədim türk yurdunun zəngin mədəni irsi, soydaşlarımıza qarşı törədilmiş davamlı soyqırımı və deportasiya, bölgəyə qayıdışın beynəlxalq hüquqla təsbit olunmuş insanlıq haqqı olması barədə ətraflı məlumat verilib, videçarx nümayiş etdirilib.

Mövzu ətrafında aparılan müzakirədə Zaqatala Rayon İcra Hakimiyyətinin sektor müdiri Ramin Həsənov, Qərbi Azərbaycan İcması Zaqatala nümayəndəliyinin rəhbəri Vasif İsrafilzadə, Rayon Ağsaqqallar Şurasının sədr müavini Tahir Məmmədov, "Zaqatala" qəzetinin baş redaktoru İbrahim İbrahimov və məktəbin direktoru Ədalət Qurbanova soydaşlarımızın tarixi vətənlərinə dönüşünün ümummilli hərəkat kimi dəstəklənməsinin zəruriliyini vurğulayıblar.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Azərbaycanlı şair "Abay medalı"na layiq görülüb

**Tanınmış şair-tərcüməçi Akif Əhmədgil Qazaxıstanın nüfuzlu ədəbi mükafatı olan "Abay medalı" ilə təltif olunub.**

Həmyerlimiz bu mükafata dünyaşöhrətli qazax şairi və ictimai xadim, Azərbaycan xalqının yaxın dostu Oljas Süleymenovun əsərlərini və Qazaxıstanın xalq şairi Ulugbek Yesdauletin "Ulugbek küçəsi" adlı şeirlər kitabını Azərbaycan dilinə tərcümə etdiyi üçün layiq görülüb.

Nüfuzlu mükafat Akif Əhmədgilə Almatı şəhərində Oljas Süleymenovun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq forumda təqdim edilib. O, yubilyara Azərbaycan sazı bağışlayıb.



***Ə.ƏLİYEV***
***XQ***

# Rəqəmsal səhiyyə ekosistemində fərdi tibbi məlumatın qorunması milli təhlükəsizlik məsələsidir

*Müsahibimiz ETN İnformasiya Texnologiyaları İnstitutunun baş elmi işçisi, dosent Ramiz Şıxəliyevdir*

**– Ramiz müəllim, rəqəmsal səhiyyə konsepsiyası mahiyyət etibarilə nəyi ifadə edir və bu mərhələyə keçid ənənəvi tibbi xidmət modellərini necə transformasiya edir?**

– Rəqəmsal səhiyyə konsepsiyası, sadəcə, tibb müəssisələrinin texnoloji avadanlıqlarla təchiz edilməsi və ya sənədləşmə proseslərinin kağız daşıyıcılardan rəqəmsal formaya keçirilməsi demək deyil. Bu anlayış tibbin fundamental prinsiplərinin yenidən formalaşmasını ifadə edir. Mahiyyət etibarilə rəqəmsal səhiyyə – tibbi biliklərin, xəstə datalarının, süni intellekt alqoritmlərinin və mütərəqqi kommunikasiya texnologiyalarının vahid ekosistemdə birləşməsidir. Bu modelin təməl hədəfi tibbi xidmətləri daha əlçatan, fərdiləşdirilmiş və ən əsası, da səmərəli etməkdir. Rəqəmsal səhiyyəyə keçid uzun illər boyu formalaşmış ənənəvi tibbi xidmət modellərini köklü şəkildə transformasiya edir. Biz bu transformasiyanın təzahürlərini bir neçə mühüm istiqamətdə aydın görə bilərik.

Birincisi, tibb "reaktiv" modeldən "proaktiv" modelə keçir. Ənənəvi yanaşma simptomlara əsaslanırdı – yəni vətəndaş yalnız xəstələndikdən sonra həkimə müraciət edir, həkim isə baş vermiş fakta reaksiya verirdi. Rəqəmsal səhiyyə isə proaktiv xarakter daşıyır. Üstümüzdə gəzdirdiyimiz smart cihazlar, sensorlar və genetik profilin analizi sayəsində insan orqanizminin rəqəmsal profili çıxarılır. Süni intellekt və Big Data analitikası xəstəlikləri hələ ilkin funksional dəyişikliklər səviyyəsində, yəni simptomlar üzə çıxmamış proqnozlaşdırır və qarşısını alır.

İkincisi, tibbi xidmətin coğrafi asılılığı aradan qalxır. Ənənəvi modeldə pasiyentlə həkimin eyni fiziki məkanda – klinikada olması mütləq şərt idi. Bu gün isə teletibb və uzaqdan monitorinq sistemləri sayəsində tibbi xidmət müəssisələrin divarlarını aşır. Dünyanın istənilən nöqtəsindəki mütəxəssis rəqəmsal platformalar üzərindən xəstəni müayinə edə, onun dinamik göstəricilərini izləyə bilir. Bu, xüsusilə, tibbi xidmət sahəsində regional bərabərsizliyin aradan qaldırılmasında və yüksək keyfiyyətli tibbə əlçatanlığın təmin olunmasında inqilabi addımdır.

Üçüncüsü, standart müalicə forması öz yerini fərdiləşdirilmiş tibbə verir. Əgər əvvəllər müəyyən bir xəstəlik protokolu çərçivəsində hamıya eyni metodologiya, müalicə üsulları və dərman preparatları tətbiq edilirdisə, rəqəmsal tibb hər bir fərdin bioinformatik məlumatlarını, daxili metabolizmini və molekulyar quruluşunu əsas götürür. Müalicə birbaşa konkret insanın bioloji xüsusiyyətlərinə adaptasiya olunur.

Nəticə etibarilə, bu transformasiya sayəsində həm də həkim və pasiyent rollarını dəyişir. Pasiyent artıq prosesin passiv izləyicisi deyil, öz sağlamlıq məlumatlarına sahib çıxan aktiv tərəfdaşa çevrilir. Həkimlər isə rutin sənədləşmə işlərindən azad olaraq süni intellektin təqdim etdiyi dəqiq analizlər əsasında daha strateji və fərdi qərarlar qəbul etmək imkanı qazanırlar. Bir sözlə, rəqəmsal səhiyyə xəstəliklərin müalicəsindən sağlamlığın fasiləsiz idarə edilməsi modelinə keçidi təmin edir.

**– Rəqəmsal səhiyyə sistemində fərdi tibbi məlumatların qorunmasına nəyə görə xüsusi əhəmiyyət verilir?**

– Rəqəmsal səhiyyə sistemində fərdi tibbi məlumatların qorunması, sadəcə, texniki bir tələb deyil, həm də etik və təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb etməklə, bütövlükdə, milli təhlükəsizlik məsələsinə çevrilir. Bunun bir neçə fundamental səbəbi var. İlk növbədə, tibbi məlumatlar fərdin ən gizli və həssas informasiyalarıdından biridir. Bank kartının şifrəsi sızdıqda onu dəyişmək mümkündür, lakin insanın genetik kodu, keçirdiyi xroniki xəstəliklər və ya psixoloji diaqnozları bir dəfə aşkar olunduqda bu vəziyyəti geri qaytarmaq qeyri-mümkündür. Bu informasiyanın sızması şəxsin ömür boyu sosial və ya peşəkar diskriminasiyaya məruz qalmasına səbəb ola bilər.

Daha bir vacib məsələ pasiyent-həkim etimadı ilə bağlıdır. Tibb elminin təməlində qarşılıqlı inam dayanır. Əgər vətəndaş öz fərdi məlumatlarının rəqəmsal mühitdə qorunmadığını düşünsə, o, diaqnostika prosesində mühüm detalları həkimdən gizlədəcək. Bu isə yanlış diaqnozlara, müalicənin səmərəsizliyinə və nəticədə, ictimai sağlamlığın pisləşməsinə gətirib çıxarır. Kibercinayətkarlıq və iqtisadi risklər də mühüm əhəmiyyət kəsb edir. Qara bazarda tibbi qeydlər kredit kartı məlumatlarından dəfələrlə baha qiymətə satılır. Bu məlumatlar sığorta fırıldaqçılığı, şantaj, saxta reseptlərin əldə edilməsi üçün istifadə edilir.

Səhiyyə müəssisələrinə edilən kiberhücumlar sistemləri bloklayaraq insan həyatını birbaşa təhlükə altına qoyur. Kritik anlarda pasiyentin qan qrupu və ya allergiyaları barədə məlumata əlçatanlığın itməsi ölümcül nəticələrə səbəb ola bilər. Eyni zamanda, müasir dünyada fərdi məlumatların qorunması fundamental insan hüquqlarının tərkib hissəsi kimi çıxış edir. Azərbaycan qanunvericiliyi və beynəlxalq konvensiyalar səhiyyə müəssisələrinin üzərinə ciddi hüquqi öhdəliklər qoyur. Bu öhdəliklərin pozulması həm irimiqyaslı cərimələrə, həm də müəssisənin nüfuzunun itirilməsinə səbəb ola bilər.

**– Rəqəmsal səhiyyə sistemində ən çox rast gəlinən kibertəhlükələr hansılardır?**

– Rəqəmsal səhiyyə müasir dövrdə tibbi xidmətlərin keyfiyyətini artırmaqla yanaşı, yeni risklər də doğurur. Ən ciddi təhlükələrdən biri şantaj (ransomware) proqramlarıdır. Bu hücumlar zamanı hakerlər xəstəxana sistemlərini şifrələyir və onları açmaq üçün pul tələb edirlər. Belə hallarda təkcə maliyyə vəsaitləri deyil, həm də pasiyentlərin həyatı risk altına düşür. Çünki kritik tibbi cihazlar və məlumat bazaları əlçatan olmur. İkinci böyük problem fişinq hücumlarıdır.

Belə hücumlar zamanı tibbi personalın elektron poçtlarına göndərilən saxta məktublar vasitəsilə giriş məlumatları ələ keçirilir. Bu, pasiyentlərin elektron sağlamlıq kartlarının və sığorta sistemlərinin təhlükəsizliyinin pozulmasına səbəb olur. Bir çox hallarda həkimlər və əməkdaşlar gündəlik gərgin iş şəraitində bu cür e-poçtları fərqləndirə bilmirlər. Digər ciddi təhlükə məlumat sızmalarıdır. Pasiyentlərin tibbi tarixçəsi, şəxsiyyət məlumatları və maliyyə bilgiləri ən qiymətli hədəflərdir. Bu məlumatların sızması həm reputasiya, həm də hüquqi məsuliyyət baxımından ağır nəticələr doğurur.

Səhiyyə müəssisələri üçün, bu, ictimai etimadın itirilməsi deməkdir. Daha bir risk bulud sistemlərinin zəif konfiqurasiyası ilə bağlıdır. Bir çox müasir xəstəxanalar bulud texnologiyalarına keçsə də, düzgün təhlükəsizlik tədbirləri görülmədikdə məlumatlar açıq qalır. Bu, pasiyentlərin şəxsi məlumatlarının kənar şəxslərin əlinə keçməsi ilə nəticələnə bilər. Həmçinin əşyaların internetinə qoşulan tibbi cihazlar da hakerlərin hədəfinə çevrilir. İnternetə bağlı süni nəfəs aparatları, insulin pompası və digər cihazların zəif qorunması pasiyentlərin sağlamlığına birbaşa təsir göstərə bilər. Bu, rəqəmsal səhiyyənin ən həssas nöqtəsidir. Ən hiyləgər hücum forması isə sosial mühəndislikdir.

Burada hakerlər texniki boşluqlardan deyil, insanların psixologiyasından istifadə edirlər. Məsələn, özünü informasiya texnologiyaları mütəxəssisi kimi təqdim edən bir şəxs həkimdən parolunu istəyə bilər və həkim də gərgin iş rejimində bu tələbi normal qəbul edə bilər. Sosial mühəndislik hücumları texniki müdafiə sistemlərini asanlıqla aşır, çünki hədəf insanın diqqətsizliyi və etibar hissidir.



Bütün bunlar deməyə əsas verir ki, rəqəmsal səhiyyədə kibertəhlükəsizlik yalnız texnoloji deyil, həm də sosial məsələdir. Çünki hər bir hücum nəticəsində risk altında olan təkcə sistemlər deyil, həm də insanların həyatıdır. Ona görə də səhiyyə müəssisələri müasir texnologiyaları tətbiq edərkən, eyni zamanda, kibertəhlükəsizlik strategiyaları hazırlamalı, işçiləri maarifləndirməli və sosial mühəndislik risklərinə qarşı xüsusi təlimlər keçirməlidir.

**– Bu problemlərin qarşısını almaq üçün hansı üsullardan istifadə olunur?**

– Rəqəmsal səhiyyədə kibertəhlükələrin qarşısını almaq üçün bir sıra üsullar tətbiq olunur. İlk növbədə, məlumatların şifrələnməsi vacibdir. Pasiyentlərin tibbi tarixçəsi və şəxsi məlumatları müasir kriptoqrafik alqoritmlərlə qorunmalıdır ki, sızma halında belə məlumat oxuna bilməsin. İkinci mühüm addım çoxmərhələli identifikasiyadır. Həkimlər və əməkdaşlar sistemə daxil olarkən yalnız parol deyil, həm də əlavə təsdiqləmə üsulları – SMS kodu, biometrik identifikasiya və digər xüsusi identifikasiya metodlarından istifadə etməlidirlər.

Digər vacib üsul davamlı monitorinq və auditdir. Xəstəxana sistemlərində şübhəli hərəkətlər dərhal aşkar edilməli və cavab tədbirləri görülməlidir. Bu, hücumların erkən mərhələdə qarşısını almağa imkan verir. İşçilərin maarifləndirilməsi də vacib məsələdir. Çünki sosial mühəndislik hücumları texniki müdafiə sistemlərini asanlıqla aşır. İşçilərə real nümunələr üzərində təlimlər keçirilməli, fişinq məktublarını tanımaq öyrədilməli və şübhəli sorğulara cavab verməmək tapşırılmalıdır. Bulud sistemlərinin düzgün konfiqurasiyasının təmin edilməsi vacib məsələdir.

Səhiyyə müəssisələri bulud texnologiyalarına keçərkən mütləq təhlükəsizlik standartlarına əməl etməli, giriş hüquqlarını məhdudlaşdırmalı və məlumatların ehtiyat nüsxəsini saxlamalıdır. Çox kritik bir məsələ isə Iot tibbi cihazlarının qorunmasıdır. İnternetə bağlı süni nəfəs aparatları, insulin pompası və digər cihazlar üçün mütəmadi proqram yeniləmələri edilməli, şəbəkə təhlükəsizlik divarları qurulmalı və yalnız etibarlı bağlantılara icazə verilməlidir.

**– Bu məsələdə tibb müəssisələrinin üzərinə hansı vəzifələr düşür?**

– Rəqəmsal səhiyyə mühitində təhlükəsizliyin təmin olunması yalnız dövlətin və texnologiya şirkətlərinin işi deyil, bu məsələdə tibb müəssisələrinin də üzərinə çox ciddi vəzifələr düşür. Rəqəmsal səhiyyə ekosistemində təhlükəsizliyin təmin edilməsi artıq sadə bir texnoloji prosedur deyil, tibb müəssisələrinin strateji idarəetmə funksiyasına çevrilmişdir. Bu sahədə müəssisələrin üzərinə düşən ən mühüm vəzifə məlumatların konfidensiallığı, bütövlüyü və əlçatanlığı prinsipləri üzərində qurulmuş kompleks bir müdafiə zənciri formalaşdırmaqdır.

Texnoloji müstəvidə tibbi məlumatların həm stasionar vəziyyətdə, həm də ötürülmə prosesində ən yüksək standartlarla şifrələnməsi, kiberhücumlar zamanı informasiyanın mənasız simvollar yığınına çevrilməsini təmin edən mütləq bir öhdəlikdir. Eyni zamanda, sistemdəki hər bir əməliyyatın rəqəmsal izlərinin mütəmadi qeydiyyatı aparılmalı və bu qeydlər mərkəzləşdirilmiş monitorinq vasitəsilə daxili sui-istifadə risklərini aşkar etmək üçün fasiləsiz olaraq analiz edilməlidir.

Lakin təhlkəsizliyin təmin edilməsində texnoloji maneələr kifayət etmir, müəssisə rəhbərliyi tibbi heyətin rəqəmsal savadlılıq səviyyəsini yüksəltmək və kiber-gigiyena qaydalarını korporativ mədəniyyətin ayrılmaz hissəsinə çevirmək məsuliyyətini daşıyır. Bütövlkdə, tibb müəssisəsi həm hüquqi tənzimləmələrə uyğunluğu təmin edən, həm də etik normaları rəhbər tutan bir institusional struktur kimi pasiyentin şəxsi konfidensiallığını müasir kiber-təhdidlərdən qorumaq üçün tam cavabdehlik daşıyır.

**– Azərbaycanda bu sahədə hansı tədbirlər görülür?**

– Son illərdə Azərbaycanın səhiyyə sistemində aparılan köklü islahatlar və rəqəmsallaşma prosesi ölkəmizdə də fərdi tibbi məlumatların təhlükəsizliyi məsələsini ön plana çıxarıb. Vətəndaşların sağlamlıq vəziyyəti, diaqnozları və müalicə tarixçəsinə dair məlumatların məxfiliyinin təmin edilməsi dövlətin prioritet vəzifələrindən biridir. Bu sahədə görülən tədbirləri bir neçə mühüm istiqamət üzrə qruplaşdırmaq olar. Əsas istiqamətlərdən biri müvafiq hüquqi bazanın formalaşdırılmasıdır. Azərbaycan qanunvericiliyi, xüsusilə "Fərdi məlumatlar haqqında" və "Əhalinin sağlamlığının qorunması haqqında" qanunlar tibbi məlumatların qorunması üçün möhkəm hüquqi zəmin yaradır.

Qanuna əsasən, pasiyentin müraciət faktı, sağlamlıq vəziyyəti və diaqnozu barədə məlumatlar "həkim sirri" hesab olunur. Bu məlumatların pasiyentin və ya onun qanuni nümayəndəsinin razılığı olmadan kənar şəxslərə verilməsi qəti qadağandır və qanunla ciddi məsuliyyət yaradır. Digər mühüm istiqamət texnoloji tədbirləri əhatə edir. Səhiyyə xidmətləri rəsmi olaraq kritik infrastruktur hesab olunur. Bu, o deməkdir ki, xəstəxanaların fəaliyyətini pozacaq hücumlar ictimai təhlükəsizlik üçün ciddi risk sayılır və dövlət səviyyəsində müdafiə tədbirləri görülür. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB tərəfindən tətbiq edilən rəqəmsal həllər fərdi tibbi məlumatların vahid və qapalı bazada saxlanılmasını təmin edir.

Tibbi məlumatlara yalnız xidmət göstərən həkimlərin və səlahiyyətli şəxslərin girişi mümkündür. Hər bir daxilolma sistemdə qeydiyyata alınır ki, bu da məlumatın kim tərəfindən və nə vaxt baxıldığını izləməyə imkan verir. Tibbi sənədlərə rəqəmsal giriş üçün gücləndirilmiş elektron imza və identifikasiya vasitələrindən istifadə olunur. Məlumat bazaları müasir kiberhücumlardan qorunmaq üçün ən son texnologiyalarla təchiz edilib. Dövlət qurumları Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə koordinasiyalı şəkildə çalışaraq məlumatların şifrələnməsini, mütəmadi təhlükəsizlik auditlərinin keçirilməsini, bulud texnologiyaları vasitəsilə ehtiyat nüsxələrin qorunmasını həyata keçirir.

Eyni zamanda, vətəndaşlar öz tibbi məlumatları üzərində nəzarət imkanına malikdirlər. "Şəxsi kabinet" və ya "e-Tabib" mobil tətbiqi vasitəsilə hər bir şəxs öz analiz nəticələrini, reseptlərini və xəstəlik tarixçəsini şəxsən görə bilir. Bu, həm şəffaflığı artırır, həm də kağız daşıyıcılarda məlumatın itməsi və ya kənar şəxslərin əlinə keçməsi riskini minimuma endirir. Azərbaycanda tibbi məlumatların qorunması, sadəcə, texnoloji məsələ deyil, həm də insan hüquqlarına hörmətin bir göstəricisidir. Dövlət həm qanunvericilik, həm də müasir informasiya texnologiyaları infrastrukturu vasitəsilə hər bir vətəndaşın sağlamlıq məlumatlarının təhlükəsiz saxlanılmasına zəmanət verir.

**– Gələcəkdə rəqəmsal səhiyyənin təhlükəsizliyi, fərdi tibbi məlumatların qorunması üçün hansı texnoloji yeniliklərin tətbiqi gözlənilir?**

– Gələcəkdə rəqəmsal səhiyyənin təhlükəsizliyi və fərdi tibbi məlumatların qorunması sahəsində inqilabi dəyişikliklər gözlənilir ki, bunların da başında blokçeyn texnologiyasının səhiyyəyə tam inteqrasiyası dayanır. Blokçeyn texnologiyası məlumatların mərkəzləşdirilmiş bir serverdə deyil, paylanmış şəbəkə üzərində zəncirvari şəkildə saxlanılmasını təmin etməklə məlumatların icazəsiz dəyişdirilməsini və ya silinməsini texniki cəhətdən qeyri-mümkün edəcək.

Bu sistemdə hər bir pasiyent öz tibbi məlumatlarının "rəqəmsal sahibi" olacaq və həkimə və ya xəstəxanaya müvəqqəti giriş icazəsini şəxsən özü rəqəmsal açarlar vasitəsilə təqdim edəcək. Eyni zamanda, süni intellekt əsaslı kibermüdafiə sistemləri artıq, sadəcə, hücumdan sonra reaksiya verməyəcək, onlar sistemdəki qeyri-adi fəaliyyətləri ani olaraq analiz edərək haker hücumlarını hələ baş vermədən proqnozlaşdırıb qarşısını alacaqlar.

Digər bir yenilik isə kvant şifrələmə texnologiyalarıdır ki, bu da gələcəkdə superkompüterlərin belə qıra bilməyəcəyi qədər mürəkkəb mühafizə imkanları yaradacaq. Həmçinin biometrik identifikasiyanın daha mürəkkəb formaları, məsələn, damar xəritəsi və ya ani DNT analizi ilə autentifikasiya üsulları tətbiq ediləcək ki, bu da pasiyent profilinə kənar şəxslərin girişini tamamilə istisna edəcək. Bir sözlə, gələcəyin rəqəmsal səhiyyə mühiti həm məlumatın sürətli mübadiləsini təmin edən, həm də onu kənar müdaxilələrdən mütləq şəkildə izolyasiya edən bir "rəqəmsal qala"ya çevriləcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Çəyirdəkli meyvə bağlarında müşahidə edilən virus xəstəlikləri

**Çəyirdəkli (gilas, albalı, gavalı, şaftalı, alça və s.) meyvə bağları respublikamızın əksər rayonlarında, o cümlədən Quba-Xaçmaz, Şəki-Zaqatala, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Mərkəzi Şirvan bölgələrində geniş sahələrdə becərilir. Hazırda gilasın 12 min 599, şaftalının 10 min 584, gavalının 5 min 591, əriyin 4 min 612, alçanın 4 min 422, albalının isə 2 min 112 hektar bağ sahələri mövcuddur.**





2025-ci ildə respublikanın Quba-Xaçmaz, Şəki-Zaqatala, Mərkəzi Aran və Lənkəran-Astara bölgələrinin müxtəlif yaşlı belə bağlarında apardığımız elmi-praktiki müşahidələr, ekspedisiyalar əsasında bir sıra virus xəstəlikləri aşkar edilmişdir. Fermerlərin diqqətinə çatdırmaq istərdim ki, virus xəstəlikləri dünyanın əksər ölkələrinin meyvə-tərəvəz bitkilərində bu və ya digər dərəcədə müşahidə edilir. Xəstəliklərin təsirindən bitkilərin zəifləməsi, məhsuldarlığının aşağı düşməsi, son nəticədə isə quruyaraq sıradan çıxması baş verir.

Viruslar qeyri-hüceyrəvi formalı olub müəyyən canlı hüceyrələrə daxil olaraq orada çoxalmaq qabiliyyətinə malikdir. Viruslar ilk dəfə rus alimi D.İ.İvanovski tərəfindən 1892-ci ildə tütün bitkisində aşkar edilmişdir. Viruslar ali bitkilərdə 300-dən çox, istiqanlı heyvanlarda isə 500-dən artıq xəstəliyə səbəb olur. Canlı orqanizmlərin bir hissəsi olan bitkilər də ətraf mühitin abiotik və biotik amillərinin təsirinə məruz qalır. Abiotik amillərə aşağı və yüksək temperatur, quraqlıq, şoranlıq, yüksək rütubət və s., biotik amillərə isə göbələk, bakteriya, virus, nematod, həşəratlar və mikroplazma kimi tüfeyli orqanizmlər daxildir.

Son onilliklərdə bitkilərdə aşkar edilmiş yeni yoluxucu xəstəliklər arasında virus mənşəlilər önəmli yer tutur. Ayrı-ayrı virus xəstəlikləri hazırda meyvə bitkiləri üçün xüsusi təhlükə yaradır.

Qeyd etmək lazımdır ki, ölkəmizdə çəyirdəkli meyvə bağlarının sahələri ildən-ilə artır. Yeni intensiv tipli bağ sahələrinin salınması zamanı istifadə edilən tinglərin 60 faizi xarici ölkələrdən (Türkiyə, İtaliya, İspaniya və s.) gətirilir. Yerdə qalan 40 faizi isə respublikamızda fəaliyyət göstərən tingçilik təsərrüfatlarının yetişdirdiyi tinglərdən istifadə edilməklə tamamlanır.

Müxtəlif dərəcədə məhsuldar olan, ölkəmizin torpaq-iqlim şəraitinə bu və ya digər dərəcədə uyğun gələn belə tinglərin yetişdirilməsi zamanı xətalara yol verilir. Belə ki, müxtəlif növ calaqaltıların becərilməsi zamanı virusla yoluxmuş, yaxud viruslara sirayətlənə biləcək calaqaltılar ortalığa çıxır.

Bununla yanaşı, istifadə edilən calaqüstülərin (peyvənd olunacaq sortlar) az qismi də olsa viruslu ola bilir ki, bunun nəticəsində də latent (gizli) formada virus xəstəliklərinin daşıyıcısı olan tinglər ortalığa çıxır. Bunları nəzərə alaraq tingçilik təsərrüfatlarında satış üçün hazırlanmış tinglər mütləq termoterapiya (55-60$^0$C-yə qədər kamerada qızdırılmalı) mərhələsindən keçirilməklə istifadə edilə bilər.

Bölgələrdə apardığımız müşahidələr zamanı çəyirdəkli meyvə bağlarında nekrotik dairəvi ləkəlilik, xlorotik dairəvi ləkəlilik və cüzam (şarka) kimi qorxulu xəstəliklər aşkar edilmişdir.

Bu xəstəliklərin qarşısını almaq üçün aşağıdakı mübarizə tədbirləri aparılmalıdır: Yeni bağların salınması zamanı virusdan azad əkin materialından istifadə edilməlidir. Tinglik təsərrüfatlarında yetişdirilmiş tinglər satışdan əvvəl termoterapiyadan (54-64$^0$C) keçirilməlidir. Cavan və məhsuldar çəyirdəkli meyvə bağlarında ildə 3 dəfə (may, iyun, oktyabr) monitorinq aparılmalı və yoluxmuş bitkilər dərhal çıxdaş edilməlidir.

Virusların yayılmasına səbəb olan sorucu ağız aparatı olan həşəratlara qarşı mütəmadi olaraq kimyəvi mübarizə işi aparılmalıdır.

Məqalə Azərbaycan Elm Fondunun maliyyə dəstəyi ilə hazırlanmışdır.

Qrant №: AEF-BQM-BRFTF-4-2024-5(53)-06/04/3-M-04

***Mədət QURBANOV,***
***Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun baş elmi işçisi, biologiya elmləri üzrə fəlsəfə doktoru***

# Yaxın Şərqdə müharibə yenidən alovlana bilər

**Bir neçə gün əvvəl dünya mətbuatı ABŞ–İran razılaşmasının gündəmdə olduğuna dair ciddi fərziyyələr irəli sürürdü. Həftənin ilk günlərində analitiklər bunu əvvəlcə "müharibənin sonu" adlandırsalar da, sonra rəsmi mənbələr razılaşmanı "atəşkəsin uzadılması"na yol açacaq "anlaşma memorandumu" kimi qələmə verdilər. Amma hadisələr göstərir ki, bu razılaşma gözləntiləri və ambisiyaları doğrultmur; onun "texniki" funksiyası nüvə danışıqlarının bərpasına imkan verməkdir. Ayrıca qeyd etmək lazımdır ki, qanlı münaqişə İranın ABŞ-ın əsas şərtlərini aşmaq cəhdləri səbəbindən Cenevrədə aparılan danışıqları dayandırdı və Yaxın Şərqdə alovlanan müharibə Hörmüz boğazı ətrafındakı vəziyyətlə və yüksək dərəcədə zənginləşdirilmiş uran istehsalı ilə daha da mürəkkəbləşdi.**



İranın uranın zənginləşdirilməsini dayandıracağı və nüvə silahı yaratmayacağı ətrafında gedən danışıqlar bir ildən az müddətdə iki müharibəyə səbəb oldu, lakin Hörmüz boğazındakı böhranla daha da mürəkkəbləşərək dünya iqtisadiyyatını, az qala, kollapsa çəkməyə başladı. Vaşinqton və Təl-Əviv bu gün də enerji və nəqliyyat infrastrukturuna qarşı yeni hava və raket zərbələri endirməklə təhdidlərini davam etdirir, Ali Rəhbər Müştəba Xamenei isə onları "hərbi məğlubiyyətlərinin qisasını almaq məqsədilə ölkədə nifaq və parçalanma" yaratmaqla "İranı tabe etmək" cəhdlərini davam etdirməkdə ittiham edir. Bu "tabeçilik" prosesi ABŞ administrasiyasının nüvə məsələsi ilə bağlı irəli sürdüyü şərtlərdə özünü daha açıq göstərir. 2025-ci ilin iyununda 12 günlük müharibə zamanı Donald Tramp İranın "təslim olmasını" tələb edirdi. Əslində o bu tələbi dəfələrlə təkrarlayıb və nüfuzlu bir supergücün rəhbəri kimi bu gün də təkrarlamaqda davam edir.

Hadisələrin gedişi və danışıqlar prosesindən sızdırılan məlumatlardan sonra bir çox diplomatik mənbələr indi hər hansı bir danışıqlar yolu ilə razılığa gəlməyin "qeyri-mümkün" olduğunu daha əminliklə söyləyirlər. Tramp administrasiyası eks-prezident Barak Obamanın komandasından fərqlidir. Amerika lideri bu yaxınlarda onun "qırmızı xətləri"nə cavab verməyən heç bir razılaşmanı qəbul etməyəcəyini bəyan edib: "İran heç vaxt nüvə silahı əldə etməməyə razı olmalıdır" və "Hörmüz boğazı gəmiçilik üçün, dərhal hər iki istiqamətdə məhdudiyyətsiz və rüsumsuz açılmalıdır".

Bəs bu, niyə "qeyri-mümkündür?" Analitiklər bu suala cavab verərkən bildirirlər ki, birincisi, çünki ABŞ və İsrail İran rejiminin tamamilə çökəcəyini, onun yerini təslim olmağa və xarici düşmənlərin tələblərinə tabe olmağa hazır olan zəif bir rəhbərliyin tutacağını güman edirdilər. İkincisi, Stiv Uitkov və Cared Kuşnerdən ibarət dueti Tramp və Benyamin Netanyahunun İranın nüvə proqramını tamamilə ləğv etmək istəyi ilə idarəolunan danışıqlar missiyasına başladılar. Tehranın kompromis axtaran ənənəvi danışıqlarda israr etdiyini üzə çıxaranda cavab müharibə oldu. Üçüncüsü, iranlılar İslamabad danışıqlarına gəlib Hörmüz boğazını bağlamaqla hədələdilər və ABŞ buna İran limanlarını blokadaya almaqla cavab verdi. Böhranlara daha biri əlavə olundu. Trampın blokadanın qaldırılacağını açıqlamasından sonra belə, Tehran öz suverenliyinin və boğaza nəzarət etmək hüququnun tanınmasında, o cümlədən tranzit haqlarının tətbiq edilməsində israr etməyə davam edir. Lakin Hörmüz boğazı İran parlament qanunvericiliyi ilə deyil, beynəlxalq hüquqla tənzimləndiyindən, bu məqsədlərə çatmaq ehtimalı çox aşağıdır.

Səudiyyə Ərəbistanında nəşr edilən "Al-Watan Saudi Arabia" nəşri yazır: "Doğrudur, hər iki tərəfin məqsədləri və qırmızı xətləri əhəmiyyətli dərəcədə fərqlənir. Daha əhəmiyyətlisi isə odur ki, onlar diametral şəkildə əks ideologiyaları rəhbər tuturlar, bu isə danışıqları, ümumiyyətlə, həqiqi etimadın qurulmasına və ya davamlı sülhə nail olmaq üçün səmimi istəyə yönəltmir". Danışıqların mahiyyəti tərəflər arasında ən azı qarşılıqlı razılaşmanı nəzərdə tutsa da, ABŞ özünü israrla devirməyə çalışdığı rejimin nümayəndələri ilə müzakirə masasında tapır. Digər tərəfdə isə iranlılar nifrət etməyi öyrətdikləri və bütün Fars körfəzi bölgəsindən qovmağa çalışdıqları "Böyük şeytan"ın nümayəndələri ilə bir masada oturublar. Bütün bu mülahizələr ABŞ-ın nüvə məsələsində maksimalist tələblərini azaltmasına və Hörmüz boğazının qeyd-şərtsiz açılmasını qəbul etməsinə mane olu. Üstəlik, onlar hətta mümkün olan hər hansı bir razılaşma üçün "zəmanətlərin" verilməsinə də mane olurlar.

Danışıqların mürəkkəb, heç bir tərəfin güzəştə getmək fikri olmadığı, amma atəşkəs haqqında memorandumun imzalanmağa yaxın olduğu bir vaxtda ABŞ-ın müttəfiqi İsrail Livana yeni hava zərbələri endirməyə başlayıb. İsrail Livanın cənubunda güclü siyasi təsirə malik olan Hizbullahın qalalarını hədəf aldığını iddia edir. İsrailin şimalına minlərlə raket və dron atılıb. İsrail ordusunun hava zərbələri nəticəsində 1 milyondan çox insan evlərindən qaçmağa məcbur edilib. Onlarla uşaq da daxil olmaqla 3 min 300 nəfər həlak olub. Livanın Baş naziri Nəvaf Salam şənbə günü İsraili "şəhər və kəndləri tamamilə məhv etmək siyasəti yürütməkdə" günahlandırdı.

Təbii ki, bu, ABŞ Prezidentini qəzəbləndirməyə bilməzdi. Ən azı, ona görə ki, İsrail hərbi hava qüvvələrinin endirdiyi bu zərbələr barədə Vaşinqtona heç bir xəbərdarlıq etməmişdi. Bundan dərhal sonra dünya mətbuatında qızğın xəbərlər yayılmağa başladı. Guya İsrailpərəst mövqeyi ilə tanınan ABŞ Prezidenti Tramp İsrailin Baş naziri Benyamin Netanyahunu tənqid edərək onu "dəli" adlandırıb və hətta bir dəfə ona qışqırıb: "Sən nə edirsən?" Xəbərlərdə açıqlanır ki, mülki itkilərin sayı artmaqda davam edir və "Hizbullah" liderlərini öldürmək üçün binaların bombalanması ciddi narahatlıq doğurur. Görünür, Donald Tramp Netanyahunun Livanda daha da gərginləşmə kursunun İranla danışıqlarını poza biləcəyindən qorxur. Böhran getdikcə daha da kəskinləşir.

"Yahoo News Japan" qəzeti yazır ki, Vaşinqton çətin vəziyyətdədir: "Livana hücum nəticəsində gərginliyin artması Tramp administrasiyasının İranla danışıqlarını təhlükə altına qoya bilər".

"Axios" xəbər agentliyi isə məlumatlı mənbələrə istinadən bildirib ki, iyunun 1-də "nalayiq ifadələr dolu telefon danışığı" zamanı Tramp Netanyahunu hətta Beyrutu bombalamaqla hədələdiyinə görə kəskin "tənqid edib". Agentliyin məlumatına görə, İsrailin Livandakı hərəkətləri İran hakimiyyətinin bazar ertəsi günü ABŞ-la danışıqları dayandırmaqla hədələməsinə səbəb olub.

Məlumatlı mənbələr bildirirlər ki, bu arada, İsrail daxilində sağçı qüvvələrdən nəzərəçarpacaq dərəcədə əks-səda müşahidə olunur. Trampın Livanda atəşkəs təklifindən dərhal sonra ifrat sağçı fiqur olan milli təhlükəsizlik naziri İtamar Ben-Qvir sosial mediada yazıb: "Prezident Trampa "yox" deməyin vaxtıdır". Maliyyə naziri Bezalel Smotriç "Hizbullah"ın İsrail ordusuna atdığı hər pilotsuz təyyarə üçün Beyrutda 10 binanın dağıdılmasını təklif edib. Trampa qarşı İsrailin sağçı qanadında narazılıq artır.

Yaponiyanın tanınmış siyasi analitiklərindən biri Kosuke Takahaşi hadisələrin gedişini qiymətləndirərkən yazır: "Bu mübadilə Yaxın Şərqdə ABŞ və İsrail arasında strateji anlaşmada yaranan boşluğu açıq şəkildə nümayiş etdirir". İsrailin xeyrinə olmayan bir tendensiya da onun dünya ölkələrindən getdikcə daha çox təcrid olunması təhlükəsidir ki, bu da gələcəkdə yəhudi dövlətinə yaxşı bir şey vəd etmir. Çünki son hadisələrdən sonra Avropa liderləri də tədricən İsrailin Yaxın Şərqdəki münaqişələrdə əsas pay sahibi olduğunu qınamağa başlayıblar. Elə İsrail hərbçiləri Livandakı orta əsrlərə aid Bofort qalasını ələ keçirdikdən sonra Avropa ölkələrinin liderləri Təl-Əvivin Livana hücumunu pisləyib. Fransa prezidenti Emmanuel Makron bütün tərəfləri atəşkəsə çağırıb. "Heç nə Livanın cənubundakı kütləvi eskalasiyaya haqq qazandırmır", – deyə o bildirib. Fransa xarici işlər naziri Jan-Noel Barro isə bazar ertəsi günü BMT Təhlükəsizlik Şurasının iclasını keçirməyi tələb edib.

Fransa siyasi liderlərinə Böyük Britaniya və Almaniyanın xarici işlər nazirləri də qoşulub. İvet Kuper İsrail ilə "Hizbullah" arasında aprel ayından bəri qüvvədə olan, İran tərəfindən dəstəklənən və ABŞ-ın vasitəçiliyi ilə həyata keçirilən atəşkəsə hörmət etməyə çağırıb. Lakin hər iki tərəf buna çətinliklə əməl edir.

Bu gərginlik azmış kimi, Böyük Britaniyanın "The Guardian" nəşri xəbər verib ki, ABŞ və İran raketlər və pilotsuz təyyarələrlə yeni hücumlar mübadiləsi aparıblar. Bu da Vaşinqtonun Tehranla yeni atəşkəs əldə etmək səylərini daha da sarsıdır və Yaxın Şərqdə müharibənin yenidən alovlanması təhlükəsini artırır.

Çərşənbə axşamı günü baş verən son eskalasiya mərkəzi komandanlıq Botsvana bayrağı altında üzən boş "Lexie" tankerini hədəf aldıqdan sonra başlayıb. Hərbçilər bildiriblər ki, onların təyyarələri raket atəşi açıb və Küveyt yaxınlığındakı boğazın şimalında, İranın Xarq adasına doğru beynəlxalq sularda hərəkət edən bir tankerin mühərrikini sıradan çıxarıb. İddialara görə, heyət son 24 saat ərzində çoxsaylı xəbərdarlıqlara məhəl qoymayıb. Daha sonra ABŞ komandanlığı İranın bölgədəki cavab hücumlarını dəf etdiyini və Tehranın Qeşm adasında İran komandanlıq məntəqəsinə zərbə endirdiyini açıqlayıb.

İran İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) öz növbəsində Qeşm hücumuna cavab olaraq ABŞ-ın Bəhreyndəki 5-ci donanmasının qərargahına raketlər və dronlarla hücum etdiyini iddia etsə də, ABŞ Mərkəzi Komandanlığı bunu təkzib edib.

Bundan qısa müddət sonra Küveyt ordusu hava hücumlarından müdafiə qüvvələrinin raket və pilotsuz təyyarə hücumlarını dəf etdiyini bildirib və ictimaiyyəti "düşmən hava hədəflərinin ələ keçirilməsi nəticəsində yarana biləcək heç bir zibil və ya naməlum əşyaya yaxınlaşmamağa və ya toxunmamağa" çağırıb. Həmçinin Bəhreyndə hava hücumu xəbərdarlıq siqnalları səslənib.

Mərkəzi Komandanlıq bildirib ki, Küveytə atılan iki İran raketi "hədəflərinə çatmadan yolda parçalanıb", Bəhreynə yönəlmiş 3 raket isə ABŞ və yerli hava hücumundan müdafiə qüvvələri tərəfindən məhv edilib. Ordu komandanlığı daha sonra əlavə edib ki, Küveytdəki Amerika qoşunlarını hədəf alan yeni bir dron dalğasını dəf edib və heyətin heç bir üzvü xəsarət almayıb.

ABŞ Dövlət katibi Marko Rubionun ABŞ və İsrailin İranla müharibəyə girməsindən bəri Senatın Xarici Əlaqələr Komitəsindəki ilk ifadəsində verdiyi nikbin açıqlamalara baxmayaraq, son hava zərbələri mübadiləsi Yaxın Şərq böhranının həllində siyasi irəliləyişin olmamasını açıq şəkildə nümayiş etdirir.

Çərşənbə axşamı Rubio Tehranla razılaşmanın əldə edilə biləcəyi iddialarını təkrarlayaraq rejimin bir ay əvvəl imtina etdiyi nüvə proqramının bəzi detallarını müzakirə etməyə razı olduğunu vurğulamasına baxmayaraq, onun şərhləri İsrailin Livandakı hücumuna etiraz olaraq ABŞ ilə sülh danışıqlarını dayandıracağını bəyan edən İranın mövqeyi ilə ziddiyyət təşkil edir və bu da Vaşinqtonla sülh danışıqlarının tamamilə pozulmasına real təhlükədir.

Hadisələrin bu məcrada davam edəcəyi təqdirdə ABŞ–İran danışıqlarının sülhə gedən yoldan sapıb müharibə girdabına düşmək ehtimalı daha real görünür. Əgər Donald Tramp İsrailin hərbi çılğınlığını ram edə bilməsə, çox güman, müharibə bu dəfə bütün regionu cənginə ala, hətta Dünya müharibəsinə yol aça bilər.

***İlqar RÜSTƏMOV,***
***XQ-nin siyasi analitiki***

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

*2026/2027-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla*

**təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edir**

- **6002001 Beynəlxalq münasibətlər**
- **6004001 Beynəlxalq ticarət və logistika**
- **6004002 Biznesin idarə edilməsi**
- **6004003 Dövlət və bələdiyyə idarəetməsi**
- **6004004 İqtisadiyyat**
- **6004005 Maliyyə**
- **6004006 Marketinq**
- **6004007 Menecment**
- **6004008 Mühasibat**
- **6005004 Ekologiya**
- **6005009 Kompüter elmləri**
- **6005012 Statistika**
- **6006007 Ekologiya mühəndisliyi**
- **6006008 Elektrik və elektronika mühəndisliyi**
- **6006016 İnformasiya texnologiyaları**
- **6006017 İnformasiya təhlükəsizliyi**
- **6006021 Kommunikasiya sistemləri mühəndisliyi**
- **6006022 Kompüter mühəndisliyi**
- **6006023 Qida mühəndisliyi**
- **6006026 Maşın mühəndisliyi**
- **6006027 Materiallar mühəndisliyi**
- **6006041 Sənaye mühəndisliyi**
- **6008006 Sosial iş**
- **6003005 Dizayn (geyim dizaynı, mühit dizaynı)**

Təkrar ali təhsilə sənəd qəbulu ancaq elektron qaydada https://portal.edu.az/ və http://www.kabinet.unec.edu.az internet linkləri vasitəsilə həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri ilk növbədə https://portal.edu.az/ və bundan sonra isə http://www.kabinet.unec.edu.az portalları vasitəsi ilə elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüqu¬qunu qazanırlar.

Sənədlərin qəbulu 2026-ci il iyunun 3-dən avqustun 31-dək aparılacaq.

***Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:***

*– Rektorun adına ərizə;*
*– Ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);*
*– 3x4 sm ölçüdə fotoşəkil;*
*– Şəxsiyyət vəsiqəsinin surəti.*

**QEYD:** 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

**Ünvan:** Akademik Həsən Əliyev küçəsi 135, otaq 518.
**Telefon:** (012) 564-38-92.
**Mobil:** (070) 578-08-59 (həmçinin WhatsApp ünvan).
(055) 875-04-33 (həmçinin WhatsApp ünvan)/
Facebook ünvanı: https://www.facebook.com/unectekraralitehsil/
İnstaqram ünvanı: https://www.instagram.com/sabuhitanriverdi/

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxs**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2026-cı il tarixli 320s nömrəli Sərəncamına uyğun olaraq 2026-cı il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya aşağıdakı ixtisaslara qəbul elan edir:**

| İxtisasın şifri | İxtisasların adları | Qəbul planı: Fəlsəfə doktoru proqramı üzrə doktorantura |
|---|---|---|
| 2426.01 | Ekologiya (elm sahələri üzrə) | 2 (qiyabi) |
| 2508.01 | Geoekologiya | 1 (qiyabi) |
| 2518.01 | Hidrogeologiya | 1 (qiyabi) |
| 3103.02 | Meliorasiya, rekultivasiya və torpaqların mühafizəsi | 2 (qiyabi) |
| 3305.05 | Mühəndis-kommunikasiya sistemləri | 1 (qiyabi) |
| 3305.08 | Hidrotexniki tikinti | 1 (qiyabi) |
| 5406.01 | Hidrologiya | 2 (qiyabi) |

**Qəbul qaydaları:**

**1. Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya** ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

**2.** Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*– ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);*
*– kadrların şəxsi uçot vərəqi;*
*– tərcümeyi-hal;*
*– 2 ədəd fotoşəkil (3x4 sm ölçüsündə);*
*– iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
*– iş yerindən xasiyyətnamə;*
*– çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
*– ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərinin tanınması barədə şəhadətnamə);*
*– şəxsiyyəti təsdiq edən sənədin surəti.*

**3.** Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanlarını verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

**4.** Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilir. Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar. Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (İELTS, TOEFL, TestDaF, DELF və DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad edilirlər. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

**5.** Doktoranturaya sənədlərin qəbulu elan dərc olunan gündən 9 iyun 2026-cı il tarixinədək aparılacaqdır.

**Ünvan:** AZ1130, Bakı şəhəri, İ.Dadaşov küçəsi 324, 808-ci otaq.

***Müdiriyyət***

**AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ**

***aşağıdakı kafedralarda vakant vəzifələri tutmaq üçün***

**MÜSABİQƏ ELAN EDİR**

**– "Beynəlxalq ticarət və logistika" – kafedra müdiri**
**– "Statistika və gömrük işi" – kafedra müdiri**
**– "Mülki müdafiə və HFT" – kafedra müdiri**

Sənədlər bu elan dərc olunan gündən 1 ay müddətində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları"-na uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı üvana təqdim edilməlidir.

**Telefon:** (012) 561-29-72. **Ünvan:** Aze: 1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93, otaq 205.

***Rektorluq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 96 (31065) 4 iyun 2026-cı il, cümə axşamı

## İDMAN

## 4 avarçəkmə medalı



**Qazaxıstanın Uralsk şəhərində 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş kayak və kanoe üzrə beynəlxalq reqata başa çatıb. Yarışa 4 nəfərlik heyətlə yollanan komandamızın bütün üzvləri fəxri kürsüyə yüksəlib.**

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasından verilən məlumata görə, ikinəfərlik kanoe qayığında mübarizə aparan Vaqif Mustafazadə və Fəxri Sadıqlı 200 metr məsafəyə yürüşlərdə 3-cü yer tutublar.

İkinəfərlik kayak qayığında mübarizə aparan Sənan Cəfərzadə və Tahir Mövsümov cütlüyü isə 500 metr məsafədə fəxri kürsünün üçüncü pilləsinə yüksəlib. Sənan və Tahir 200 metr məsafəyə yarışlarda gümüş medala layiq görülüblər.

## Bakıda beynəlxalq tennis turniri



**Mayın 26-dan 31-dək Bakı Tennis Akademiyasında "ITF Juniors J30 Baku" beynəlxalq tennis turniri keçirilib. Azərbaycanla yanaşı, Türkiyə, Hindistan, İsrail, Fransa, Ukrayna, Gürcüstan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Avstraliya, ABŞ və neytral statuslu idmançılar turnirdə qüvvələrini sınayıblar.**

Azərbaycan Tennis Federasiyasından verilən məlumata görə, gərgin və maraqlı mübarizə şəraitində keçən yarışda oğlanlar və qızlar arasında fərdi və qoşa kateqoriyalar üzrə qaliblər müəyyənləşib.

Turnirin nəticələrinə əsasən, oğlanların fərdi yarışında Filip Smirnov birinci, Yakov Mazin isə ikinci yeri tutublar. Qızların fərdi yarışında Vladislava Slelina qalib olub. Yevgeniya Sklyar isə gümüş medala layiq görülüb.

Oğlanların cüt yarışında Filip Smirnov və Yakov Mazin tandemi bütün rəqiblərini qabaqlayaraq birinci yerə yüksəlib. Runmaan Maneş və Yonatan Şaqas cütlüyü isə ikinci yeri tutub. Qızların cüt yarışında Polina Korelova və Vasilisa Marçenko qalib adını qazanıblar. Yeva-Vlada Anitsina-Ciqurda və Safiya Urazalina cütlüyü isə turniri ikinci pillədə başa vurub.

## Paytaxtda yeni cüdo salonları



**Xəzər rayonunun Mərdəkan və Qala qəsəbələrində yeni cüdo zalları istifadəyə verilib.**

Azərbaycan Cüdo Federasiyası tərəfindən hər iki zal müasir standartlara uyğun tatamilər və zəruri avadanlıqlarla təchiz olunub. Federasiyadan verilən məlumata görə, zallarda paltardəyişmə otaqları, məşqçi otaqları və digər köməkçi sahələr yaradılıb. Burada 200-dən çox idmançının cüdo ilə məşğul olması üçün əlverişli şərait təmin edilib.

Qeyd edək ki, 2022–2026-cı illər ərzində Gəncə, Sumqayıt, Qusar, Ağstafa, Zaqatala, Goranboy, Sabirabad, Zirə, Ağdaş, Kürdəmir, Astara, Cəlilabad, Tərtər, Qax, İmişli, Şabran, Daşkəsən və Yevlax da daxil olmaqla ölkənin müxtəlif bölgələrində yeni cüdo zalları istifadəyə verilib. Bununla yanaşı, Bakı və regionlardakı 202 idman zalına, ümumilikdə, 14 min 300 tatami paylanılıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

# "Qoca qitə" nə üçün "Google"dan üz çevirir?

## *Brüsselin rəqəmsal suverenlik sınağı*




**Məlumdur ki, Avropa iqtisadiyyatının və dövlət institutlarının rəqəmsal infrastrukturu, əsasən, ABŞ mənşəli texnologiyalara söykənir. Sözügedən asılılıq uzun müddət texnoloji inkişafın təbii nəticəsi kimi qəbul edilsə də, geosiyasi mühitdə baş verən dəyişikliklər Avropa paytaxtlarını məsələyə fərqli baxmağa vadar edib. Bu səbəbdən Avropa Parlamenti "Google" axtarış sistemindən imtina edərək Fransanın "Qwant" platformasına üstünlük verməyi planlaşdırır.**

Hadisənin siyasi, iqtisadi və geostrateji fonu göstərir ki, məsələ, sadəcə, axtarış sisteminin dəyişdirilməsi ilə bitmir. Proses Avropa İttifaqında getdikcə güclənən texnoloji suverenlik konsepsiyasının növbəti mərhələsini ifadə edir, Brüsselin rəqəmsal dünyada ABŞ texnologiya nəhənglərinin dominantlığına qarşı formalaşdırdığı uzunmüddətli strategiyanın tərkib hissəsi kimi qiymətləndirilir.

"Google"dan uzaqlaşmaq qərarı Aİ-nin texnoloji sahədə yeni prioritetlərini nümayiş etdirir. Qərarın əsaslandırılmasında məxfilik məsələsi xüsusi yer tutur. Avropa uzun illərdir şəxsi məlumatların qorunmasını fundamental hüquq kimi təqdim edir. Ümumi Məlumatların Mühafizəsi Qaydaları (GDPR) qəbul ediləndən sonra Avropa özünü qlobal miqyasda rəqəmsal məxfilik standartlarının əsas müəyyənedicilərindən biri kimi göstərməyə çalışıb. ABŞ texnologiya şirkətləri isə tez-tez istifadəçi məlumatlarının toplanması, emalı və kommersiya məqsədilə istifadəsi ilə bağlı tənqidlərin hədəfinə çevrilirlər. "Qwant"ın üstünlüyü məhz burada ortaya çıxır. Şirkət özünü istifadəçiləri izləməyən, şəxsi məlumatları toplamayan və fərdi profilləşdirmədən istifadə etməyən platforma kimi təqdim edir.

Avropa ilə ABŞ arasında texnologiya sahəsində münasibətlər bəzən müttəfiqlik, bəzən isə rəqabət elementləri ilə müşayiət olunub. Vaşinqton və Brüssel təhlükəsizlik, müdafiə və iqtisadi əməkdaşlıq sahələrində yaxın tərəfdaş olsalar da, rəqəmsal iqtisadiyyat mövzusunda tərəflər arasında ciddi fikir ayrılıqları mövcuddur. Avropa rəsmiləri hesab edirlər ki, qitənin rəqəmsal bazarından əldə edilən milyardlarla avroluq gəlirin böyük hissəsi ABŞ şirkətlərinə axır. "Google", "Microsoft", "Amazon", "Apple" və "Meta" kimi korporasiyalar Avropa bazarında dominant mövqeyə malikdirlər. Yerli şirkətlər isə bu rəqabətdə geri qalırlar. Bu səbəbdən Brüssel tənzimləmə siyasətindən istifadə edərək Avropa şirkətlərinə əlavə imkanlar yaratmağa çalışır.

Son illər qəbul edilən Rəqəmsal Xidmətlər, Rəqəmsal Bazarlar Aktları və süni intellektlə bağlı yeni qaydalar eyni strategiyanın elementləri hesab olunur. Bu sənədlər formal olaraq bütün şirkətlərə şamil edilməsə də, onların əsas təsir dairəsinə məhz ABŞ texnologiya nəhəngləri daxildir. Avropa beləliklə həm bazar qaydalarını sərtləşdirir, həm də öz şirkətlərinin inkişafı üçün daha əlverişli mühit formalaşdırmağa çalışır. "Qwant" bu kontekstdə daha geniş geosiyasi mənzərə ilə əlaqələndirilir. Ukrayna müharibəsi, ABŞ–Çin texnoloji qarşıdurması və qlobal iqtisadi fraqmentasiya Avropaya göstərib ki, strateji əhəmiyyət daşıyan sahələrdə həddindən artıq xarici asılılıq ciddi risklər yarada bilər.

Proseslə bağlı fikirlər də müxtəlifdir. Tənqidçilər bildirirlər ki, texnoloji suverenlik ideyası nə qədər cəlbedici səslənsə də, Avropa hələlik ABŞ şirkətləri ilə rəqabət aparacaq güclü alternativlər formalaşdırmağa nail olmayıb. "Google"un axtarış bazarındakı payı bir çox Avropa ölkəsində 90 faizdən yuxarıdır. "Microsoft"un proqram təminatları dövlət qurumlarında və özəl sektorda geniş istifadə olunur. Amazon isə bulud xidmətləri bazarında əsas oyunçulardan biridir. Belə şəraitdə yalnız siyasi qərarlar vasitəsilə texnoloji müstəqillik əldə etmək mümkün görünmür. Bunun üçün milyardlarla avro investisiya, innovasiya mühiti, yüksək ixtisaslı kadr potensialı və qlobal miqyasda rəqabət qabiliyyətli şirkətlərin formalaşdırılması tələb olunur.

Maraqlıdır ki, Avropanın bu siyasəti ABŞ-da da diqqətlə izlənilir. Vaşinqton rəsmiləri açıq şəkildə etiraz etməsələr də, bəzi dairələrdə Avropa tənzimləmələrinin ABŞ şirkətlərini hədəfə aldığı barədə fikirlər səslənir. Onların qənaətincə, Avropa yeni texnoloji liderlər yaratmaq əvəzinə mövcud qlobal liderlərin fəaliyyətini məhdudlaşdırmağa çalışır. Brüssel isə bu iddiaları rədd edərək məqsədin ədalətli rəqabət mühiti yaratmaq olduğunu vurğulayır.

*Nəzrin ELDARQIZI*
*XQ*

### *Ekspert rəyi*



**Müşfiq ƏLƏSGƏRLİ,**
**media eksperti**

Avropa Parlamentinin Google əvəzinə Fransanın Qwant axtarış sisteminə üstünlük verməsi təsadüfi qərar deyil. Bu addım Avropa İttifaqının məxfilik və məlumat təhlükəsizliyi üzrə çağırışları nəzərə alaraq son illərdə ardıcıl şəkildə həyata keçirdiyi rəqəmsal suverenlik siyasətinin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Nəzərə almaq lazımdır ki, müasir dövrdə rəqəmsal texnologiyalar, internet platformaları, bulud xidmətləri və süni intellekt sahəsində qlobal bazara, əsasən, ABŞ və Çin mənşəli şirkətlər nəzarət edirlər. Danılmaz faktdır ki, axtarış sistemləri, sosial şəbəkələr, əməliyyat sistemləri, elektron ticarət platformaları və süni intellekt həlləri sahəsində dominant mövqe tutan "Google", "Meta", "Microsoft", "Amazon", "Apple" ABŞ üçün, "Baidu", "Alibaba" və "Tencent" isə Çin üçün iqtisadi layihələr olmaqla yanaşı, həm də informasiya və geosiyasi təsir imkanları yaradırlar.

Bu vəziyyət dünyanın bir çox ölkələrində, xüsusilə də Aİ-də müəyyən narahatlıq yaradır. Çünki məlumatların təhlükəsizliyi, şəxsi həyatın toxunulmazlığı, rəqəmsal asılılıq və milli təhlükəsizlik məsələləri ön plana çıxır. Məhz buna görə Aİ son illər rəqəmsal məkanın tənzimlənməsi istiqamətində mühüm addımlar atır. GDPR (Ümumi Məlumatların Qorunması Qaydaları), Rəqəmsal Xidmətlər Aktı (DSA) və Rəqəmsal Bazarlar Aktı (DMA) kimi hüquqi mexanizmlər tətbiq edərək texnologiya nəhənglərinin fəaliyyətini daha şəffaf və məsuliyyətli etməyə çalışır. Eyni zamanda, Avropa ölkələri strateji əhəmiyyət daşıyan rəqəmsal xidmətlər üzrə öz alternativlərini yaratmağa çalışırlar.

"Qwant"ın seçilməsi bu siyasətin praktik nümunəsidir. Fransada yaradılmış axtarış sistemi istifadəçi məlumatlarının məxfiliyinə xüsusi önəm verməsi və fərdi məlumatların kommersiya məqsədilə geniş şəkildə emal edilməməsi ilə fərqlənir. Avroparlamentin bu seçimi etməsi həm texniki, həm də siyasi mesaj daşıyır. Mesaj ondan ibarətdir ki, Avropa öz rəqəmsal infrastrukturunu formalaşdırmaq və xarici texnologiya nəhənglərindən asılılığı azaltmaq niyyətindədir.

Məlumat üçün qeyd edim ki, bu yöndə sistemli addım atan ölkələr təkcə Aİ üzvü olan dövlətlərdən ibarət deyil. Məsələn, Rusiya hələ 2019-cu ildə "İnternetin suverenliyi haqqında" qanun qəbul edib və indi Avropa İttifaqının reallaşdırdığı proqramları o da ötən 7 il ərzində öz ərazisində reallaşdırmağa çalışıb. Bu cür nümunələrin sayı çoxdur.

Hesab edirəm ki, qeyd edilən prosesi ABŞ-a qarşı yönəlmiş addım kimi deyil, strateji özünütəminetmə siyasəti kimi qiymətləndirmək daha doğru olardı. Necə ki, dövlətlər enerji, ərzaq və müdafiə təhlükəsizliyi sahələrində müstəqillik əldə etməyə çalışırlar, XXI əsrdə rəqəmsal müstəqillik də eyni dərəcədə vacib hesab olunur. Süni intellektin sürətli inkişafı fonunda məlumatların kim tərəfindən toplanması, emal edilməsi və idarə olunması məsələsi artıq texniki deyil, milli təhlükəsizlik və dövlət suverenliyi məsələsinə çevrilib.

Əgər Avropa Parlamenti bu yöndə qərarlarını sistemli şəkildə həyata keçirə bilsə, Avropa İttifaqı yaxın gələcəkdə rəqəmsal texnologiyalar sahəsində daha müstəqil ekosistem formalaşdıra biləcək. Bu baxımdan deyə bilərik ki, qeyd edilən tendensiya gələcəkdə axtarış sistemləri ilə məhdudlaşmayaraq, bulud texnologiyalarını, süni intellekt platformalarını, məlumat mərkəzləri və digər strateji rəqəmsal xidmət sahələrini də əhatə edəcək.

## HAVA

# Aranda yağmursuz, dağlarda və dağətəyində yağış, dolu...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 12-16, gündüz 22-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət isə gecə 65-75, gündüz 50-55 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-18, gündüz 26-31, dağlarda gecə 7-12, gündüz 15-20, bəzi yerlərdə 24-26 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

✓ ***2021-ci ildə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Tuayev Zaur Tamerlanoviçin adına verilmiş kiçik həcmli gəmilərin AA00510 nömrəli sürücülük vəsiqəsi, "ED-78" markalı , hidrosikl tipli gəminin ABB seriyalı, 1757 bort nömrəli sənədi itdiyi üçün etibarsız sayılır.***

✓ ***2011-ci ildə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən İsgəndərli Pərvanə İlqar qızının adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.***

## "Hədiyyələr" Açıq Səhmdar Cəmiyyətinin

### 2026-cı il yanvarın 1-nə olan maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatı

manatla

| Maddələrin adları | Hesabat dövrü | Əvvəlki dövr |
|---|---|---|
| Qeyri-birja əməliyyatlarından gəlir | 154140.00 | 135580.00 |
| Birja əməliyyatlarından gəlir | | |
| Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişikliklər | | |
| Təşkilat tərəfindən yerinə yetirilmiş və kapillaşdırılmış işlər | | |
| Pul formasında verilmiş yardımlar (xəsarət müavinəti) | 2880.00 | 2484.00 |
| Natural formada verilmiş yardımlar | | |
| Xammal və istifadə olunmuş materiallar | | |
| **Əmək haqqı xərcləri (hesablama)** | 38386.00 | 35870.00 |
| Köhnəlmə və amortizasiya xərcləri | 6468.00 | 6955.00 |
| Sair əməliyyat xərcləri | 85137.00 | 91206.00 |
| Uzunmüddətli aktivlərin xaric olmasından qazanc və itkilər | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | 24149.00 | 1549.00 |
| Maliyyə gəlirləri | 154140.00 | 138580.00 |
| Maliyyə xərcləri | 129991.00 | 134031.00 |
| Mənfəət vergisi | 1207.00 | 309.00 |
| Hesabat dövrü üzrə xalis mənfəət (zərər) | 20062.00 | 1549.00 |

## ALLAH RƏHMƏT ELƏSİN!

AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva və institutun kollektivi türk filologiyası şöbəsinin aparıcı elmi işçisi

**BARAT OSMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3186
SİFARİŞ 697
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00